www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 aprel 2018-ci il Bazar ertəsi № 93 (6982) Qiyməti 60 qəpik

**Xəbər**

## Şamaxıda sərxoş gənc göldə boğuldu

yazısı səh.14-də

**Gündəm**

### AŞ PA-nın intim xidmət ittihamına Azərbaycandan sərt reaksiyalar



"Görün Avropa Şurası nə günə qalıb ki..."

yazısı səh.6-da

### ADNA terrorundan 9 il ötdü - müdhiş olay üzərindəki sirr pərdəsi isə hələ də qalır

yazısı səh.10-da

### "Dağlıq Qarabağı tanımalıyıq" çağırışını etmiş Paşinyan hakimiyyətə gəlsə...

yazısı səh.3-də

### Türkiyədə yaşayan azərbaycanlı politoloqdan mühüm açıqlamalar - "Akşenerin qələbə şansı..."

yazısı səh.12-də

### Tanımadığı şəxsi qonaqlıq vermədiyi üçün bıçaqlayan şəxsti hekayəti

yazısı səh.14-də

*Nüşabə Ələsgərli:*

### "Ziyarətinə getdiyim üçün artıq mənə fala baxdırmaq olmaz"

yazısı səh.13-də

### Rusiyadan Türkiyəyə "yaşıl işıq": Azərbaycanda pomidor ucuzlaşacaq

yazısı səh.4-də

### Hacı İbrahim qardaşından imtina elədi: "O adam barəsində..."

yazısı səh.11-də

*Azərbaycanlı haker:*

### "Milyonlarla pulu bankdan çıxardım, sonra da..."

yazısı səh.11-də

### Dünyanın ən qəribə itkin düşmə hekayələri

yazısı səh.15-də

# ERMƏNİSTAN KRİTİK HƏFTƏYƏ GİRDİ - MÜHARİBƏNİN "FİTİL"İ ÇƏKİLƏ BİLƏR

Sabah parlament yeni baş naziri seçməlidir; xalq üsyançı deputata mandat verdi, parlament çoxluğu və Kreml də verəcəkmi? ölkədə siyasi ehtiraslar pik həddə; **politoloq:** "Rusiya təşviş içindədir və onun Qarabağı alıb bizə verməsi..."



yazısı səh.4-də

# "Koroğlu" MMC öz işçilərini necə "kor" qoyur

"Bazar-dükanlardan yığılan yararsız şirniyyat zibilliyə atılmır, şirkət daxilindəki xüsusi anbarda yenidən qablaşdırılır və təzə mal adı ilə piştaxtalara qaytarılır...

yazısı səh.14-də



### Məmmədovların yanan hoteli - təxribat, yoxsa...

yazısı səh.3-də



*Fazil Mustafa:*

### "Prezident yanında İctimai Palata yaratmağın vaxtı çatıb"

yazısı səh.7-də



*Elxan Şahinoğlu:*

### "Rusiyadan hərbi-texniki asılılığımızı azaltmalıyıq"

yazısı səh.9-da




## Tramp Ağalarovla telefonda 11 dəqiqə nədən danışıb?

**Rusiyanın ABŞ-dakı seçkilərə müdaxiləsi ilə bağlı Amerikanın xüsusi prokurorunun təhqiqatında yer alan kiçik Donald Trampla rusiyalı iş adamı Emin Ağalarov arasında silsilə yazışmaların ilkləri 2016-cı ilin prezident seçkilərindən iki gün sonra göndərilib. Virtualaz.org xəbər verir ki, bu barədə özəl mənbəyinə istinadən "BuzzFeed News" nəşri yazıb.**

Yazışma ən azı 2016-cı ilin dekabr ayına qədər davam edib. "BuzzFeed News" qeyd edir ki, hər bir tərəfin yazışma sırasında nə qədər məlumat yollaması bəlli deyil. Nəşr əlavə edir ki, 2016-cı ilin dekabrında kiçik Trampla Emin Ağalarovun danışıqlar aparması faktı Rusiyanın müdaxiləsi haqqında ABŞ Konqresinin aprelin 27-də dərc etdiyi 250 səhifəlik məruzədə də yer alıb. "Bu, onun göstəricisidir ki, "Trampla Ağalarov arasında münasibət prezident və onun ailəsinin bildirdiyindən daha yaxın olub", - nəşr qeyd edir.

Konqresin əvvəllər bəyan etdiyi məruzədən aydın olur ki, kiçik Tramp və musiqi prodüseri Rob Qoldstoun Ağalarovla kiçik Tramp arasında 2016-cı ilin iyun ayının 6-da telefon əlaqəsi yaratmağa cəhd ediblər. İlk zəng elə həmin gün baş tutub. Qoldstoun kiçik Trampa yazıb ki, Ağalarov "Moskvada səhnədədir, 20 dəqiqədən sonra qurtaracaq". 21 dəqiqə sonra telefon danışığı olub. Söhbət 11 dəqiqə davam edib, belə ki, məhz bu qədər vaxtdan sonra kiçik Tramp Qoldstouna yazıb: "Rob, köməyə görə sağ ol".

Bu telefon danışığı kiçik Trampın "Trump Tower"də rusiyalı vəkil Natalya Veselnitskaya ilə görüşünə 3 gün qalmış baş tutub. Məruzədə deyilir ki, kiçik Tramp görüşdə Hillari Klintona qarşı təxribat əldə etmək istəyirdi, lakin müzakirə tez bir zamanda "Maqnitski qanunu"na keçdi ki, Rusiyanın həmin qanununa əsasən, amerikalılara rusiyalı yetim uşaqları övladlığa götürməyə icazə verilmir. Bununla yanaşı, söhbətdə ABŞ-ın Rusiya şirkətlərinə qarşı sanksiyaları da müzakirə edilib.

2017-ci ilin iyul ayında "The New York Times" yazmışdı ki, 2016-cı ildə kiçik Tramp Hillari Klintona qarşı təxribat xarakterli məlumat əldə etmək ümidi ilə Veselnitskaya ilə görüşüb. Nəşr qeyd edirdi ki, görüş müğənni və iş adamı Emin Ağalarovun xahişi ilə Rob Qoldstoun tərəfindən təşkil edilib. Qəzet iddia edirdi ki, Ağalarov təxribat xarakterli məlumatı atasından - "Crocus Group"un sahibi Araz Ağalarovdan alıb.

Deyildiyinə görə, həmin məlumatı A.Ağalarov "kral prokuroru"ndan əldə edib. Nəşr yazır ki, Rusiyada belə bir vəzifə yoxdur və güman ki, söhbət baş prokuror Yuri Çaykadan gedir. Daha sonra Rusiya Baş Prokurorluğu ABŞ prezidentinin oğlu ilə Veselnitskayanın görüşünə heç bir aidiyyatının olmadığını bildirmişdi.



## DİM növbəti sınaq imtahanını keçirdi

**Dövlət İmtahan Mərkəzi (DİM) I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün dünən ölkənin 12 şəhər və rayonunda sınaq imtahanları keçirib.**

DİM-dən verilən məlumata görə, imtahanlar Bakı, Sumqayıt, Xırdalan, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran, Xaçmaz şəhər və rayonlarında, ümumilikdə 56 binada təşkil olunub. İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 29925 abituriyent qeydiyyatdan keçib.

Sınaq imtahanı 1 növbə üzrə keçirilibvə bütün binalarda saat 11:00-da başlayıb. İmtahanların idarə edilməsi üçün 182 imtahan rəhbəri, 1785 nəzarətçi-müəllim ayrılıb.

# Formula-1: Prezident və xanımı yarışda

**Aprelin 29-da Bakıda Formula-1 Azərbaycan Qran-Prisinin əsas mərhələsinə start verilib. Əvvəlcə pilotların paradı və açılış mərasimi keçirilib. Musavat.com xəbər verir ki, Azərbaycan prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Formula-1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.**



Formula-1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qalıb. Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət ediblər. Formula-1 şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının "Gələcəyin ulduzları" adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi yeni qərara əsasən, builki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət olunacaqlar.

Sonra Azərbaycan Respublikasının dövlət himni ifa edilib. Dövlət himninin ifa olunmasından sonra Formula-1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət final mərhələsinə start verilib.

Sürücülərin start düzülüşü bu ardıcıllıqda olub: Sebastyan Fettel ("Ferrari"), Lüis Hemilton, Valtteri Bottas (hər ikisi "Mercedes"), Daniel Rikkardo, Maks Ferstappen (hər ikisi "Red Bull"), Kimi Raykkonen ("Ferrari"), Esteban Okon, Serxio Peres (hər ikisi "Force İndia"), Karlos Sayns ("Renault"), Lens Stroll, Sergey Sirotkin (hər ikisi "Williams"), Fernando Alonso ("McLaren"), Şarl Lekler ("Sauber"), Niko Hülkenberq ("Renault"), Kevin Maqnussen ("Haas"), Stoffel Vandorn ("McLaren"), Pyer Qasli ("Toro Rosso"), Markus Eriksson ("Sauber"), Brendon Hartli ("Toro Rosso"), Romen Qrojan ("Haas").

Qeyd edək ki, mövsümün dördüncü Qran Prisində hər birindən iki nəfər olmaqla, 10 komandanın 20 pilotu iştirak edir.

# Raisa Qorbaçovanın qardaşı dəlixanada tənhalıqda öldü

**Voronejdə Raisa Qorbaçovanın qardaşı - yazıçı Yevgeni Titarenko vəfat edib. Virtualaz.org "Voronej dövlət televiziyası"na istinadən xəbər verir ki, Titarenko ölümünə az qalmış psixiatriya xəstəxanasından köçürüldüyü vilayət xəstəxanasında dünyasını dəyişib.**



SSRİ-nin ilk və son birinci xanımının doğma qardaşı uzun illər Orlovka qəsəbəsində yerləşən dəlixanada yaşayıb. Heç bir qohumu ona qəyyum kimi qeydiyyatdan keçməyib və Yevgeni Titarenkonun rəsmi qəyyumu psixiatrik dispanser və onun baş həkimi göstərilir. Başqa sözlə, Mixail Qorbaçovun qaynı tam tənhalıqda, kimsəsiz ölüb.

Bildirilir ki, Titarenko ildə iki dəfə müayinədən keçirilirmiş, lakin həkimlər bu müayinələrin nəticələrinin onun evə buraxılması üçün qənaətbəxş olmadığını bildirirlərmiş. Mənbə yazır ki, Titarenkonun taleyi müəmmalarla doludur. Uzun müddət söz-söhbət gəzirdi ki, o, dəlixanaya qanunsuz şəkildə - güclə salınıb.

2014-cü ildə prokurorluq əməkdaşları bu məlumatla bağlı yoxlama aparmışdılar və qərara gəlmişdilər ki, deyilənlər həqiqətə uyğun deyil. Lakin söz-söhbət səngimək bilmədi.

Ötən ilin yayında "Rossiya 1" telekanalındakı "Canlı yayım" proqramında bir vaxtlar Yevgeni Titarenkonu yaxşı tanımış insanlar çıxış edərək bildirmişdilər ki, yazıçının dəlixanaya salınmasına səbəb onun dövlətin birinci şəxslərinə (o zamanlar üçün) aid bildiyi xeyli sayda gizli məlumatlar olub.

Raisa Maksimovna doğma qardaşına bu cür münasibət bəsləyə bilərdimi? Mixail Qorbaçovun müşaviri işləmiş yazıçı Georgi Pryaxin (Raisa Maksimovnanın yazdığı kitabın üzərində işləyib) xatırlayır ki, "birinci ledi" uşaqlığı barədə gözəl xatirələr danışırdı və qardaşını mehribanlıqla xatırlayırdı. Lakin onun indiki vəziyyətindən söhbət düşəndə bircə kəlmə ilə kifayətlənmişdi: "İçir".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz.

**Telefon: (012) 434 93 01**

## Bakıda özünü binadan atmaq istəyən şəxs xilas edilib

**Bakının Nizami rayonu ərazisində intihara cəhd hadisəsi baş verib. "Report" xəbər verir ki, bu barədə məlumat FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olub.**

Məlumata əsasən, Nizami rayonunda 1 nəfər kişi beşmərtəbəli yaşayış binasının damına çıxaraq intihar etmək istəyini nümayiş etdirib. Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri dərhal hadisə yerinə cəlb olunub. Xilasedicilər tərəfindən hadisə yerində müvafiq təhlükəsizlik tədbirləri görülüb. Vətəndaşla aparılan psixoloji söhbətlər nəticəsində o, özünə qəsd etmək fikrindən daşınıb.

## Rusiyada dəhşətli qətl: ana iki övladını yandırdı

**Rusiyanın Nijni Novqorod şəhərində dəhşətli qətl hadisəsi baş verib. Axar.az xəbər verir ki, Yelena Kərimova adlı qadın 2 övladını boğaraq qətlə yetirdikdən sonra cəsədləri yandırıb.**

Yelena Kərimova bunun üçün xüsusi plan hazırlayıb. O, əvvəlcədən kirayə maşın götürərək uşaqları 4 yaşlı Xədicə və 2 yaşlı Süleymanı meşəyə aparıb. Qadın burada övladlarını boğaraq öldürüb. Daha sonra meşədə onları yandırmağa çalışıb. Kəskin tüstüdən ətrafdakı ovçuların onu aşkar edə biləcəyindən qorxan Kərimova, cəsədləri maşına qoyaraq ərazidən uzaqlaşıb. O, daha sonra azyaşlı körpələrin cəsədlərini tərk edilmiş bir binada yandırıb.

Ekspertlər Kərimovanın psixi vəziyyətinin qaydasında olduğunu və bilərəkdən övladlarını öldürdüyün bildirib. Azyaşlı körpələri öldürməsinə səbəb kimi onları təmin edə bilmədiyini göstərən qatil ananın ayda 40 min rubl maşın icarəsinə verdiyi və bir qədər əvvəl isti ölkələrdən birinə səyahət paketi aldığı bəlli olub.

## Bu gün Bakıda 21° isti olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, arabir güclənən şimal-qərb küləyi günün ikinci yarısında şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 9-12° isti, gündüz 16-21° isti təşkil edəcək.**

YENİ MÜSAVAT
N 93 (6982) 30 aprel 2018



# Məmmədovların yanan hoteli - təxribat, yoxsa...

## Bakıdakı bir olayın mümkün pərdəarxası haqda

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğluna məxsus hotel-apartamentdə yanğının dərhal ölkənin bir nömrəli xəbərinə çevrilməsi bu olaya xüsusi diqqət yetirilməsini zəruri edir. Yəni ölkədə, demək olar ki, hər gün yanğılar olur və dünənki olay kimi insan itkisi olmadan ötüşdüyü üçün diqqət çəkmir, mediada da adi xəbər kateqoriyasına aid edilir.**

İstifadəyə verilməsə də, hər gecə işıqları bərq (gəl-gəl deyən) vuran Məmmədovların dəbdəbəli binasında yanğın isə dərhal ölkədə bütün xəbərləri üstələdi. Halbuki, Ziya Məmmədov artıq ilyarımdan çoxdur nazir deyil. Oğlu Anar Məmmədovu ara-sıra media yada salmasa, o da unudulub. A.Məmmədovun cəmiyyətdə populyar olmayan qayınatası Heydər Əsədov da seçkidən sonra nazir kürsüsünü itirib və qeyblərə qarışıb.

Bəs niyə bu yanğın bu qədər diqqət çəkdi? Demək, bu yanğında hansısa bir müəmma varsa, məhz bu cür reaksiya olacağı əvvəlcədən proqnozlaşdırıla bilərdi. O binanın Məmmədovlara aid olduğunu hər gün yanından keçən məktəbli də bilir, ömründə qəzet oxumayan fəhlə də... Bura Bakıda əlini uzadıb dəqiqliklə "bu, filankəsin hotelidir" deyilən azsaylı məkanlardan bəlkə də ən məşhurudur.

Daha bir maraqlı detal. Məmmədovlar heç vaxt demokratik təfəkkür sahibi olmayıblar. Amma respublikaçı Trampa yol tapandan sonra bu göydələn-apartamenti az qala ABŞ-ı assosiasiya edən obyekt kimi qələmə verməyə çalışırdılar. Yadınıza salın, Trampın sensasion seçki qələbəsi elan olunanda Məmmədovlar Bakıda az qala atəşfəşanlıq etmək istəyirdilər. Yanğının xarici mediada doğurduğu diqqətin əsas səbəbi isə vaxtilə Tramp brendi daşıması oldu. İlginc deyilmi? Məmmədovları Azərbaycanda, Trampı dünyada tanımayan varmı?

Yanğının Bakıda mötəbər iki yarışmanın - "Formula -1" və Bədii Gimnastika üzrə Dünya Kubokunun keçirildiyi vaxt baş verməsi xəbər məkanında gözlənilən reaksiyanı verdi. 2015-ci il Avropa Oyunlarına sayılı günlər qalmış Azadlıq prospektindəki yaşayış binasında baş vermiş dəhşətli yanğında 15 nəfərin həlak olması da eyni reaksiya doğurmuşdu. Ölkədə minlərlə turistin olduğu bir vaxtda şəhərin mərkəzində bir gündə iki dəfə yanğın olursa, bunu diqqətə almaq lazımdır. Şübhə yoxdur k, hökumətin müvafiq strukturları da bu "təsadüf" məsələlərini ciddi araşdıracaq. Unutmaq olmaz ki, ölkəmizin bədxahlarının məhz Azərbaycanda miqyaslı mötəbər tədbirlər olanda "sancıları" daha da artır....

Məmmədovların hakimiyyətlə yolları ayrılandan sonra onların biznesinə və azadlıqlarına xüsusi təhlükə olması barədə hər hansı səhih informasiya yoxdur. Bizneslərinin müəyyən hissəsini özləri satıblar ki, bu da gözlənilən idi. Yəni Məmmədovların itirdikləri mövqelərə görə iqtidardan narazılıqları deyil, həbsxanada olmadıqları üçün olsa-olsa, şükranlıqları var. Bu səbəbdən Məmmədovlar bu yanğında zərərçəkmiş kimi görünürlər və onların bu kimi "təxribata bənzər" əməllə əl ata biləcəkləri ağlabatan görünmür. Əgər Məmmədovlar hansısa səbəbdən (məsələn, alqı-satqıya görə) bir-birlərinə qənim kəsilməyiblərsə, adamlar Bakının mərkəzində "oturduqları budağı" niyə kəssinlər ki....

Əgər bu hadisə işçilərin məsuliyyətsizlikdən baş veribsə, o halda Məmmədovlar hadisənin araşdırılması üçün qollarını çırmalamalıdırlar.

Bu yanğında qəribəliklərdən biri də bayaq qeyd etdiyimiz kimi, ABŞ prezidentinin adının hallanmasıdır. Halbuki Tramp brendi o, Ağ Evə hələ köçməmişdən Bakıdakı binanın üzərindən götürülmüşdü. Amma yenə də çox qəribədir ki, xüsusən Rusiya xəbər agentlikləri Trampın adını hallandırdı. O Trampın ki, yanğından iki gün əvvəl Bakıya məktub göndərmişdi və 11 aprel seçkisindən sonrakı dönəmdə Azərbaycanla əməkdaşlığın genişləndirilməsindən söz açmışdı...

❑ "YM"



# "Dağlıq Qarabağı tanımalıyıq" çağırışını etmiş Paşinyan hakimiyyətə gəlsə...

## **Tanınmış politoloq:** "Onun qarşısında ac erməni xalqının qarnını doyuzdurmaq gerçəkliyi dayanacaq, Dağlıq Qarabağı tanımaq qərarını vermək yox"

**Sabah Ermənistan parlamentində yeni baş nazir seçkisinin keçiriləcəyi gözlənilir. Ermənistan müxalifətinin lideri Nikol Paşinyan baş nazir olmaqda israrlı görünür. Ötən həftənin son günlərində ölkənin ikinci və üçüncü iri şəhərlərində mitinq keçirən Paşinyan mayın 1-nə İrəvanda ümumrespublika mitinqi təyin edib.**

Odur ki, sabah Ermənistan üçün həlledici gün ola bilər. Həmin gün Ermənistanda silahlar işə salına, ölkə qan gölünə dönə bilər. Siyasi təhlilçilər hesab edir ki, Rusiya Nikol Paşinyanın hakimiyyətə gələn yolunu kəsə bilməyəcəyi halda o, meydan hərəkatının, kütlənin təzyiqi ilə hakimiyyəti ələ alacaq. Proseslərin gedişindən belə görünür ki, Nikol Paşinyan öldürülməyəcəyi və xalq meydanlardan silah gücünə kənarlaşdırılmayacağı halda Paşinyanın hakimiyyətə gəlişi reallaşacaq.

Şübhəsiz ki, düşmən ölkədə baş verən digər proseslər kimi bu baş verənlər də Azərbaycan üçün maraqlıdır, izlənməlidir və geniş təhlil edilməlidir. Ən çox maraq doğuran məsələ isə şübhəsiz ki, Nikol Paşinyan və onun formalaşdıracağı hakimiyyətin Qarabağ məsələsində tutacağı xəttin necə olacağıdır.

N.Paşinyanın bioqrafiyasından məlum olduğu kimi, nəinki Qarabağda döyüşməyib, heç əsgərlikdə də olmayıb. Lakin o, Qarabağda döyüşməsə də, bu məsələdə keçmiş səhra komandirlərindən heç də az radikal mövqedə deyil. Paşinyan parlamentdə müxalifətçi siyasi lider kimi çıxışlarında bir neçə dəfə Serj Sərkisyan hakimiyyətini, parlamenti "Dağlıq Qarabağ respublikası"nı rəsmən tanımağa çağırıb. Həmçinin, 2016-cı ilin aprel döyüşlərindən bir neçə gün sonra-Qarabağdan qayıdandan sonra demişdi ki, indiki şərtlərdə atəşkəsə razılaşmaq olmaz, yaranmış vəziyyətdən çıxış yolu Azərbaycanın hansısa iri şəhərini tutmaq və onu ciddi itkilərə məruz qoymaqdır, yoxsa baş verənlər nə vaxtsa yenə təkrarlanacaq.

Bir zamanlar bu cür çıxışların müəllifi olan N.Paşinyanın Ermənistanda hakimiyyətə gələrcəyi halda bu cür radikal mövqeni davam etdirib-etdirməyəcəyi günün aktual suallarındandır. Bu barədə danışan politoloq Natiq Miri "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda proseslərin necə bitəcəyi, Paşinyanın baş nazir olub-olmayacağı hələlik qeyri-müəyyəndir: "Əvvəla, Rusiya açıq şəkildə nümayiş etdirməyə başlayıb ki, Paşinyanın baş nazir olmasını istəmir. İkincisi, parlamentdə həlledici səs üstünlüyü hakim Respublika Partiyasına məxsusdur. Serj Sərkisyanın istefaya getməsində Karen Karapetyan da ciddi təsir edib. Mitinqlərin davamlı olması və böyüməsində Karen Karapetyanın marağı var idi ki, Serj Sərkisyan istefaya məcbur olsun. Məhz buna görədir ki, Serj Sərkisyanın partiyası sayılan Respublika Partiyasının daxilində Karen Karapetyana münasibət mənfiyə doğru dəyişib. Ona görə də Karapetyanın baş nazirliyə namizəd olmayacağı bəyan edilib. Lakin bu, demək deyil ki, Respublika Partiyasının dəstəklədiyi namizəd olmayacaq. Rusiyanın baş nazir görmək istədiyi başqa bir şəxsi bu partiya müdafiə edəcək. Vəziyyət belədir ki, Nikol Paşinyan meydan hərəkatı vasitəsilə təzyiq etməklə hakimiyyətə sahiblənə bilər. Bu zaman isə hadisələrin artıq qanlı məcraya yön alması baş verə bilər. Paşinyanla digər siyasi qüvvələrin hamısının uzlaşmasının mümkün olub-olmayacağı da qeyri-müəyyən olaraq qalır".

Politoloqun fikrincə, Nikol Paşinyan baş nazir seçiləcəyi halda müxalifətdə olduğu dövrdə Dağlıq Qarabağla bağlı səsləndirdiyi mövqeni yüzə-yüz rəsmi siyasətə, rəsmi dövlət mövqeyinə daşıyacağı gözlənilmir: "Müxalifətdə olan Nikol Paşinyan hakimiyyətə qarşı mübarizə müstəvisində etdiyi çıxışlarda "Dağlıq Qarabağın müstəqilliyini tanımalıyıq" bəyanatını səsləndirirdisə, hesab etmək olmaz ki, hakimiyyətdə olan Nikol Paşinyan bu addımı atacaq. Çünki hakimiyyətdə olmanın diktə etdiyi şərtlər tamam başqadır. Paşinyan da o şərtlərə uymaq məcburiyyətində qalacaq. Paşinyan parlamentdəki müxalifətçiliyində radikal mövqedə olan şəxs kimi tanınıb. Ancaq müxalifətçiliklə, dövləti idarə etmək tamamilə fərqli məsələdir. Unutmaq lazım deyil ki, Paşinyan hakimiyyətə gələcəyi halda onun qarşısında Ermənistan əhalisinin iqtisadi təminatı məsələsi çox böyük bir problem kimi dayanacaq. O, bu problemi həll etmək məcburiyyətində qalacaq. Çünki kütlə, xalq ondan Ermənistanı düşdüyü ağır durumdan çıxarmağı gözləyir. Paşinyan yəqin bilməmiş deyil ki, Dağlıq Qarabağdakı separatçı rejimi dövlət səviyyəsində tanımaq Ermənistanın, xalqın iqtisadi, sosial problemlərini həll etməyə xidmət etməz. Əksinə, Ermənistanı daha fəlakətli durumla üz-üzə qoyacaq. Hər halda Paşinyan bilir ki, Dağlıq Qarabağdakı separatçı rejimi tanımaq Azərbaycanla müharibəyə başlamaq qərarını vermək deməkdir. Azərbaycanla müharibə isə Ermənistan xalqına faciə gətirəcək. Müharibənin başlanması onsuz da ağır durumda olan Ermənistan büdcəsinin tamamilə boşalmasına gətirib çıxaracaq və xalq faktiki aclıqla üz-üzə qalacaq. Ağlı başında olan adam bu qədər böyük riskləri göz altına almaz. Əgər Paşinyan belə bir ağılsızlığa yol versə, Ermənistan dövlətinin və xalqının çöküşünə imza atmış olacaq".




N.Mirinin sözlərinə görə, bütün bunları təhlil etdikdə, bu qənaətə gəlmək olur ki, Nikol Paşinyan hakimiyyətə gəlsə Dağlıq Qarabağla bağlı müxalifətdə olduğu zaman nümayiş etdirdiyi mövqeni rəsmi dövlət siyasətinə daşımayacaq.: "Onun qarşısında ac erməni xalqının qarnını doyuzdurmaq gerçəkliyi dayanacaq, Dağlıq Qarabağı tanımaq qərarını vermək yox. Çünki Dağlıq Qarabağdakı separatçı rejimi tanımaq Ermənistan xalqının qarnını doyuzdurması deyil. Məxməri inqilabın onun boynuna qoyduğu yük Paşinyanı vadar edəcək ki, məsələlərə populist yanaşmasın".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 93 (6982) 30 aprel 2018

**Rusiya may ayının 1-dən Türkiyə pomidorlarına qoyduğu qadağanı aradan qaldırmağa qərar verib. Bu, qardaş ölkənin pomidor istehsalçıları üçün nə qədər müsbət qərar olsa da, Azərbaycan istehsalçıları üçün bəd xəbərdir. Qeyd edək ki, bu barədə Rusiyanın Baytarlıq və Fitosanitariya üzrə Federal Xidməti məlumat yayıb.**

# Rusiyadan Türkiyəyə “yaşıl işıq”: Azərbaycanda pomidor ucuzlaşacaq

## Rəşad Həsənov: “Bizim sahibkarlar məhsullarının bir qismini daxili bazarda satmağa məcbur olarsa, bu, təklifin artmasına və qiymətlərin optimallaşmasına gətirəcək”

Daha öncə Rusiya Türkiyə ilə aralarında baş verən təyyarə böhranından sonra pomidor idxalına qadağa qoymuşdu. Məhz həmin müddətdə Azərbaycan fermerləri öz məhsullarını Rusiya bazarlarına çıxarıblar.

Keçən il Azərbaycan RF-yə pomidor ixracını 1,5 dəfə - 151 min tonadək (151 milyon dollar) artırıb. Belə olan halda, ölkənin Rusiya idxalının illik həcmində payı 30 faizədək (2016-cı ildə 22 faiz) çoxalıb. Cari ildə ixracın daha da artırılması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyinin açıqlamasına görə, Azərbaycan pomidor ixracı üçün subsidiyaların verilməsi imkanını da nəzərdən keçirə bilər.

Lakin görünən odur ki, Azərbaycan Rusiya kimi nəhəng bir bazarda payının böyük bir hissəsini itirəcək. Bəs görəsən bu durum daxili bazara necə təsir göstərəcək?

Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, Rusiya bu faktordan danışıqlar prosesində təzyiq vasitəsi kimi istifadə edir: “Təqribən iki il öncə bu Türkiyədən Rusiyaya pomidor idxalı qadağan edilmişdi. Ancaq artıq bu qadağaların tam aradan qaldırılması üçün danışıqlar yekunlaşıb. Hətta ilkin 50 min ton pomidorun Rusiya bazarına daxil olması ilə bağlı razılaşma da var idi. Rusiya həmişə bu məsələdən Türkiyə ilə danışıqlarda bir təzyiq vasitəsi kimi istifadə edib. Türkiyə Rusiya bazarının təqribən 50 faizə yaxınını pomidor, xiyar və digər kənd təsərrüfatı məhsulları ilə təmin edirdi və iki ölkə arasında aqrar məhsullar üzrə 50 milyard dollarlıq ticarət mövcud idi. Rusiya zaman-zaman bu faktordan həm Türkiyəyə, həm də digər ölkələrə qarşı istifadə edir. Əsasən də siyasi səbəblərdən bazarın bağlanması, bazarda problemlərin yaranması barədə qərar verir, daha sonra danışıqlar nəticəsində digər məsələlərdə güzəştlər əldə etdikdən sonra bu qadağaları aradan götürür. Artıq qadağaların tamamilə götürülməsi üzrə danışıqlar yekunlaşmaqdadır”.





İqtisadçı ekspert Rəşad Həsənov isə bildirdi ki, iki ölkə arasındakı razılaşma Azərbaycanın daxili bazarında pomidorun ucuzlaşmasına səbəb olacaq: “Azərbaycanın qeyri-neft sektorunda əsas ixrac məhsulu kənd təsərrüfatı məhsullarıdır. Aqrar məhsulların strukturunda isə ən çox ixrac olunan pomidordur. Pomidorun əsas bazarı isə Rusiya bazarıdır. 2015-ci ildən sonra Rusiya ilə Türkiyə arasında yaranan siyasi böhranın nəticəsi olaraq bu ölkəyə pomidor ixracının məhdudlaşdırılması azərbaycanlı fermerlərin manevr imkanlarını artırdı. İxracın həcmində əhəmiyyətli artımlar oldu. Bu dövrdə müxtəlif məsələlər də ortaya çıxdı, Türkiyə pomidorunun Azərbaycan üzərindən ixracı ilə bağlı iddialar irəli sürüldü. Ancaq bu kimi məsələlər çox da güclü təsir göstərmədi və fermerlərimiz Rusiya bazarında daha böyük manevr imkanı əldə etdi. Artıq Türkiyə pomidoruna olan qadağa aradan qalxıb. Rusiya bazarında üstünlük Türkiyə məhsullarına aid olacaq. Bu həm də Rusiyada məhsulun bollaşmasına və qiymətlərin ucuzlaşmasına təsir göstərəcək. Tələbin həcmi də artıq əvvəlki səviyyədə olmayacaq. Nəticədə yerli istehsalçılar əllərindəki məhsulun bir qismini daxili bazara yönəltməli olacaqlar. Bu gün də daxili bazara məhsul satışı var. Ancaq Rusiya bazarına marağın yüksək olması istehsal olunan pomidorun böyük əksəriyyətinin ixrac olunmasına gətirib çıxardı. Bu bir tərəfdən ölkəyə valyuta daxilolmalarının artmasına səbəb olurdusa, digər tərəfdən ölkə əhalisi bu prosesdə zərər gördü. Daxili bazarda təklifin məhdud olması səbəbindən əhali məhsulu yüksək qiymətə alırdı. Hazırda daxili bazarda pomidorun qiyməti Azərbaycan ailəsinin imkanlarına uyğun deyil. Bu da son nəticədə ölkə əhalisinin istehlakının strukturuna təsir göstərir. Rusiyanın Türkiyə pomidoruna olan qadağanı ləğv etməsindən sonra bizim sahibkarlar məhsullarının bir qismini daxili bazarda satmağa məcbur olarlarsa, bu təklifin artmasına və qiymətlərin optimallaşmasına səbəb olacaq. Bir qrup sahibkar zərərlə üzləşsə də, daha geniş kütlə - əhali ucuz qiymətə pomidor ala biləcək”.

Son razılaşmanın Türkiyə iqtisadiyyatına təsirlərinə gəlincə, R.Həsənov vurğuladı ki, çox ciddi bir təsirdən söhbət getmir: “Türkiyə iqtisadiyyatı çox böyükdür. Ancaq bu məsələ də qardaş ölkə üçün önəm kəsb edir və Rusiya-Türkiyə danışıqlarında pomidor məsələsi də mühüm yer tuturdu. Məhdudiyyətlərin tam aradan qaldırılmasının Türkiyə iqtisadiyyatına müəyyən qədər müsbət təsiri olacaq. Ancaq bunun çox böyük bir qatqısının olacağını düşünmürəm. Çünki son nəticədə kənd təsərrüfatı məhsuludur. Aqrar sektorda çalışanların gəlirləri artsa da, bu bir beyin məhsulu deyil. Burada yaradılan əlavə dəyər çox aşağıdır. Türkiyə Rusiyaya pomidor ixrac etməklə müəyyən dividentlər əldə etmiş olacaq. Bu artıq bir prinsip məsələsinə çevrilib və hər iki tərəf bu məsələdə həssaslıq nümayiş etdirir”.

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

# Bakıda avtomatla camaatı öldürəcəyini deyən şəxs məhkəmə qarşısında: “Xahiş edirəm....”

**Bakıda “Kalaşnikov”la camaata hücum edəcəyini deyən şəxs 6 il azadlıqdan məhrum edilib. O, əməlindən peşman olduğunu və aldığı cəzanın yüngülləşdirilməsini istəyib. Musavat.com xəbər verir ki, 1968-ci il təvəllüdlü Vəkil Zakir oğlu Əsədov Cinayət Məcəlləsinin 216-cı maddəsi ilə təqsirli bilinirək Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.**



Vəkil Əsədov ona görə məhkum edilib ki, o, 5 dekabr 2016-cı ildə ictimai təhlükəsizliyi, hüquq-mühafizə orqanlarının normal fəaliyyətini pozmaq və gərginlik yaratmaq məqsədi ilə DİN-nin "102" xidmətinə zəng vuraraq 11 iyun 2016-cı il tarixdə Sumqayıt şəhərində Zaur adlı şəxs tərəfindən döyülməsi barədə etdiyi müraciətlə bağlı Sumqayıt Şəhər Polis İdarəsinin 4-cü Polis Bölməsində tədbir görülmədiyi barədə narazılığını bildirib. Buna görə də çantasında olan 1300 ədəd patron və "Kalaşnikov" markalı avtomatla “20 Yanvar”, “Memar Əcəmi”, “28 May” metrostansiyaları yaxınlığında qarşısına çıxan hər kəsi güllələyərək öldürəcəyini bildirib.

Beləliklə o, insanların həlak olmasına, əhəmiyyətli əmlak ziyanının vurulmasına və sair ictimai təhlükəli nəticələrin baş verməsinə səbəb ola biləcək hazırlanan hərəkətlər, yəni terroçuluq barədə bilə-bilə yalan məlumat verib.

Vəkil Əsədov barəsində çıxarılan hökmün ağır olduğunu düşünərək apelyasiya şikayəti verib. Sumqayıt Apelyasiya Məhkəməsinə müraciət edən V.Əsədov ona köməklik göstərilməsini məhkəmə kollegiyasından xahiş edib.

Şikayətə hakim Hüseyn Nəbiyevin sədrliyi ilə baxılıb. V.Əsədov apelyasiya şikayəti bununla əsaslandırıb ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə bir kəlmə telefon zənginə görə ədalətsizlik edilərək ona 6 il müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilib. O 50 yaşı olduğunu, uşaqlarının gözü yaşlı qaldığını bildirib.

Məhkəmə kollegiyası V.əsədovu dinlədikdən sonra apelyasiya şikayətinin dəlillərini cinayət işinin materialları ilə əlaqəli şəkildə nəzərdən keçirib. Məhkəmə qərara gəlib ki, V.Əsədova təqsirli maddənin sanksiyasının aşağı həddində azadlıqdan məhrum etmə cəzası təyin edilə bilər. V.Əsədovun apelyasiya şikayəti təmin edilərək himayəsində üç azyaşlı uşağının olması, əməlindən peşman olması nəzərə alınıb. Qərara əsasən V.əsədovun cəzası 6 ildən 5 ilə endirilib.

Qeyd edək ki, Vəkil Əsədov daha əvvəl də cinayət əməli törədib. O, Sumqayıt Şəhər Məhkəməsinin 15 sentyabr 2015-ci il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 128-ci maddəsi ilə təqsirli bilinib aylıq qazancından dövlət nəfinə 20% pul tutulmaqla 1 il müddətinə islah işləri cəzasına məhkum edilib. 2016-cı il tarixdə Azərbaycan Respublikası Milli Məclisinin 20 may 2016-cı il tarixli amnistiya qərarına əsasən təyin edilmiş cəzadan azad edilib.

❑ **İ.Muradov, Musavat.com**

YENİ MÜSAVAT
N 93 (6982) 30 aprel 2018

# Eynulla Fətullayev Paşinyanla tanışlığından yazdı

## "Cəsarətlidir, ağıllıdır... o, Ermənistanın Saakaşvilisi olacaq..."

**Haqqın.az saytının baş redaktoru Eynulla Fətullayev Ermənistanın yeni lideri Nikol Paşinyanı şəxsən tanıyır. Musavat.com xəbər verir ki, E.Fətullayev bu haqda sosial şəbəkədəki statusunda yazıb.**

Statusu təqdim edirik: "Nikol Paşinyanla həmkar olmuşuq. 2006-cı ilin noyabrında "Realnı Azərbaycan" qəzetinin baş redaktoru qismində onunla Tiflisdə çox müzakirələr aparmışıq. O zaman Paşinyan "Aykakan Jamanak" qəzetinin baş redaktoru idi. Maraqlıdır, Paşinyan o zaman mənə Azərbaycanda baş verənlərlə bağlı xeyli suallar verdi. "Azərbaycanın daxili siyasətinə niyə bu qədər maraq göstərirsiz?" - deyə açıq sual verdim. "Çünki ölkələrimizdə eyni ssenarı tətbiq edilir", - dedi. Sonradan həbsdə olanda eşitdim ki, Paşinyanı da həbs edib, 7 il azadlıqdan məhrum etdilər. Eyni ssenari haqda sözlərini xatırlayıb, xeyli gülümsədim".


Nikol Paşinyan

E.Fətullayev Paşinyanın cəsarətli və ağıllı olduğunu yazıb: "Paşinyan cəsarətlidir, ağıllıdır, analitik təfəkkürə malikdir və bütün varlığı ilə Rusiyaya nifrət edən qərbpərəst siyasətçidir... Məncə, o, Ermənistanın Saakaşvilisi olacaq, ölkədə bir çox islahatlar aparacaq".

**Mayın 1-də Ermənistanda qeyri-adi hadisə baş verməyəcək. Nikol Paşinyan baş nazir kürsüsünə sahiblənəcək. Ermənilər indiki durumda hakimiyyət uğrunda mübarizənin qanla nəticələnməsinin onları hara aparacağını yaxşı anlayırlar. Qan tökülsə, birdəfəlik param-parça olarlar, tikələrini nə diaspor, nə də Eçmiədzin keşişləri yığıb birləşdirə bilər.**

Elşad PAŞASOY
epashasoy@yahoo.com



# Karvansaray ermənisi

2008-ci ilin martında Serj Sərkisyan qırğın törədib hakimiyyəti qəsb etdi - arxasında Rusiya olduğu üçün. Bu dəfə isə Moskvadan iki quru təbrik alsa da, dəstək ala bilmədi. Üstəlik, Rusiyanın dünya boyunca qayğıları o qədər artıb ki, onun özünə dəstək lazımdır. Ancaq indi Paşinyanın özü də anlayır ki, Rusiyasız mümkün olmayacaq. Azərbaycan və Türkiyə ilə düşmən münasibətlərinin davam etdirilməsi şəraitində Moskvadan üz çevirmələri sadəcə, intihar deməkdir.

Qəribəsi budur ki, bəziləri Nikol Paşinyanı az qala "qəhrəman" kimi qələmə verir, onun gəlişi ilə Qarabağ məsələsində ciddi irəliləyişlərin əldə olunacağını iddia edir. Başı gah yarımçıq təhsil almağa, gah həbsxana həyatına, gah da jurnalistikaya qarışmış bu İcevan ermənisindən Azərbaycana qarşı hansısa ədalətli mövqe gözləmək absurddur. Düzdür, Paşinyan Qarabağda döyüşməyib. Əsgərlikdə olsaydı, o da döyüşərdi,

Bu, 2016-cı ilin aprel döyüşlərindən sonra Qarabağa gələn və ardınca Azərbaycana sarsıdıcı zərbə vurmağa, iri şəhərlərindən birini tutmağa (!) çağırış edən həmin bu Nikoldur, unutmayaq! Əmin olun ki, Ter-Petrosyan, Robert Köçəryan və Serj Sərkisyandan fərqli olaraq, əli azərbaycanlı qanına batmasa belə, Paşinyan Azərbaycana qarşı onlardan az nifrət etmir.

Hələ küçələrdə dolaşdığı bu günlərdə o, Qarabağ separatçılarının başçısı Bako Saakyanla görüşə vaxt ayırırsa, bizə münasibəti bəllidir. Bəlkə də onun arxasında elə Rusiyadakı hansısa qüvvə dayanır, Sərkisyan da "rus kadrı" Karapetyanı vurmasının cəzasını çəkir. Sonuncu dəfə Pşinyanın "səsi" Avropa, ya Amerikadan yox, elə Rusiyadan gəldi. Üstəlik, nə Rusiya əleyhinə bir kəlmə deyir, nə Avrasiya Birliyindən çıxacağını söyləyir, nə "Rus NATO"-sunu tənqid edir, nə də Ermənistanı işğalda saxlayan 5 minlik rus hərbi bazasının çıxarılmasından danışır. Bələsini "müstəqil siyasətçi" saymaq olarmı?

Xankəndi ermənisi Serj Sərkisyanı əvəzləməyə hazırlaşan 43 yaşlı Nikol Paşinyan 1930-cu ilin sentyabrından "İcevan" adlandırılan qədim Azərbaycan torpağında olub. Nə hakimiyyət, nə də həbs həyatı onu islah edə bilməyib. Ona da ümid etmək olmaz ki, Nikolun keçmiş prezident Levon Ter-Petrosyana yaxınlığı onun "sülh göyərçini" olma- Karvansaray rayonunda doğulub. Çar Rusiyası dövründə Qazax qəzasının ərazisinə aid olan bu tarixi torpaqlarımızda kök salan gəlmə ermənilərin soyundan olan birisinin Ermənistan hökumətinin başına keçməsi Qarabağ üçün yaxşı heç nə vəd eləmir, əmin olun.

Əvvəla, ona görə ki, Nikol Paşinyan həftələrdir "dəmir çarığı"nı Ermənistanın küçələrini dolaşmaqla az qala "azadlıq aşiqi", "əzabkeş xalqın lideri", "erməni xalqının sevimlisi" imici qazanmağa çalışıb. Xalqın iradəsi ilə baş nazir seçiləndən sonra onun Qarabağla bağlı mövqeyi daha da kəskinləşəcək. Ondan Qarabağla bağlı güzəşt istəyənlərə deyəcək ki, xalq mənə mandat verib, geri addım ata bilmərəm.

Sərkisyan Qarabağda döyüşsə də, artıq dayaqları alt-üst olmuşdu, hakimiyyətinin davamı mümkünsüz idi. Artıq Ermənistanda onu "gəzəyən qadın" deyə çağırırdılar. Paşinyansa erməni millətçiliyini bir az da təhlükədə... Bəli, Paşinyan Sərkisyan-Köçəryan klanına qarşı daim barışmaz sına rəvac verəcək. 26 il əvvəl Tehranda Qarabağ danışıqları gedən zaman Şuşanı işğal edən ölkənin başçısı Levon Ter-Petrosyan idi, bunu da unutmamışıq.

Ümumiləşdirsək, Ermənistan hakimiyyətinə Qarabağla bağlı sadəcə, "yeni mövqe sahibi olan", əslində isə vaxtın uzadılmasına xidmət edəcək biri gəlir. Sərkisyanın status-kvonu uzatdığını Bakı da hər zaman bəyan edirdi və danışıqların davamını mənasız sayırdı. ABŞ kəşfiyyatı məhz bu səbəbdən "yayda Qarabağda dağıdıcı müharibə olacaq" xəbərdarlığını etmişdi. Rusiya öz forpostunu qorumaq üçün Serj Sərkisyanı qurban verdi. Amma bu, heç nəyi dəyişməyəcək, sadəcə, "danışıqlar" üçün daha 5-10 ilimizi oğurlamaqdır qəsdləri.

Ermənilər daxildə nə edir, kimi seçir, özləri bilər, biz gərək Qarabağımızla bağlı oğurluğa dözməyək. Karvansaray ermənisinin qarşısına konkret vaxt qoymaq, Qarabağın qaytarılması zərurətini anlatmaq lazım gələcək...



# Çin silahları Qarabağda Ermənistana qarşı tuşlana bilər

## Rusiyalı ekspert: "Çində elə silahlar var ki, Rusiyada yoxdur..."

**"Hərbi sferada Çinlə əməkdaşlıq daha yaxşıdır, Çin, çox maraqlı partnyordur". Bunu haqqın.az saytına açıqlamasında rusiyalı hərbi ekspert, "Military Russia" saytının rəhbəri Dmitri Kornev Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Çinə səfərini şərh edərkən deyib.**

Ekspert bildirib ki, Çin hərbi-texniki sferada dünyanın aparıcı dövlətlərindən biridir. "Son illər Çin texnoloji sürətlənmə ilə inkişaf edir. Çinin bütün müasir hərbi-texnologiya sistemləri yaradılıb. Hansılar ki, Rusiya, ABŞ və Avropada da var. Bura raket texnologiyaları, idarə olunan hipersəsli döyüş blokları daxildir. Yada salmaq lazımdır ki, Çində idarə olunan ballistik raketlər də var. Halbuki beləleri praktiki olaraq Rusiyada yoxdur. SSRİ belə silahlar yaradırdı, amma onları silahlanmaya qəbul etməmişdi",- deyə ekspert söyləyib.

Dmitri Kornev Belarusun Çinin A-200 raketləri ilə təzhiz edilən "Polonez" sistemlərinin Azərbaycana satılacağı haqda mətbuatda yazılanlara da münasibət bildirib.

"Çin hamı ilə əməkdaşlığa cəhd edir... Həmçinin silah ixracı məsələsində ortaq müəssisələr yaradır" - o, əlavə edib.

Qeyd edək ki, aprelin 27-də Azərbaycanın müdafiə naziri Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikası (ÇXR) Dövlət Şurasının üzvü, ÇXR-in milli müdafiə naziri general-polkovnik Vey Fenxenin dəvəti ilə Pekində rəsmi səfərdə olub. İki ölkənin müdafiə nazirlərinin görüşü olub. V.Fenxe Çin ilə Azərbaycanın coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq münasibətlərinin olduğunu qeyd edib. O, bu münasibətlərin yaranmasında tarixi İpək yolunun vacib rol oynadığını da bildirib.

26 altı il əvvəl iki ölkə arasında qurulan diplomatik əlaqələrin müasir dövrdə də inkişaf etdiyini diqqətə çatdıran çinli nazir, əlavə edib ki, ötən müddətdə müxtəlif sahələrdə əməkdaşlığımız genişlənib, qarşılıqlı siyasi etimad xeyli güclənib. V.Fenxe "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində ölkələrimizin əməkdaşlığı üçün yeni imkanların yarandığını, Azərbaycanın bu strategiyaya verdiyi böyük dəstəyi məmnunluqla qeyd edib.

Çinin milli müdafiə naziri iki ölkənin hərbi sahədə əməkdaşlığına toxunaraq bu istiqamətdə böyük potensialın olduğunu bildirib. V.Fenxe ölkəsinin Dağlıq Qarabağ münaqişəsində mövqeyinin dəyişmədiyini, hər zaman olduğu kimi münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib. Z.Həsənov isə vurğulayıb ki, Azərbaycan ilə Çin arasında dostluq münasibətləri dərin köklərə malikdir.

"Bu münasibətlər ölkələrimiz arasında müasir əlaqələrin əsasını təşkil edir. Çin ilə hərtərəfli əməkdaşlıq isə ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir"- Z.Həsənov söyləyib. Cənubi Qafqazdakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov vurğulayıb ki, Ermənistanın Azərbaycana qarşı 25 ildən artıq davam edən işğalçılıq siyasəti təkcə ölkəmiz üçün deyil, bütün regionda sülhə və təhlükəsizliyə ciddi təhdid təşkil edir.

Azərbaycanın Müdafiə naziri Çinin Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib. Müdafiə naziri xüsusi qeyd edib ki, Azərbaycan da Çin Xalq Respublikasının "Vahid Çin" siyasətinə hörmətlə yanaşır, bu konsepsiyanı dəstəkləyir və beynəlxalq aləmdə ÇXR-i təmsil edən təşkilatları tanıyır. Dostluq və qarşılıqlı etimad şəraitində keçirilən görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Görüşün sonunda Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Milli Müdafiə Nazirliyi arasında hərbi yardımın göstərilməsinə dair sənəd imzalanıb.



# Nərə və işxanın rəqabəti

Samir SARI

**Siz işxanın nə olduğunu bilirsinizmi? Sual göyçəlilərə aid deyil. Onlar işxanın nə olduğunu bilirlər. Göyçəlilərdən başqa bu ölkədə işxanın nə olduğunu çox az adam bilər.**

Amma regionumuza, Ermənistana gəlib-gedən diplomatların, siyasilərin, artist-martist, agent-casus tipli qonaqların hamısı işxanın nə olduğunu yaxşı bilirlər.

İşxan Göyçə gölünün qızıl balığıdır. Anadolu türkləri ona alabalıq deyirlər, biz - qızıl balıq, avropalılar və ruslar - forel, ermənilərsə - işxan.

Bu balığın necə bir ləzzətli təam olduğunu izah etmək üçün cəmi bir cümlə demək kifayətdir. Hələ sovet dövründə hər gün Kremlə sudan təzə çıxmış işxan göndərirmişlər. O ənənə indiyədək də qalır, şübhəsiz. Çünki Göyçə gölünün qızıl balığı vazkeçilməz bir qida məhsuludur. Ondan nə kimi delikateslərin hazırlanması isə artıq kulinarların işidir.

Deyilənə görə, ermənilər işxandan yaxşı kabab və soyutma bişirirlər və ölkəyə gələn qonaqların kövrək qəlbini məhz o təamlarla fəth edirlər. Əlbəttə, işxan kababının böyründə erməni konyakı da olur. Kababı qonaqlara gözəl axçilərin təqdim etməsi məsələsində isə, doğrusu, babal yuya bilmərəm.

Bizim "ermənipərəst" deyə tanıdığımız əcnəbi diplomatlar, siyasilər var ha, onlar əslində "işxanpərəst"dirlər. O mənada ki, əgər ermənilər onları adi yeməklərlə, rus araqlarıyla, şotland viskiləri ilə yedirib-içirib yola salsalar, əliboş göndərsələr, qılıq göstərməsələr, onlar niyə "ermənipərəst" olsunlar, nədən "erməni dəyirmanına si töksünlər"? Əsla etməzlər.

Biz bu avropalıları gözümüzdə çox böyütmüşük, müqəddəsləşdirmişik. Gerçəkdə isə onlar da komfort və kalori üçün çalışan adamlardır: erməni kababı ilə işxan yemək, səhər-səhər qara kürüylə enerji depolamaq, yayda İbizada dincəlmək, qışda İsveçrənin dağ-xizək komleksləridə sürüşmək, övladlarına "Buqatti" bağışlamaq istəyirlər.

Düzdür, aralarında fanatikcəsinə dürüst, vicdanlı, obyektiv olanlar da var, amma son illərdə onlar, oxumuş adamların sözü olmasın, korporativ maraq güdənlərə uduzurlar.

Bir ara Avropa Şurasında Azərbaycana demokratiya və insan haqları üzrə həmməruzəçi təyin edilmək üstündə dava düşmüşdü. Purgirdias adlı bir yunan deputat direşmişdi ki, Azərbaycana məruzəçi olmağa özüm gedəcəm (o vaxt bizim media onun soyadını dərhal "Pulgirdias" qoydu). Adamın canfəşanlığı isə avropalı parlamentarlara şübhəli göründü, onu yox, başqasını təyin etdilər.

Mətləb üstünə qayıdaq. Budur, 20 ildən çoxdur ki, ermənilərlə biz təkcə Qarabağ cəbhəsində, diplomatik müstəvidə, geosiyasi məkanda qarşı-qarşıya durub döyüşmürük, bu mübarizə iaşə-kulinariya sahəsinə də sirayət edib.

Ermənilər ali qonaqlarının kristal qəlbini konyaklı işxanla fəth etmək istəyirsə, biz onları nərə balığının kababıyla, kürüsüylə, xüsusi olaraq ali qonaqlar üçün hazırlanan Gəncə konyakıyla tovlamağa çalışırıq.

Həmsədrlər, həmməruzəçilər, həmnəxunəklər çox məmnundur, gedib İrəvanda, Göyçə gölünün qırağında yeyib-içirlər, gəlib Bakıda, Göygöldə, Qəbələdə yerli delikateslərdən dadırlar.

Elə ona görədir ki, onlar regiona ildə iki dəfə gəlməlidirlərsə, dörd-beş dəfə gəlirlər, nə vaxt baxırsan, buralarda sümsünürlər, görəcəkləri bir iş də yoxdur. Eləcə, böyük adamlrla söhbət edir, 3 gün qalmalıdırlarsa, 10 gün qalır, kefə baxır, pay-püştlü halda varıb gedirlər. Bəlkə də onlardan olsa, ilin yarısını bu cənnət məkanlarda (onlar bu regionun cəhənnəmə oxşayan məkanları ilə maraqlanmırlar) olarlar.

Yəni bu işlərin qaydası budur. Ermənilərlə mübarizə bütün sahələrdə, bütün vasitələrlə getməlidir. Biz yol verə bilmərik ki, onların siyasiləri bizim siyasilərimizi, diplomatları diplomatlarımız, jurnalistləri jurnalistlərimizi, artistləri artistlərimizi, işxanı nərəmizi (və sair və ilaxır, o cümlədən axçi-civi məsələsi) üstələsin.

Bu işlərə bir də bu prizmadan baxmaq lazımdır. Bütün dövrlərdə bütün dövlətlərdə "min yeyənim olsun, bir deyənim olmasın" siyasəti yeridiblər. Məqsəd bir az xərcə düşmək hesabına reputasiyanı qorumaq olub.

Ona görə də hələlik Qarabağ konflktinin qarşlılıqlı qonaqlıqlar yolu ilə tənzimlənməsi prosesi ləngiyir. İşxan nərəyə müqavimət göstərir. Üstəlik, hər şey köpək balığının nəzarəti altındadır.




# AŞPA-nın intim xidmət ittihamına
# Azərbaycandan sərt reaksiyalar

**Azərbaycanla Avropa Şurası arasında yaşanan gərginlik qalır. Ötən həftəsonu AŞ PA-nın yaz sessiyasında qurumun daxilində korrupsiya hallarının olması və orada Azərbaycana yönəlik ağlasığmaz ittihamların yer alması rəsmi Bakının səbir kasasını daşırıb. Tam əminliklə demək olar ki, Azərbaycan Avropa Şurasına üzv olduğu 17 il ərzində ən aşağılayıcı ittihamlarla üz-üzə qalıb.**

Azərbaycanın insan hüquqları və azadlıqlarla bağlı problemlərin susdurulması yönündə "bazarlıq" etdiyi barədə ittiham azmış kimi, guya AŞ PA deputatlarına və rəhbərliyinə daxil olan şəxslərə intim xidmət təklif olunması ittihamı ortaya atılıb. Artıq dövlət rəsmiləri, deputatlar səviyyəsində Avropa Şurasından çıxmaqla bağlı fikirlər səslənməyə başlayıb. Əslində AŞ PA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidovun sessiyadakı çıxışında "Mən belə Avropa Şurasında təmsil olunmaq istəmirəm" bəyanatını verməsindən sonra bunlar gözlənilən idi.

Azərbaycan prezidentinin köməkçisi, PA ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun Avropa Şurasının Azərbaycana qarşı fəaliyyəti ilə bağlı yazdığı geniş məqalə də çox ciddi mətləblərdən xəbər verir.

Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı səslənən ittihamların çox ciddi olduğunu söylədi: "Müzakirələri televiziya, internet vasitəsilə müəyyən dərəcədə izləyə bildim. Orada nümayəndə heyətimizin sədri, hörmətli həmkarım Səməd Seyidovun çox haqlı mövqeyinin şahidi oldum. Onun mövqeyini tamamilə bölüşürəm. Çünki biz Avropa Şurasına daxil olarkən başqa gözləntilərimiz var idi. Bunlar müəyyən zaman kəsiyində özünü doğruldurdu. Avropa Şurası işğal olunmuş torpaqlarımızla bağlı obyektiv mövqeyini müxtəlif zamanlarda sərgiləyirdi. Avropa Şurası ilə Azərbaycan arasında normal münasibətlər də zamanında var idi. Lakin son illərdə Avropa Şurası təəssüflər olsun ki, mövqeyində dəyişikliklər etməyə başladı. Orada bir qadın baş katib var idi. Onun zamanından bəri Azərbaycana qarşı qərəzli mövqe özünü kəskin şəkildə göstərməkdədir. Son hesabatda isə, ağlasığmaz ittihamlar var. Konkret fakt, ünvan göstərilmədən ümumi sözlərlə bu cür ittihamların səslənməsi Azərbaycana qarşı təhqiramiz xarakter daşıyır. Bunun qarşısını almaq hökmən lazımdır. Bununla bağlı Azərbaycanın rəsmi qurumları Avropa Şurasının bu hesabatını hazırlayanları ilə təmasa girməlidir. Hüquq-mühafizə orqanları da bu proseslərə qoşulmalı və araşdırmalar aparılmalıdır. Araşdırma nəticəsində bu məsələ dəqiqləşməlidir. Azərbaycan tərəfdən təhqiramiz xarakter daşıyan ikinci ittiham, yəni intim xidmət təklifi dəqiqləşdirilməli və bundan sonra əgər belə bir fakta kimsə yol veribsə, o mütləq cəzalandırılmalıdır. Əks təqdirdə bunlar böhtandırsa, mütləq hüquqi qiymətini almalıdır. Bu hesabatı sıradan bir hesabat kimi qəbul etmək olmaz. Bunlar ciddi şəkildə araşdırmalara ehtiyacı olan ittihamlardır".

"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov çox sərt danışdı: "Azərbaycan müstəqil siyasət yürüdür. Ölkəmizə qarşı beynəlxalq qurumlar və orada təmsil olunanlar daim çalışırlar ki, hansısa vasitələrlə bizi sıxışdırsınlar, sərvətlərimizdən pay alsınlar. Sirr deyil ki, yeni bir mərhələ başlayıb. Bakı-Tbilisi-Ceyhan xətti ilə gedən neftimiz var. Məlum oldu ki, yarım milyard ton neft ehtiyatımız var və növbəti 30 il müddətində də müqavilə bağlandı. İndiyə qədər oradan nə qədər neft götürülübsə, bir o qədər də götürülür. Cənub-Qaz Dəhlizi vasitəsilə artıq qaz ixracına da başlamışıq. Ağzı sulananlar çoxdur. Onlar da istəyirlər ki, Azərbaycana müxtəlif vasitələrlə təzyiq etsinlər. Ölkə başçımızı müxtəlif yollarla güzəştə gətirə bilmirlər. Çünki prezidentimiz üçün ali maraqlar var. Diplomatiyada ona güc gəlmək mümkün deyil. Bu hadisələrin hamısını siyasi şantaj hesab edirəm. Söhbət intim xidmətdən gedirsə, Avropa dövlətlərinin özündə açıq şəkildə qırmızı fanarlı xidmət evləri var. Burada qeyri-adi nə var ki. Brüssel və başqa yerlərdə bunlar var. Avropa özündə olan bu şeyləri normal sayır, ona vergi qoyur, onun reklamını aparır, hamı da gedib oradan istifadə edir, bunu insan haqları kimi qəbul edirlər. Amma hansısa bir otelə bir pullu xarici gəlir, intim xidmət istəyir, bir qadın da ona "xidmət göstərir". Bunu götürüb dövlətin adı ilə bağlayarlar? Hansı oteldə bunlar yoxdur? Bir dövlət göstərə bilərlər ki, orada bu hallar olmasın? Məlum yerlərdə bədənlərini satıb pul qazanırlar, dövlətə də vergi verirlər. Fransada məşhur bir kilsə var, onu bu cür qadınlar öz pulları ilə tikiblər. Adı dəqiq yadımda deyil. Dünyanın hər yerində bunu normal sayırlar, bizə çatanda isə dövlət kimisə ələ almaq kimi qəbul edirlər. Söhbət orada qonaqpərvərlikdən gedir. "Formula 1" yarışları hazırda gedir. Hər bir kəs İçərişəhərə gedib gələn turistdən yarışların necə keçirildiyini soruşa bilər. O yarışla bağlı danışdıqdan sonra hökmən xalqımızın qonaqpərvərliyindən, mətbəximizin dadlı olmasından söz açacaq. Gələnə çörək veririk, bunu satın almaq üçün etmirik ki. Kimisə satın almaq üçün onu Bakıya çağırmaq lazımdır? Hörmətli Əli Həsənov açıqladı ki, dünyanın hər yerində lobbiçilik var. Erməni lobbisi Amerikada fəaliyyət göstərir. Çoxsaylı senatorlar ermənilər tərəfindən açıqlamalar veriblər, indi bunu ermənilərin qohum-qardaşları olduğu üçün ediblər? Hamı lobbiçilik edə bilər, amma Azərbaycana çatanda bu, korrupsiyadır? Hörmətli Səməd müəllim dövlətinə, xalqına, prezidentinə sadiq bir insandır. Hazırda o, dövlət qulluğunda yer almır, necə korrupsioner ola bilər? Niyə həm də onun adını hallandırırlar? Bu ona görədir ki, orada deputat qrupunun rəhbəri odur. Onların özləri belə işlərlə məşğuldurlar. Bizə təzyiq etmək üçün başqa şeylər tapmırlar, ancaq belə yollara əl atırlar. Gör bunlar nə günə qalıblar ki, Azərbaycanda korrupsiyanın olduğunu deyərək, məruzə hazırlayan şəxsin bizim tərəfdən ələ alınmağa cəhdlərin olduğunu deyirlər. Necə ələ alıblar? Qadın əlində şampanla qapısını döyüb, biz indi onu bir şampanla ələ alacaqdıq? Yaxud bir gecəlik xidmətdən sonra məruzəni yaxşı yazacaqdı? Dünən alqışlayıb demokrat elan etdiyiniz Serj Sərkisyanı az keçməmiş erməni xalqı korrupsioner kimi hakimiyyətdən qovdu. Onlar bu biabırçılıqlarının bədəlini ödəsinlər, xəcalət çəksinlər. Bunlar bizim üçün qeyri-adi deyil. Əgər onların əllərində tutarlı faktlar olsaydı, inanın ki, bizi məhkəməyə verib, qərar çıxartdırardılar ki, filankəs korrupsiya ilə məşğul olub. Görün Avropa Şurası nə günə qalıb ki, məruzəyə bu cür faktlar salır, bizi günahkar çıxarmaq üçün nələrə əl atırlar. Hesab etmirəm ki, Avropa Şurasından çıxmalıyıq. Əksinə orada qalıb, bu cür təzyiq vasitələrini oradan ifşa etməliyik. Azərbaycanın sərvətlərindən pay alıb, min cür oyuna gedən onlardır".





**Fəzail Ağamalı:** "Bunlar ciddi şəkildə araşdırmalara ehtiyacı olan ittihamlardır"

**Bəxtiyar Sadıqov:** "Görün Avropa Şurası nə günə qalıb ki, məruzəyə bu cür faktlar salır"

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# “Prezident yanında İctimai Palatanın yaradılmasının vaxtı yetişib”

## Fazil Mustafa: “Bir çox qurumların rəhbərləri cümhuriyyətimizin 100 illiyini sanki boykot etdilər”

**“Baxış bucağı”**

**Deputat, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa ilə budəfəki söhbətimizdə gündəmin vacib mövzularını dəyərləndirməyə çalışdıq. Həmsöhbətimiz ötən həftə Rusiyanın Sank-Peterburq şəhərinə səfər etdiyindən əvvəlcə şimal qonşumuzdakı ab-hava barədə onun müşahidələrini öyrənmək istədik:**

- Rusiyanın Sankt-Peterburq şəhərində Xüsusi Olimpiadanın Avropa beynəlxalq futbol turniri keçirilirdi. Azərbaycan Xüsusi Olimpiya Komitəsinin vitse-prezidenti kimi komitəmizin prezidenti Şahin Əliyevlə birlikdə fəxri qonaq statusunda bu tədbirə dəvət olunmuşduq. Komandamız üçüncü yeri tutdu. Təbii ki, fürsətdən istifadə edərək Rusiyanın indiki durumuna da göz gəzdirdim, bir sıra həmvətənlərimizlə təmasda oldum, bu ölkə haqqında real təsəvvürlər əldə etməyə çalışdım. Fikrimcə, Rusiyanın sosial-iqtisadi həyatına Qərb ölkələrinin sanksiyaları ciddi təsir göstərməkdədir, lakin siyasi mühitdə bu dəyişiklik özünü hiss etdirmir. Tarix boyu Rusiyada cəmiyyətin siyasəti dövlət siyasətinin içində görünməz olub, bu gün də belədir. Əsas düşüncə budur ki, Putin Rusiyanın dövlət olaraq şəxsiyyətini özünə qaytarıb, Suriya, Krım və ya bölgədəki digər aktiv müdaxilə potensialının artması əsasən müsbət mənada dəyərləndirilir. Bununla belə, Qərblə münasibətlərin korlanmasının sosial-iqtisadi nəticələri də gələcəklə bağlı ciddi narahatçılıq yaratmaqdadır. Hər halda, Rusiya öz hesablanmaz gücü ilə yanaşı, təcrid olunmuş ölkə təəssüratı bağışlayır. Lakonik söyləsək, Rusiya Putinlə davam etmək istəməsə belə, yaxın gələcəkdə də Putin Rusiya ilə davam edəcək.

*- Bəs, Rusiyadakı azərbaycanlılar vəziyyət barədə nə deyirlər? Narahatdırlarmı?*

- Bu barədə hansısa ümumiləşdirmə apara bilmərəm, çünki ciddi bir tədqiqatdan sonra daha doğru fikir bildirmək olar. Ancaq rastlaşdığım azərbaycanlıların rəyincə, əvvəlki illərdən fərqli olaraq, sıxışdırılma halları hiss olunmur. Söylədiklərinə görə, gəlirləri bir neçə il öncəki ilə müqayisədə xeyli aşağı düşüb. Bununla belə, yenə orada əhəmiyyətli sayda həmvətənimiz var və gündəlik işləri ilə məşğuldurlar. Məni daha çox maraqlandıran oradakı azərbaycanlıların effektli təşkilatlanma problemi idi. Bununla bağlı bir ifadə işlətmək olar: durum acınacaqlıdır. Nə buradan sağlam konsepsiya ilə istiqamətləndirilən, nə də özlüyündən bir vizyona sahib olan təşkilatlanmış diaspor formatı ilə qarşılaşmaq mümkündür. Ancaq ayrı-ayrılıqda Rusiyanın müxtəlif yerlərində xeyli işıqlı, faydalı insanımız var ki, bunların gücünü ortaya qoymaq təxirəsalınmaz siyasət kimi düşünülməlidir. Ən azı Rusiyada bizim azərbaycanlıların əhəmiyyətli hissəsini dini sekta formasında idarə edən İran ideoloji institutlarının etdiklərinin təhlükəli nəticələrini anladıqdan sonra durumun ciddiliyi bizə vaxtı ötəndən sonra mütləq çatacaq.

*- Azərbaycanın baş nazirinin ardınca hökumətdə bir sıra digər məmurlar da prezident sərəncamı ilə əvəzləndi. Bu təyinatlardan gözləntiləriniz nədir?*

- Azərbaycanda həqiqətən də ciddi bir komanda islahatı ilə qarşılaşırıq. Təyin olunan insanların əksəriyyətinin kimliyi, yeniliyə açıq olması, parlament təcrübəsinə sahib olması olduqca müsbət haldır və prezidentin yeni komandasının ümidverici iş əmsalından xəbər verir. Uzun müddət parlamentdə həmkarlarım olmasına görə demirəm, həqiqətən də Vüsal Hüseynovun, Fuad Muradovun, Muxtar Babayevin, Rövşən Rzayevin, həmçinin Sahil Babayevin, Ceyhun Bayramovun dəyərli kadrlar olduğunu düşünürəm və mütərəqqi islahatların bu kadrlar vasitəsi ilə gerçəkləşəcəyinə inamım böyükdür. İnam Kərimov və Sahil Babayev də sağlam düşüncəli kadrlardır və bütün bu kimi kardlarla ciddi islahatlar aparmaq mümkündür. Hökumətlə bağlı gözləntilərim özüm üçün də qeyri-müəyyəndir, burada söhbət, sadəcə, bizim hökumətin fəaliyyət istiqaməti ilə bağlı düşüncələrimizdən gedə bilər. Sadəcə, cəmiyyətlə daha açıq təmasda olan bir hökumət modeli yaradılarsa, o zaman bizim də düşüncələrimizi ifadə etmənin hansısa əhmiyyəti ola bilər. Fikrimcə, hökuməti faydalı ideyalarla qidalandırmaq üçün ölkə prezidentinin yanında İctimai Palatanın yaradılmasının vaxtı yetişib. Buraya tərif söyləmək üçün deyil, ölkənin gələcəyi üçün məsuliyyətli davranan və müxtəlif sferaları təmsil edən düşüncə adamlarının cəlb olunması ilə cəmiyyətin problemlərinə aid faydalı müzakirə mühiti yaradıb üzə çıxan tezislərdən istifadə etmək olar. Fikrimcə, hökumətdən də öncə Azərbaycandakı məhkəmə xaosu barədə açıq müzakirələr başlamalı, real islahatlar aparılmalıdır. Məhkəmə qərarlarının qeyri-obyektivliyi, qərarların icrasının əngəllənməsi artıq kütləvi hal almaqdadır. Təsəvvür edin ki, ötən günlərdə Nərimanov Rayon Məhkəməsinin verdiyi bir qərarda vətəndaşın mənzil hüququnun pozulması faktı məni o qədər dəhşətə gətirdi ki, müraciət edən vətəndaşa söylədim ki, artıq haqlı tələbinizə görə məhkəməyə müraciət etmənizin faydası olmayacaq.

*- Sizin də təmsil olunduğunuz Avropa Şurasında Azərbaycana qarşı növbəti hücum kampaniyasına start verilib. Bunun qarşılığında nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun bəyanatı ilə də yaqin tanışsınız. Bəziləri AŞ PA-dan çıxmağa çağırış edir. Siz bu barədə nə təklif edirsiniz? Ümumiyyətlə, AŞ PA-Azərbaycan gərginliyinin səbəbi nədir?*

- Avropa Şurasında Azərbaycana qarşı ənənəvi ədalətsizliklərdən birinin baş verdiyini düşünürəm. Nümayəndə heyətinin başçısı Səməd Seyidova qarşı isə misli görünməmiş bir böhtan atılıb, qəsdən adını hansısa mücərrəd korrupsiya siyahısında hallandırmaqla, Azərbaycan nümayəndə heyətinin gücünü zəifləmək üçün çalışıblar. Səməd Seyidov xarici siyasətdə tanıdığım ən yetkin insanlardan biridir və ona qarşı aşkar ədalətsizlik edilib. Bununla belə, heç bir halda Azərbaycanın Avropa Şurasından çıxması barədə məsələni gündəmə gətirməməliyik. Bu dövlətimizin strateji seçimi ilə bağlı həyati əhəmiyyət daşıyan bir məsələdir, hər hansı emosional qərar qəbul etmək olmaz. Gərginliyin səbəbini obrazlı belə ifadə etmək olar: onlar bizi özləri kimi görmək istəyirlər, biz də özümüz kimi görünməyə çalışırıq. Onların gözündən, bizim də özümüzdən qaynaqlanan müəyyən problemlər mövcuddur, bunları tədricən yoluna qoymağa çalışmalıyıq.



**“Xəzərə çəkilmiş hasarları uçurmağa nə ekskavatorun gücü yetər, nə də bir nazirin”**

*- Ermənistanda baş verən hadisələr, sizcə, hansı sonluqla bitəcək? Bu hadisələr hansı halda Azərbaycan üçün faydalı olacaq?*

- Əslində Ermənistanda bir yeniləşmə prosesi başlayıb. Sonluq, çox güman ki, Rusiyanın siyasi və ya başqa metodlarla müdaxilə seçimi ilə müəyyənləşəcək. Hakimiyyət dəyişikliyinin ənənəvi forması alt-üst edilib, kütlənin aktiv şəkildə öz lideri ilə hakimiyyət oliqarxiyasına qarşı hərəkətlənməsi davam edir. Bu hərəkətlənmə hər nə qədər ABŞ və diaspor tərəfindən dəstəklənsə də, Rusiyanın bu ölkədəki idarətmə mexanizmləri qısa müddətə ortadan qalxa bilməz. Ötən əsrin sonlarında parlamentdə baş verən qətliam müəmmasını unutmaq olmaz, bunu küçədə təkrarlamaq bir o qədər də çətin deyil. Ermənistanda kəskin xarici siyasət dəyişimi gözlənilmir, ancaq bütün hallarda daha praqmatik düşünən insanların hakimiyyətə gəlişi bizim üçün də faydalana biləcəyimiz situasiyanı yarada bilər.

*- Cümhuriyyətimizin 100 illiyinin tamamına bir ay qaldı. Bu müddətdə hansı işlərin görülməsini istərdiniz?*

- Cümhuriyyətin 100 illiyi tədbirləri barədə Milli Məclisdə bir neçə dəfə çıxış etmişəm, hazırlıq işlərinin arzulanan səviyyədə olmadığın söyləmişəm. Fikrimcə, bir çox dövlət qurumlarının rəhbərləri cümhuriyyətimizin 100 illiyini formal bir hadisə kimi gördülər, bu yubileyi sanki boykot etdilər. Artıq may ayı başlayıb, hansısa ciddi tədbirə hazırlıq hiss olunmur, cəmiyyətdəki siyasi, ictimai qüvvələr bu böyük tarixi hadisəyə hazırlıqda iştiraka cəlb edilməyib. Onlarla təklifimiz var ki, heç biri diqqətə alınmayıb. Rəsulzadənin Novxanıdakı ata evinin muzeyə çevrilməsi, 15 sentyabr - Bakının qurtuluş gününün rəsmi bayram edilməsi, milli xilaskarımız Nuri Paşanın xatirəsinin əbədiləşdirilməsi, sanballı bədii və sənədli filmin çəkilişi və s. gerçəkləşdirilmədi. Bu cür biganəliyə üzülməmək olmur.

*- Necə bilirisiniz, Cümhuriyyət ilində iqtidarlı-müxalifətli bir nümayəndə heyətinin Gürcüstanda, Türkiyədə, yaxud Fransadakı Cümhuriyyət qurucularının məzarlarının anılması, həmin ölkələrdə həmrəylik tədbirinin keçirilməsi yaxşı olmazmı?*

- Əlbəttə, vurğuladığınız faydalı təklifdir. Lakin kənarda tədbirlər keçirməkdən öncə içəridəki tədbirlərə diqqət yetirmək lazımdır. Yalnız Cümhuriyyətin 100 illiyindən söhbət getmir, Bakının işğaldan azad olunmasının da 100 illiyidir, lakin bu işğaldan azad edənlər barədə indiyədək hansısa layiqli addım atılmayıb. Nuri Paşanın adını sanki xatırlamaqdan çəkinirlər, Bakıya 1918-ci ildə daxil olan Mürsəl Paşa bizə verdiyi dəyərə görə ömrünün sonunadək Mürsəl Bakü Paşa adını daşıyıb, bizim ona verdiyimiz dəyər isə utandırıcıdır, adını bir yerdə xatırladacaq lövhə belə yoxdur.

*- Sizin parlament tribunasından qaldırdığınız başqa bir problemi də xatırlayaq. Prezidentliyə namizəd Razi Nuyullayev seçki təbliğatı zamanı demişdi ki, seçilsə, özü ekskavatorun sükanı arxasına oturub dəniz sahilindəki hasarları uçuracaq. Necə bilirsiniz, deputat həmkarınızın nazir təyin edilməsi Xəzərin “həbs”dən azad olunmasına səbəb olacaqmı?*

- Xəzərə çəkilmiş hasarları uçurmağa nə ekskavatorun gücü yetər, nə də bir nazirin. Qaydalar əvəzinə qanunlar işləsə, o hasarlar da rahatlıqla əriyib gedəcək. Təəssüf ki, bizim bir millət olaraq malik olduğumuz nemətlərə qarşı şükranlığımız yox səviyyəsindədir. Xəzər elə bir nemətdir ki, dəyərini biz ancaq çıxarılan neftlə, ovlanan balıqla ölçməməliyik. Sağlamlıq baxımından bu nemətin dəyərini anlasaq, vəhşicəsinə onun qumunun tikinti məqsədi ilə daşınmasına imkan verməzdik, kanalizasiyanı oraya axıtmazdıq. Özümüz öz əlimizlə Xəzərin obrazında bir ekoloji fəlakət hazırlamışıq, məyusedici hal əslində budur.

*- Bu günlərdə ombudsman amnistiya təklifi ilə çıxış edib. Siz əfv, yaxud amnistiya qərarının nəticəsindən nələr gözləyirsiniz?*

- Amnistiya mütləq olmalıdır, həm də Cümhuriyyətin 100 illiyi ilə bağlı bu qərar verilməlidir. Daha bundan da dəyərli, əziz yubileyimiz olmayacaq ki? Təklifi tam şəkildə dəstəkləyirəm. Budəfəki Novruz bayramında əfv olmadı, insanlar hamısı gözünü dikib cümhuriyyətin yubileyinə. Əlbəttə, bu və ya digər formada Azərbaycana qarşı qərarların qəbul olunmasına səbəb olmuş məhbusların hamısının azadlığa buraxılması ən doğru addım olardı. Biz Qarabağ kimi düyünə düşmüş problemi olan bir dövlətik, başqa yayındırıcı məsələlərə başımızın qarışmasına yol verə bilmərik. Hər dəfə siyasi məhbus məsələsi ilə ölkəmizə qarşı haqlı və ya haqsız kampaniyanın aparılmasına şüurlu şəkildə rəvac verməməliyik.

*- Bakı şəhər İcra Hakimiyyəti başçısız qalıb. Necə bilirsiniz, mer seçkilərinin vaxtı çatıbmı?*

- Əslində son illərin idarəetmə təcrübəsi göstərir ki, Bakı şəhərində bütün rayon bələdiyyələrini ləğv edib yerində Bakı Şəhər Bələdiyyəsi yaradılmalıdır. Şəhərin merinin də seçilməsi, öz proqramı ilə məsuliyyətli davranış sərgiləməsi vacib struktur islahatlarının içində yer almalıdır. Bakı ən plansız şəhərlərdən birinə çevrilib və vaxtında gecəqondularla bağlı problemləri hüquqi zəmində çözmək lazımdır, dərhal özəlləşdirərək vətəndaşların vəziyyətini yüngülləşdirməliyik.

*- Növbədənkənar parlament seçkiləri barədə sizin də gözləntiniz varmı?*

- Növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün hüquqi zərurət yoxdur, çünki son referendumda gerçəkləşdirilən Konstitusiya dəyişikliklərinə görə, Milli Məclisin statusunda hansısa əhəmiyyətli dəyişiklik baş verməyib, müddət də olduğu kimi qalıb. Növbədənkənar seçkilərə hansısa siyasi tələbatın olduğunu da düşünmürəm. Əlbəttə, parlament çoxluğunun qərarı ilə vaxtından əvvəl seçkilər keçirilə bilər, lakin bunun məntiqi izahının necə veriləcəyini təsəvvürə gətirə bilmirəm. Böyük ehtimalla, son təyinatlarla əlaqədar Milli Məclisə boş qalan yerlərə seçkilər keçirilə bilər. Ancaq erkən parlament seçkilərinin keçiriləcəyini güman etmirəm.

**Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**



# Liliputların qadağaları

Zamin HACI
zaminhaci@gmail.com

"Çatıb qara qaşlarını nədən sən,
Olmaz-olmaz, olmaz-olmaz deyirsən?"
*(mahnıdan, sözlərin müəllifi Qasım Qasımzadə)*

**Azərbaycan jurnalistikasında, özəlliklə onun bir növ yiyəsizlik hökm sürən virtual qanadında, yəni internet saytlarında yeni "janr" yaranmaqdadır. Buna biabırçılıq janrı adı qoymaq olar. Görürsən hansısa axmağın birisi psixi xəstəni, qoca adamı ələ salır. Saytlar isə bunu "Filankəsdən növbəti biabırçılıq" adıyla lentə basırlar. Nə olub, a balam? Bunu eləyən idiot hansısa dövlət vəzifəsi daşısa, yaxud bir yüngülvari çəkili ictimai fiqur olsa deyərsən xəbəri yaymaq vacibdir. Bizim jurnalistlər üçünsə tipajın, subyektin hər hansı seçilmişlik kateqoriyasına dəxli olması qəti önəm daşımır. İstənilən axmaqlığı istənilən yoldan keçən eləsin - sabah saytdadır. Bəzən yüksək operativliklə, canlı yayımla da qoyurlar. Örnək üçün, bu dəqiqə Şimali Koreya liderinin başı təzədən çönsün və götürüb Yaponiya tərəfə bir nüvə bombası selbələsin, eyni vaxtda da Peyinabad şəhərimizin sakini Qoyunqulu müəllim şalvarını çıxardıb "Makarena" oynasın - bizim saytlar nüvə savaşını qırağa qoyub manşetdən Qoyunqulu müəllimin, üzr istəyirəm, arxa nahiyəsini göstərəcəklər. Bəsdirin. Ayıbdır. Özünüzü yığışdırın. Bunun axırı yaxşı olmayacaqdır. Pul, reytinq xatirinə hər cür əxlaqsızlıq eləməzlər.**

İkinci iradım ölkədə mənasız yerə qorxu, qadağan mühitinin yayılmasıdır. Nəticədə bizim millət qorxaq, gözüqıpıq olaraq böyüyəcəkdir, biləsiniz. Faktlara keçirəm.

Şənbə günü uşağı Gənc Tamaşaçılar Teatrına aparmışdım. Yaxınlıqda Formula-1 yarışına görə hasarlanmış küçələri, hər tində duran əsgərləri, qoruqçuları görən uşaq soruşur ki, orda nə baş verir, biz niyə yola baxa bilmirik. Nə cavab verim? Necə izah edim ki, millətin pulu ilə, dövlət vəsaitləri ilə keçirilən yarışı izləmək həmin millətə qadağandır? Harda var belə şey? Elə bil öz böyrəyini, qaraciyərini çıxardıb sonra sənə donor malı kimi satırlar. Xeyir ola? Özəl şirkətlər yarış keçirtsə buyur, biletlə elə. Ancaq burda şəhər, küçə, maliyyə - hər şey sənədlə xalqa məxsusdursa, xalq niyə buna baxmağa pul verməlidir? (Baxılası bir şey də yoxdur, təbii, ancaq uşaq üçün maraqlı ola bilər). Bunun bənzərini bəzi elektron resurslarda görmək mümkündür. Təsəvvür edin, bizdə dövlət büdcəsindən maliyyələşən NK yanında Tərcümə Mərkəzinin saytında kitabları oxumaq pulludur. Özü də kitabı indi tərcümə etsələr dərd yarıdır. Kitab var 1960-cı illərdə dilimizə çevrilib, müəllif hüququ-zadı qalmayıb (bəşəri irsdir), 2005-ci ildə dövlət pulu ilə latın qrafikasına köçürülüb, ancaq bunlar hələ də belə kitabı internetdə örtürlər, gizlədirlər. Xalq buna azı 2 dəfə pul ayırıb da bə! Başqa nə istəyirsiniz?

Qayıdaq qorxu temasına. Teatra yaxın küçədə alman lüteran kilsəsinin yanından keçirik. Uşaq kilsənin içərisinə baxmaq istəyir. Bir nəfər qaçaraq gəlir, deyir olmaz. Kilsə 19-cu əsrdə dindarların ianəsi və Nobelin Bakı neftindən qazandığı pulla tikilib. 8 il qabaq dövlət büdcəmizin puluyla təmir olunub. Hazırda Dövlət Filarmoniyasının orqan zalı kimi istifadə edilir. Ancaq bu xalqın uşağı onun qapısından içəri keçə bilməz. Bu da sənə "Allah evi"...

Tamaşa salonuna girməzdən qabaq iki pilləkən qalxıb uşağa foyenin tavanındakı damlavari, gözəl dekorasiyanı göstərmək istəyirəm. Yenə bir qadın hardansa süpürgə üstündə uçaraq özünü yetirir: "Olmaz, olmaz!". Deyirəm qorxmasın, tavana tamaşa edib qayıdırıq. Birtəhər sakitləşir.

Çəmənliyin yanında keçirsən, görürsən az qala ota baxmağın da qadağan edilməsi haqda lövhə basdırılıb - hər otun böyründə bir dənə. Meşəyə gedirsən, bir cangüdən çıxır: "Bura Filankəs müəllimin meşəsidir, burda ancaq o çaqqallıq edə bilər". Dağa çıxıb qara baxmaq istəyirsən, yenə bir lotu gəlir, deyir sürüş burdan. Çaya, dənizə, çölə, quma - uzun sözün qısası, bu ölkədə hər yerə bir zırpı "Qadağandır, olmaz!" elanı yapışdırıblar. Sən uşağa belə yurdu, vətəni necə sevdirəcəksən? Yaşamağın qadağan olduğu yer uğrunda yalnız ölməyin azad olduğunumu deyəcəksən? Ay camaat, bu qadağaları bir yerinizdə saxlayın və biz böyüklərə tətbiq eləyin, canımız cəhənnəmə. Ancaq heç olmazsa uşaqların yanında qadağanları yeri gəldi-gəlmədi nümayiş etdirməyin. Qorxaq olarlar, təkrar edirəm.

Tamaşa isə "Qulliver cırtdanlar ölkəsində" adlanırdı. Deyəsən biz də tədricən cırtdana, liliputa dönürük.

# Ermənistan kritik həftəyə girdi - müharibənin "fitil"i çəkilə bilər

## Sabah parlament yeni baş naziri seçməlidir; xalq üsyançı deputata mandat verdi, parlament çoxluğu və Kreml də verəcəkmi? Ölkədə siyasi ehtiraslar pik həddə; **politoloq:** "Rusiya təşviş içindədir və onun Qarabağı alıb bizə verməsi..."

**Mayın 1-də Ermənistan parlamenti yeni baş naziri seçməlidir. Müxalifət hərəkatının lideri, "Vətəndaş Müqaviləsi" partiyasının rəhbəri, deputat Nikol Paşinyan bu üzdən xalqı sabah saat 8:00-dan daha izdihamlı mitinqə çağırıb. Çünki həmin gün əslində Paşinyanın ölkənin müvəqqəti baş naziri olub-olmayacağı ilə yanaşı, "məxməri" inqilabın taleyi həll olunacaq. Eyni zamanda, proseslərin konstitusion məcrada, yoxsa qanlı ssenari üzrə gedəcəyi bilinəcək.**

Aydındır ki, budəfəki kütləvi etiraz parlamentə, çoxluqda olan hakim Respublikaçılar Partiyasına təzyiq məqsədi güdür. Təsadüfi deyil ki, Paşinyan iqtidarı hədələyərək bəyan edib ki, hakim partiya və ya parlament baş nazirin səlahiyyətlərini icra edən Karen Karapetyana səs versə, siyasi böhran davam edəcək. Paşinyan vurğulayıb ki, ümidi yalnız xalqadır.

Qiyamçı deputata isə hazırda hakim fraksiyadan hardasa 6-7 səs lazımdır (baş nazir olmaq üçün 53 səs kifayətdir). Özünün başçılıq elədiyi "Yelk" ("Çıxış") bloku və hərəkatın tərəfinə keçən "Tsarukyan" bloku hesabına onun 40 səsi artıq var, üstəgəl, daşnaklar da onu dəstəkləməyə hazır olduqlarını bildiriblər.

Maraqlı məqamlardan biri də səsvermənin Sərksiyan seçkisində olduğu kimi, açıq keçirilib-keçirimləyəcəyi ilə bağlıdır. Açıq olarsa, N.Paşinyanın əleyhinə səs verən deputatlar, sözsüz ki, narazı kütlənin qəzəbinə gələcək - hərçənd, onlar bilərəkdən səsverməyə qatılmaya və ya bitərəf də qala bilərlər. Ancaq o halda seçki baş tutmaya bilər ki, bu da böhranlı vəziyyətin dərinləşməsi demək olacaq.

*****

Bu arada məlum olub ki, Respublikaçılar Partiyası baş nazir vəzifəsinə öz namizədini irəli sürməyəcək. Bunu parlamentin vitse-spikeri, partiyanın İdarə Heyətinin üzvü Eduard Şarmazanov deyib. O bildirib ki, ötən şənbə sabiq baş nazir Serj Sərkisyan və Karen Karapetyan arasında görüş keçirilib. Görüşdə ölkədəki daxili siyasi vəziyyət və baş nazir seçkiləri ilə bağlı məsələ müzakirə olunub.

"Bu görüşdə Respublika Partiyasının baş nazir postuna namizəd irəli sürməməsi barədə qərar verilib. Biz mayın 1-də parlamentdə səsvermə keçiriləne qədər irəli sürüləcək bütün namizədlərlə bağlı müzakirə aparacağıq. Bizim 30 aprel saat 18:00-a qədər vaxtımız var", - deyə o qeyd edib.

Yada salaq ki, az öncə S.Sarkisyan fraksiya üzvləri ilə görüşdə baş nazirliyə Karen Karapetyandan əlavə, İrəvan meri Taron Marqaryan və keçmiş prezident Robert Koçəryanın namizədliyi barədə düşünməyi tövsiyə eləmişdi...

*****

Bir çox təhlilçilərə görə, mayın 1-də Paşinyanın baş nazir olma şansı zəif deyil. Bunu anlayan hakim qüvvənin odioz təmsilçiləri ona dəstək qarşılığında öz biznes maraqlarına zəmanət istəyirlər. "Yeni Müsavat" xatırladır ki, ötən həftəsonu hakim partiya Paşinyana belə bir variant da təklif edib: onun baş nazirliyi müdafiə edilir, bir şərtlə ki, erkən parlament seçkiləri indi yox, bir il sonra keçirilsin. Hakim qüvvə ümid edir ki, məhz bu bir ildə xalq baş nazir Nikol Paşinyanın ciddi islahatlara gedə bilmədiyini görüb seçkilərdə onun partiyasına səs verməz və yekunda yeni baş nazir başqası olar. Bunu Paşinyan yaxşı anladığı üçün təklifi rədd edib və deyib ki, erkən seçkilər ən qısa zamanda baş tutmalıdır.

Əlbəttə ki, Rusiya amili də proseslərdə öz sözünü mütləq deyəcək. Moskva hadisələrə hansı formada müdaxilə edəcək?

Bu, yəqin ki, xalqın prosesə nə dərəcədə dəstək verməsindən, parlamentdəki çoxluğun müxalifətin tərəfinə keçib-keçməsindən asılı olacaq. Bəzi analitiklərə görə, Rusiya hərəkatı gözdən salmaq, üsyançı deputatın baş nazirlik şansını azaltmaq və öz istəyinə çatmaq üçün cəbhədə atəşkəsin pozulmasını da təşkil edə bilər. Odur ki, hərbi ekspert Üzeyir Cəfərovun "Azərbaycan bu günlər xüsusilə diqqətli olmalıdır" xəbərdarlığı ilə razılaşmamaq çətindir.

"Putin hazırda təşviş içindədir. Ermənistanda hakimiyyət dəyişikliyinin qarşısını almaq üçün müxtəlif variantlara əl atmaqdan çəkinmir. Hətta o, Ermənistanda baş nazir vəzifəsini əvəz edən Karen Karapetyanı zorakı üsullara əl atmağa təhrik edir və Ermənistanda zor gücünə yenə də siyasi status-kvonu qoruyub saxlamaq istəyir. Qarabağın alınıb ermənilərə verilməsində, torpağımızın işğal edilməsində, 1 milyona yaxın insanın öz yurdundan qovulmasında Rusiya çox böyük rol oynayıb. İşğalçı əslində Rusiyadır. Ona görə də Moskvanın Qarabağı alıb bizə verməsi inandırıcı görünmür".

Bu sözləri axar.az-a açıqlamasında politoloq Qabil Hüseynli deyib. Onun sözlərinə görə, Paşinyanın bütövlükdə Sərkisyan rejimi üzərində qəti qələbə qazandığını, qələbəsini təmin etdiyini söyləmək çətindir: "Çünki hələ parlamentdə baş nazirlik vəzifəsinin müzakirəsi mayın 1-də keçiriləcək. O zamana qədər Rusiya sürətlə Ermənistandakı hadisələrə müdaxilə edəcək. Təsadüfi deyil ki, erməni rəsmiləri durmadan Moskvaya çağırılır. Rusiya hadisələrə zoraki üsullarla müdaxilə etməyin tərəfdarı olduğunu açıq surətdə ortaya qoyub. Sadəcə, hələlik bunu uğurla həyata keçirə biləcək lider tapa bilməyib. Karapetyan güc tətbiq etməkdən ehtiyat edir".

Politoloqun fikrincə, Qərb də prosesləri diqqətlə izləyir. "Rusiyanın bu proseslərin sonunda ciddi zərbə ala biləcəyi və bunun Rusiya üçün arzuolunmaz nəticələri olacağını proqnozlaşdırmaq olar. Ona görə də Rusiya tərəddüd içindədir", - deyə ekspert sonda əlavə edib.

*****

"Hakimiyyət dəyişikliyindən sonra Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) üzv kimi qalacaq. Avrasiya İqtisadi Birliyi və Avropa İttifaqı ilə bağlı öhdəliklərə də sadiq qalacaq". Bu sözləri isə ötən həftəsonu Nikol Paşinyan Gümrüdə keçirdiyi mitinqdə bəyan edib. "Ermənistanın KTMT-də qalacağına zəmanət verirəm. Çünki bu, Ermənistanın milli maraqlarına cavab verir", - o vurğulayıb. Onun sözlərinə görə, rəhbərlik etdiyi hərəkət Rusiyaya qarşı düşmən mövqedə deyil və ölkəni düşüncəsiz, macəralı yola sürükləməyəcək.

Paşinyanın belə bir açıqlamanı məhz Rusiya hərbi bazasının olduğu Gümrüdə verməsi, şübhəsiz ki, rəmzi məna daşıyır və Kremlin hakimiyyət dəyişikliyi ilə bağlı son şübhəsini də aradan qaldırmaq, onu sakitləşdirmək və yekun etibarilə baş nazirliyə onun "dobro"sunu almaq niyyəti güdür. Halbuki, bu şəxs həmişə Ermənistanın Avrasiya Birliyindən çıxmasının tərəfdarı olub. Paşinyanın blokunun adı da elə burdan götürülüb - "Çıxış".

Ancaq Rusiyaya nə lazımdır? Ermənistan onun siyasi və hərbi nüfuz dairəsində, "Rus NATO-su"nda qalmada davam edəcəksə, baş nazirin kimliyi ondan ötrü ikinci dərəcəli məsələdir. Yalnız bircə sual açıq qalır ki, eyni siyasəti Serj Sərkisyan da həyata keçirirdisə, Qarabağ məsələsində də N.Paşinyan kardinal dəyişikliyə nail ola bilməyəcəksə (çünki Rusiyasız bu mümkün olmayacaq), o zaman qiyama-inqilaba dəyərdimi? Yox, məsələ yalnız daxili islahatlarla bağlı olacaqsa, yenə Qarabağ ixtilafı çözülmədən, blokada rejimi götürülmədən, iki böyük qonşu - Azərbaycan və Türkiyə ilə əlaqələr qaydaya salınmadan Ermənistanda heç bir islahat ciddi nəticə verə bilməz, erməni xalqının rifahı yaxşılaşa, müharibə riski azala, ölkədən kütləvi köç dayana bilməz. Demək, Paşinyan da sözünü tuta bilməz.

Mayın 1-dən sonra Ermənistan hansı yolla gedəcək və ən əsası, Qarabağ ətrafında situasiya hansı səmtə dəyişəcək, müharibənin "fitil"i çəkilə bilərmi? 1 gün də gözləyək...

***P.S.** Qəzet çapa gedərkən İrəvanda etiraz aksiyalarının yeni dalğası başlamışdı.*

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Zakir Həsənovun Çin səfərində əsas hədəf

## Elxan Şahinoğlu: "Rusiyadan silah və hərbi texnika asılılığımızı azaltmalıyıq..."

**Ötən həftənin ölkəmiz üçün əhəmiyyətli hadisələrindən biri müdafiə naziri general-polkovnik Zakir Həsənovun Çinə səfəri və orada keçirilən görüşlər, hərbi yardımın göstərilməsi ilə bağlı sənəd imzalanması oldu. ÇXR-in Milli Müdafiə Nazirliyində iki ölkənin müdafiə nazirlərinin görüşü olub. Görüşdə Çinin milli müdafiə naziri iki ölkənin hərbi sahədə əməkdaşlığına toxunaraq bu istiqamətdə böyük potensialın olduğunu bildirib.**

O, ölkəsinin Dağlıq Qarabağ münaqişəsində mövqeyinin dəyişmədiyini, hər zaman olduğu kimi, münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib. Azərbaycanın müdafiə naziri Çinin Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib.

Görüşün sonunda iki nazirlik arasında hərbi yardımın göstərilməsinə dair sənəd imzalanıb. Səfər çərçivəsində nazir Zakir Həsənov Çinin hərbi sənaye kompleksinə daxil olan "Poly Technologies" şirkətində olub. Müəssisənin istehsal etdiyi müasir döyüş texnikası və digər hərbi təyinatlı məhsullar ilə tanış olub.

Bəs, müdafiə nazirinin Çin səfərinin Azərbaycan üçün hansı əhəmiyyətləri var? Çin hərbi sənayesi Azərbaycanın silah arsenalı üçün əhəmiyyətlidirmi?

Politoloq Elxan Şahinoğlu bildirdi ki, bu səfər bir neçə baxımdan əhəmiyyətlidir: "Birincisi, Çin dünyanın aparıcı dövlətlərindən biridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Doğrudur, Çin dünyada daha çox iqtisadi gücü ilə tanınıb. Ancaq bu dövlətin hərbi qüdrəti də hər keçən gün artır. Çinin güclü hərbi-sənaye kompleksi var, müxtəlif növ silah və hərbi texnika istehsal edir. Bu baxımdan Azərbaycanın Çinin hərbi-sənaye kompleksinə artan marağı normaldır. Biz bu ölkədən müxtəlif növ silahlar ala bilərik. Təsadüfi deyil ki, müdafiə naziri Zakir Həsənovun Çinə səfərinin əhəmiyyətli hissəsinə bu ölkədəki hərbi sənaye kompleksinə aid müəssisələrin ziyarəti daxil idi. İkincisi, biz Rusiyadan çox silah aldıq. Rusiyadan silah və hərbi texnika asılılığımızı azaltmalıyıq. Həm də Rusiyanın bizə göndərdiyi silah və hərbi texnikanın keyfiyyətindəki qüsurlar barədə də müxtəlif xəbərlər var. Necə ki, enerji resurslarımızın dünya bazarlarına çatdırılmasını şaxələndirmişik və bir dövlətdən asılı deyilik, eləcə də silah və hərbi texnika alışında bir dövlətdən asılı olmamalıyıq. Ona görə də Çinin silah bazarı bizi cəlb edir. Həm də biz Çindən silah alsaq Rusiya buna etiraz edə bilməyəcək. Çünki Çin hansısa Qərb ölkəsi deyil. Çin sözdə Rusiyanın strateji tərəfdaşıdır və strateji müttəfiqinin Azərbaycana silah satışına etiraz edə bilməz. Eyni məntiqlə Rusiya Azərbaycanın Belarusdan raket komplekslərinin alışına da etiraz edə bilməz, etməməlidir. Çünki Belarus da sözdə Rusiyanın strateji tərəfdaşıdır. Üçüncüsü, Zakir Həsənovun Çinə səfərinin bir başqa əhəmiyyəti də var. Ermənistanda xaosdur, hakimiyyət boşluğudur. Ən çox qorxduqları da Azərbaycan ordusunun bundan istifadə edərək işğal edilən torpaqları azad etmək məqsədilə hücum əməliyyatına başlamasıdır. Qoy daima bu psixoloji təzyiq altında olsunlar və belə bir məqamda Zakir Həsənovun Çinə səfəri və bu ölkədən hərbi texnikanın alışı ilə bağlı fikir mübadiləsini aparması Ermənistan cəmiyyətinə növbəti mesajımızdır ki, biz müharibə hazırlıqlarımızı davam etdiririk, bundan gərəkli nəticə çıxarın".



Ordu.az saytı isə qeyd edir ki, Çinin nəhəng hərbi sənayesində ölkəmizin hərbiçilərini maraqlandıran bir çox sistemlər var.

1) İnformasiya texnologiyaları mühafizəsi sahəsində aparat və proqram qərarları;

2) Döyüş, kəşfiyyat, REM, uçan idarəetmə məntəqələri funksiyalarını yerinə yetirən təyyarələr;

3) Hava Hücumundan müdafiə sistemləri;

4) Universal operativ-taktiki zərbə sistemləri;

5) Koordinatları müəyyən edən peyk sistemlərinin siqnallarını qəbul imkanı;

6) Hərbi-tədris sahəsində əməkdaşlıq.

Çinin mühəndisləri lokal sahələrdə istifadə etmək üçün çəkinmədən müxtəlif kibernetik əməliyyat sistemləri layihələndirərək, onların mikroprosessor özəyini qura bilirlər. Bu da bəzi kompüter əməliyyat sistemləri üçün yazılmış "casus proqramların" belə lokal sistemlər üçün yararsız edir. Bu sahədə Çindən öyrənə biləcəyimiz çox şeylər var.

Döyüş təyyarələri alışı sahəsində bizim ölkəmizin elə də böyük seçimi yoxdur. Nəinki bizim ölkəmizin, hətta dünya ölkələrinin əksər qisminin seçimi elə də böyük deyil. Müasir döyüş təyyarələri istehsalının tam komponentləri dünyada yalnız ABŞ şirkətlərində, Fransa-İngiltərə-Almaniya sərmayəli Avropa Konsorsiumunda, Fransanın "Dasso" şirkətində, İsveçin "Saab" şirkətində, Rusiya Federasiyasının şirkətlərində və Çin şirkətlərində var. Çinin aviasiya sənayesi məhsulları da ordumuzun tələbləri üçün maraqlı ola bilər. Bu ölkədə istehsal olunan təyyarələrin içində bizim üçün ən maraqlısı 2000-ci illərin əvvəllərində ÇXAO (Çin Xalq Azadlıq Ordusu) silahlanmasına daxil edilmiş 4+ nəsilli "Çəngdu" J-10 qırıcı-bombardmançı təyyarəsi, Çinin və Pakistanın birgə istehsalı olan "Thander" JF-17 blockII modifikasiyalı çoxfunksiyalı yüngül döyüş təyyarəsi və müasir KJ-500 "Uçan aviasiya idarəetmə məntəqəsi"dir.

Hər üç təyyarə bizim aviasiyamızın döyüş qabiliyyətinin inkşafına böyük təkan verə bilər. Bu maşınlarla silahlanmış aviasiyamız daha asanlıqla potensial düşmənin hücum edən zərbə təyyarələrini məhv edə bilər, həm də onun hava hücumundan müdafiə sistemini qət edib boğa biləcək. Bu isə düşmənin ordusunun infrastrukturu yerləşmiş rayonun üzərindəki səmaya tam sahibliyi ələ keçirərək, onun birləşmələrinə və obyektlərinə birbaşa zərbə endirmək imkanı deməkdir. Belə zərbələr üçün bahalı raket silahı yox, ucuz qiymətli azad düşən aviasiya bombaları kifayətdir. Partlayıcı gücü operativ-taktiki raketlərin partlayıcı gücündən heç də az olmayan bu sursatlar yalnız partlayıcı maddədən və qəlpələnən polad örtükdən ibarətdir. Bir sözlə, bu sursat operativ-taktiki raketlərdən bəzən min dəfə ucuz qiymətə istehsal olunur. Belə sursatların istehsalı da ölkəmizdə artıq seriyaya salınıb və Bakı müəssisələrindən birində istehsal olunur.

Çin istehsalı olan hava hücumundan müdafiə sistemləri-ZRK-ları - HQ-9, HQ-12 və HQ-16 (LY-80) HQ-17 - bizim ordunu maraqlandıra bilər. Əgər bu sistemlərin deklarasiya olunmuş xüsusiyyətləri onların həqiqi xüsusiyyətləri ilə uyğun gəlirsə, ölkəmizin çoxeşelonlu HHM sisteminin qurulmasında onlardan istifadə etmək olar. Çinin CASİC və CASC şirkətlərinin hazırladığı BP-12A və GATSS universal taktiki cəbhə zərbə kompleksləri isə dünyada ilk üçlüyə daxildir.

Çin özünü ABŞ-ın, Avropa İttifaqının, Rusiyanın peyk qlobal yerini təyinetmə siqnallarından (GPS) asılı etməmək üçün özünün "Baydu" sistemini qurub.

Ordumuzun bu sistemin şifrli hərbi-kommersiya kanallarına girişinin olması məqsədəuyğun olardı. Koordinatları təyin edən sistemlərimiz nə qədər çox bir-birini tamamlayarsa, o qədər yaxşı olar. Çünki müəyyən siyasi şəraitdə ABŞ, Avropa və Rusiya öz koordinat peyklərinin dəqiqliyini bizim refion üzərində azalda bilərlər. Bununla da bizim GPS idarəetməsi olan yüksək dəqiqlikli sursatlarımız adi sursatlara çevrilə bilər.

Çin dövləti min illik hərbi ənənələri olan bir dövlətdir. Onun güclü hərbi məktəbi var. Dünyanın ən ambisiyalı və sürətlə inkşaf edən ordusudur. Bu baxımdan ÇXR hərbi məktəblərində və akademiyalarında keyfiyyətli hərbi biliklər qazanmaq mümkündür. Bizim ordumuzda həqiqi hərbi xidmətdə olan bir neçə istedadlı hərbçi bu ölkədə təhsil alıb. Bu sahə də bizim üçün maraqlıdır. Müxtəlif hərbi sistemlərdə təhsil almış zabitlərimiz ölkəmizdə hərbi fikrin inkşafına təkan verə bilərlər.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Ərdoğan Koreyaya gedir

**"İclasdan sonra Özbəkistana yola düşürük, iki gün orada olacağıq. Oradan da Cənubi Koreyaya keçəcəyik". Axar.az xəbər verir ki, bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan AKP-nin İstanbul mahal Gənclik qolları toplantısında çıxışı zamanı deyib.**

Prezident həftənin cümə axşamı gecə saatlarında ölkəyə qayıdacağını qeyd edib.



# ABŞ prezidenti hökuməti bağlayacağı ilə hədələyir

**ABŞ prezidenti ilin sonunadək Konqres ABŞ-Meksika sərhədlərində divar çəkilişi də daxil edilməklə, sərhəd təhlükəzliyinə dair layihənin maliyyələşdirməsə, hökuməti bağlayacağı ilə təhdid edib.**

Ötən ay Tramp 1.3 trillion dollarlıq məsrəf qanununu imzalayaraq, hökumətin fəaliyyətini sentyabr ayınadək təmin edib. Şənbə günü Miçiqan ştatının Taunşip şəhərində keçirilən yürüş zamanı prezident deyib ki, məsrəflərə dair səsvermə sentyabrın 28-də yenidən gündəçə çıxsa da, burada divarın inşası nəzərdə tutulmur.

Meksika sərhədlərinə divar çəkilməsi Trampın seçkiqabağı kampaniyasının əsas mövzusu idi. ABŞ dövlət başçısının noyabr ayı ümummilli seçkilərdən öncə hökuməti bağlamaq qərarı respublikaçıların dəstəyini əldə etməyə bilər. Tramp xəbərdarlıq edərək bildirib ki, noyabr ayı seçkiləri demokratlar üçün açıq sərhədlər və cinayətlər səsverməsi olacaq.



# ABŞ ən böyük düşməninə qarşı hərəkətə keçdi

**Cənubi Cin dənizində ABŞ və Çin arasında gərginlik hər keçən gün artır. Publika.az xarici mediaya istinadən xəbər verir ki, ABŞ-ın "B-52" bombardmançı təyyarələri Cənubi Çin dənizinə daxil olaraq Spratli adasının üzərində uçublar.**

Xəbərə görə, Quam adasından qalxan bombardmançılar mübahisəli sular üzərində təlim uçuşu həyata keçiriblər. "Ölüm maşını" olaraq tanınan "B-52"-lər tonlarla bomba daşıya bilən ən böyük strateji bombardmançı təyyarələrdən biridir. CNN telekanalına danışan ABŞ ordusunun səlahiyyətliləri iki bombardmançının Çinin hərbi hava limanı və Çinin raket bazalarının olduğu Spratli adasının üzərindən uçduğunu təsdiq ediblər.

Çinin Amerikanın döyüş təyyarələrinin qarşısını almaq üçün heç bir addım atmadığı bildirilir. Telekanal təlim uçuşlarında Yaponiyanın "F-15" döyüş təyyarələrinin də iştirak etdiyini bildirib.

Qeyd edək ki, Çin ordusu iki həftə əvvəl Cənubi Çin dənizində tarixinin ən böyük güc nümayişini edib. Çin lideri Si Cinpinin də uniforma ilə qatıldığı dəniz təlimlərində "Liaoning" təyyarədaşıyan gəmi ilə yanaşı, 48 döyüş gəmisi və sualtı qayıq, 76 döyüş təyyarəsi və 10 mindən çox əsgər qatılıb. ABŞ isə aprel ayının əvvəlində "USS Theodore Roosevelt" təyyarədaşıyan gəmidən 20 dəqiqə ərzində 20 döyüş təyyarəsi qaldırmışdı.

Qeyd edək ki, dünyanın ən əhəmiyyətli dəniz marşrutlarından biri olan Cənubi Çin dənizi zəngin karbohidrogen ehtiyatlarına malikdir. Çindən başqa, Filippin, Vyetnam, Malayziya, Bruney və Tayvan kimi ölkələr də beynəlxalq suları iddia edirlər. ABŞ isə Çinin bu regionda möhkəmlənməsi təhlükəsizlik maraqlarına zərbə hesab edir və son illər Cənubi Çin dənizi regionunu xarici siyasətin prioritetlərindən birinə çevirib.

ABŞ-ın son təhlükəsizlik strategiyasında isə Çin və Rusiya ən böyük təhdidlər adlandırılıb.



# Evdə məhkum uşaqlar

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**O gün CNN-də maraqlı bir hesabatla tanış oldum. 2016-cı ildə 10 ölkədə 12 000 valideynlə həyata keçirilən Qlobal Uşaq və Oyun Araşdırmasına görə, uşaqların 56 faizi bir gündə orta hesabla 1 saatdan az, 19 faizi isə 30 dəqiqədən daha az açıq havada oyun oynayır. Bir saatdan daha az küçədə qalma faizi Türkiyədə 61 faizi təşkil edir.**

Azərbaycanda belə hesabat həyata keçirilməyib. Amma əmin olun ki, bizdə də bundan çox deyil. Gündə 1 saatdan daha az açıq havada qalmaq Birləşmiş Millətlər İnsan Haqları Yüksək Komissarlıq Ofisinin məhkumların açıq havada keçirmələrini tövsiyyə etdiyi minimim müddətdən daha azdır. Dəhşəti siz özünüz düşünün.

Bəli, müasir valideynlər uşağını küçələrə az buraxır, bizim uşaqlığımızda oynadığımız oyunlardan böyük əksəriyyətinin xəbəri belə yoxdur. Hamısı telefonun, kompüterin, planşetin qabağında... Gözlərlə o alət arasında maksimum 20-30 santimetr məsafə və nəticədə 25 nəfərlik sinfin yarıdan çoxu eynəklə gəzir, uzağı görmür. Ən yaxşı halda da valideynlər uşağı əyləndirmək adına əyləncə mərkəzlərinə, AVM-lərdəki uşaq məkanlarına aparırlar. Qapalı məkanlar, pəncərəsiz, havasız yerlər. Yenə uşağa uşaqlığını yaşamaq üçün verilən minimal imkanlar. Düzdür, indi bir çox binaların həyətində oynamağa da yer yoxdur. Qarajlar, marketlər, gözəllik salonları. Barmaq qoymağa yer görən kimi kimsə nəsə tikir, qurur, həmin yeri qapadır.

Daha bir səbəb isə odur ki, indi uşaqların bayırda oynamaq üçün ümumiyyətlə vaxtları yoxdur. Hazırlıqlar, kurslar, məşğələlər... Günlərini bunlar zəbt edib. Günorta 1-ə qədər məktəb, 1-dən sonra isə fasiləsiz hazırlıqlar. Amma bunlar da yeganə səbəb deyil.

Kimdən soruşsan deyəcək ki, bu, indiki valideynlərin tənbəlliyindədir. "Uşağın əlinə telefon verib canlarını qurtarırlar" arqumentini tez-tez eşitmirikmi? Təbii ki, bunda da bir həqiqət var. Uşağına pəncərədən nəzarət etmənin tənbəlliyi ilə çoxu heç onu bayıra da buraxmır. Amma hamı üçün bu, keçərlidirmi?

Valideynlər sözün bir çox mənalarında təhlükəli bir missiyanı yerinə yetirirlər. Bəli, indi küçələr uşaqlar üçün təhlükə mənbəyidir: uşaq oğruları, manyaklar, pedofillər, avtoxuliqanlar... Siyahını uzatmaq olar, amma bunların hamısı əsəb cırmaqlamaqdan başqa bir işə yaramayacaq. Müasir valideyn indi küçədə uşağına yaxınlaşan istənilən yad insanı potensial təhlükə kimi görür. İnternetdə bu cür sosial çarxlar bəs deyincədir. Uşağı təhlükədən qorumaq üçün valideyn ona nələri öyrətməlidir, hansı taktikaları aşılamalıdır və sair.

Təsəvvür edirsiz, indi küçəyə uşaq buraxmaq az qala döyüş səngərində mövqe tutmağa bənzəyir: "Bax, qızım, tanımadığın əmi (düşmən) sənə yaxınlaşıb, saçını sığallasa, konfet versə, qışqırmağa başla, qonşuları köməyə çağır..."

O gün Bakı məktəblərindən birində ibtidai sinif şagirdinin ayaqyolunda yuxarı sinif şagirdi tərəfindən zorlanması xəbəri hamının əsəbini tarıma çəkdi. Gah dedilər, valideynlər aksiya keçirib. Gah yazdılar ki, məktəb rəhbərliyi məsələni ört-basdır etməyə çalışır. Amma bütün hallarda hamımızın ürəyində bir xal qaldı. Məktəb koridorları, məktəb həyəti də artıq əvvəlki qədər etibarlı deyil, onu öyrəndik. O halda uşağını həyətə buraxmayan valideynləri necə qınayaq? Hər gün kriminal xronika uşaqlarla bağlı nə qədər tükürpədici xəbərə yer verir? Hər bir valideyn empati qurur, qorxu ssenariləri yazır beynində və...

Uşağın, yeniyetmənin sərbəst buraxılması, onun həyata alışdırılması üçün özbaşına gəzintilərə, uzaq məsafələrə getməsinə icazə verilməsi keçmiş zamanda qalıb. Bəli, 20 il öncəyə qədər bunda heç bir problem yox idi və uşaqlarımız üçün qurulan təhlükələr, tələlər bu qədər çox deyildi. Var idi, amma bu qədər deyildi. İndi isə hər an təhlükəyə hazır vəziyyətdə dayanmaq valideynlərin əsas vəzifəsi olub. Axı bilirik, şəhər turistlərlə dolub-daşır. Hər tərəfdə potensial təhlükə var. Hansısa neqativ hal isə travma kimi uşağın beynində illərlə qalır və ölüncəyədək silinmir.

Bəli, uşaqlar həyət-bacaya çıxmır. Təəssüf ki, havasız şəraitdə, dörd divar arasında böyüyürlər. Uşaq oyunlarından xəbərsizdilər. Dünyanı ancaq o aqressiv oyun qəhrəmanlarının gözü ilə, vurdu-qırdıda görürlər. Amma əmin olun ki, bayırdakı dünya o oyunlardan daha təhlükəlidi. Əks halda, uşaqlara evdə məhkum həyatı yaşatmağı heç bir valideyn istəməz.

# Müdhiş ADNA terrorundan 9 il ötdü

## Hadisənin üzərindəki sirr pərdəsi isə hələ də qalır...

**Aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) tələbə və müəllimlərin güllələnməsindən 9 il ötür. Rəsmi məlumatlara görə, 2009-cu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasının "Qaz Neft Mədən" və "Neft Mexanikası" fakültələrinin yerləşdiyi binaya daxil olan şəxs qarşısına çıxan hər bir kəsə "Makarov" tipli tapançadan atəş açıb. Nəticədə 13 nəfər ölüb, 13 nəfər yaralanıb.**




Öldürülən və yaralananların, demək olar ki, hamısı tələbə və müəllimlərdir. Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı şəxs özünü də öldürüb. Özünü öldürən şəxs 1980-ci il təvəllüdlü Gürcüstan vətəndaşı Fərda Qədirov olub. Özünü öldürdükdən sonra üstündən hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 ədəd patrondaş, 2 tapança sandıqçası aşkar edilərək götürülüb. Onun universitetdə nə qədər güllə sərf edərək atəş açdığı müəyyən edilməyib. Müstəqil hüquqşünaslar hadisə baş verəndən sonra Fərda Qədirovun əməllərinin terrorçuluq maddəsi ilə istintaq ediləcəyini söyləmişdilər. Amma belə olmadı. Faktla bağlı Cinayət Məcəlləsinin 120.2.2 (xuliqanlıq niyyəti ilə adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə), 29, 120.2.7 (adam öldürməyə cəhd) və 228.1 (qanunsuz olaraq odlu silah saxlama və gəzdirmə) maddələri ilə cinayət işi başlanıb və sonradan terrorçuluq ittihamı da irəli sürülüb. İstintaq-əməliyyat qrupu yaradılıb. 2010-cu il aprelin 10-da Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin hökmü ilə Nadir Əliyev, Cavidan Amirov və Nəcəf Süleymanov adlı şəxslər ömürlük həbs cəzasına məhkum edilib. Ariz Qabulov isə 11 il azadlıqdan məhrum olunub. Onların hamısı Gürcüstandan olan azərbaycanlılardır və qəsdən adam öldürmə, qaçaqmalçılıq, qanunsuz silah və narkotik maddə saxlamaq ittihamları üzrə təqsirli bilinib. Hökm zamanı müttəhimlər cinayətlə əlaqələrinin olmadığını bildiriblər. Nadir Əliyev məhkəmə zamanı dəfələrlə bəyan edib ki, ona işgəncə verilib, bu yolla tələb edilən ifadələr alınıb.

O, hazırda Qobustan Qapalı Həbsxanasında ömürlük həbs cəzası çəkir. Bibisi Leyla Əliyeva "Yeni Müsavat"a bildirib ki, Nadir Əliyevin anası və qardaşı imkan daxilində məhbusun yanına gedirlər. Onun sözlərinə görə, qardaşı oğlunun səhhəti normaldır: "Hər yerə müraciət etdilər, məktub göndərdilər, yazdılar. Amma bir xeyri olmadı. İş Avropa Məhkəməsinə göndərilib. Nə vaxt baxılacaq bilmirik. Nadir elə hey deyir ki, müraciət etməkdən, kömək istəməkdən, bu işlə məşğul olmaqdan əl çəkməyin. Artıq 9-cu il olacaq ki, həbsdədir. Onun günahı yoxdur. Nadirə hökm oxuyan hakim Ramella Allahverdiyeva da bilirdi ki, günahı olmayan cavan uşaqları bədbəxt edir. Hakim hökmü oxuyanda ağlayırdı. Biz dərdimizi kimə deyək bilmirik. Axı əlimizdən nə gəlir ki? Ailəsi yazıq nə etməlidir? Atası Rusiyada işləyir, anası və qardaşı imkan olanda yanına gəlib gedirlər".

Nadir Əliyevin bibisi qeyd etdi ki, tutulanların Gürcüstana ekstradisiya olunması məsələsi nəticəsiz qalıb: "Ailəsi Nadir üçün Gürcüstanda da vəkil tutmuşdu. Amma heç bir nəticəsi yoxdur. Nadir özü də türmədən məktub yazır. Heç nə də, oturub orda, heç nə edə bilmirik, özünü günahsız sayır. O biri tutulanların da yaxınları gedib gəlirlər. Əldən bundan başqa heç nə gəlmir".

İttihama görə, cinayətin təşkilatçısı Gürcüstan vətəndaşı, erməni əsilli Mardun Qumaşyandır. O, müttəhimlərlə cinayət əlaqəsinə girərək, onları Bakıda azərbaycanlılara qarşı terror aktı törətməyə razı salıb. İstintaq hesab edib ki, Qumaşyan terrorçuluğu maliyyələşdirərək bu cinayətin təşkili və həyata keçirilməsi üçün onlara ümumilikdə 50 min ABŞ dolları məbləğində pul verəcəyini vəd edib. O əvvəlcədən Fərda Qədirova 5 min ABŞ dolları məbləğində pul verərək, qalan məbləği cinayət törədildikdən sonra verəcəyi, eləcə də Fərda Qədirov tərəfindən hələ 2008-ci il noyabrın 8-də Tbilisidə odlu silah satışı mağazasından aldığı "Makarov" tipli tapança və 200 ədəddən artıq patronların qanunsuz olaraq Azərbaycana keçirilməsi barədə razılığa gəlib. Lakin bütün bunları sübut edən dəlillər təqdim edilməyib.

Mardun Qumaşyan Gürcüstanda ezamiyyətdə olan "Yeni Müsavat" əməkdaşlarına bir neçə il fərqlə 2 müsahibə verib. O, ADNA-da törədilən terrorla əlaqəsinin olmadığını bəyan edib. Bildirib ki, Azərbaycan hüquq-mühafizə oraqnlarının ittihamları doğrudursa, həmin ittihamları Gürcüstan Prokurorluğuna təhvil verilsin və o, istintaqda cavab verməyə hazırdır. Mardun Qumaşyan hazırda da Gürcüstanda ailəsi ilə birgə yaşayır, çörək bişirib dolanır. O Bakıda baş verən terror olayını törədənləri, sifarişçilərini də lənətləyib.

"ADNA işi" üzrə məhkəmə prosesi keçirilərkən vəkillər bildiriblər ki, Azərbaycanın hüquq-mühafizə orqanları M.Qumaşyanın Azərbaycana verilməsi məqsədilə İnterpola və Gürcüstan hakimiyyətinə müraciət etməyib. Müttəhimlər isə bildirib ki, ifadələrini işgəncə altında veriblər. İbtidai istintaq Fərda Qədirovun ölümündən sonra onun ruhi xəstə olduğunu (?!) müəyyən edib. O əvvəlcədən video-müraciət yazıb və orada bu cinayəti Azərbaycan cəmiyyətinə nifrət etdiyinə görə törətdiyini deyib. F.Qədirovun ölümündən öncə mobil telefonuna yazdırdığı video müraciət yerli televiziyalarda nümayiş etdirilib. Fərda Qədirov Gürcüstana gəlməmişdən öncə Rusiyada yaşayıb. Ekspertlər Neft Akadeniyasında silahlı hücumun sırf terror hadisəsi olduğunu düşünür.

Hazırda ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin keçmiş nazirinin 1-ci müavini Sülhəddin Əkbər "Yeni Müsavat"a deyib ki, ali məktəbdə kütləvi qətl Azərbaycanın Qərblə əlaqələrinin qarşısını almaq məqsədi ilə törədilib. "Neft Akademiyasında törədilən kütləvi qətlin əsl motivləri açılmayıb. İstintaqın müəyyən etdiyi erməni əsilli, Gürcüstan vətəndaşı Mardun Qumaşyan belə indiyədək dindirilməyib. O, rahat yaşayır və kiçik bizneslə məşğul olur. Bakı isə susur, belə deməyə əsas verir ki, cinayətin sifarişçisi o deyil. Ali məktəbdə kütləvi qətl NABUCCO layihəsinin müzakirəsi ərəfəsində törədilib. Terror aktından sonra Azərbaycan layihəni dəstəkləməkdən imtina etdi, Türkiyə ilə qazla bağlı ziddiyyətlər başladı və Rusiyaya verilən qazın həcmi artırıldı".

Sülhəddin Əkbərin sözlərinə görə, Azərbaycan və Gürcüstan İnterpolun, beynəlxalq konvensiyaların üzvləridir. "Odur ki, zəruri materialların gürcü tərəfinə verilməsinə və əsl sifarişçilərin üzə çıxarılmasına heç bir maneə yoxdur. Lakin Bakı bilir ki, Tbilisi hərtərəfli istintaq aparacaq və cinayətin arxasında duran dövlətin konkret adı çəkilə bilər. Ona görə də münasibətləri pozmaq istəmir. Odur ki, bu cür terror aktları açılmamış qalacaq, əsas təşkilatçıların və sifarişçilərin adları açıqlanmayacaq. Ola bilsin ki, cinayətin icraçıları ilə təsadüfən tanış olmuş günahsız adamlar əziyyət çəksin. Qlobalizm və müasir geosiyasi qarşıdurma şəraitində terrorizmlə mübarizə beynəlxalq birliyin işidir. Odur ki, Azərbaycan hakimiyyəti tərəfdaşları və dostları ilə səylərini koordinasiya etməlidir. Əks halda ölkəni daha ciddi təhlükələr gözləyə bilər", - o qeyd edib.

❑ E.HÜSEYNOV,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 93 (6982) 30 aprel 2018

# Azərbaycanlı haker: "Milyonlarla pulu bankdan çıxardım, sonra da..."

**Bir neçə gün əvvəl erməni saytlarına hücumu ilə gündəmə gələn Digital.mystery ləqəbli azərbaycanlı haker Minval.info saytının əməkdaşına danışıb.**

## "Bankdan on milyon oğurlayıb eyni banka qoydum, ilkin 500 min, illik 3 faiz pul təklif etdilər! Arxada onlara gülürdüm..."

O, gördüyü işlə bağlı əsl adını və üzünü gizlədir. Bu səbəbdən biz də müsahibimizin istəklərinə uyuruq.

***- Necə oldu haker olmaq qərarına gəldin?***

- 11, 12 yaşlarımda internet klublara gedirdim, yaşıdlarım, məndən böyüklər oyun oynayanda, bir rus var idi, kodlar vasitəsilə nəsə yazıb yeni səhifəyə keçirdi. Maraqlı gəldi və onunla söhbət etməyə başladım, mənə etdiyi iş haqqında danışdı, sayt hazırladığını dedi. Bir neçə gün onu izləyib, nəhayət, kompüter qarşısına keçdim, özümü yoxladım. Onda hiss elədim ki, məndə bu var, hər gün öz üstümdə işləyirdim. Artıq 2005-2006-cı illərdə mükəmməl səviyyədə sayt yığa bilirdim. Həmin ərəfədə hakerliyə maraq saldım və öyrənməyə başladım. Bir il sonra professional sayılacaq qədər çox şey bilirdim.

***- Hər kəs haker ola bilər, yoxsa hansısa kriteriyalar var?***

- Haker o deyil ki, sən kodları və proqramları yaxşı bilirsən, dil biliyin var. Əslində haker olmaq üçün xüsusi qabiliyyət tələb olunmur. Hakerlərin güclü araşdırmaq və çıxış yolu tapa bilmək qabiliyyəti olur, olmalıdır.

***- İki vur iki həmişə dörd edir?***

- Bizdə iki vur iki dörd etmir, əksinə, iki vur iki beş olur. Çünki dörd cavabını hamı bilir, mən iki vur ikini beş etməliyəm ki, nə sən tapa biləsən, nə də başqası.

***- Həqiqi cavab beşdir, yoxsa sən onu elə qələmə verirsən?***

- İkinci, əgər sən cavabı tapa bilsən, yazdığım kodda səhv tuta bilərsən, ona bizim dildə "oşibka" deyilir. Proqramistlər hücumlardan qorunmaq üçün belə (iki vur iki beş edir) üsullara əl atır, hakerlər isə onları axtarıb tapır, öz mənfəətləri üçün istifadə edirlər. Mən isə Azərbaycan saytlarını xarici hakerlərin hücumlarından qorumaq üçün səhvlərini bildiriş vasitəsilə onlara yazıram. Hazırda virtual müharibə gedir və mən bu müharibədə xarici hücumlara qarşı Azərbaycanın mövqeyini qorumağa çalışıram, onun üçün əlimdən gələni edirəm. Qısaca hakerləri iki qrupa bölə bilərik. Birincilər saytları, hesabları qırdığı halda digərləri onları qorumağa çalışır. Mən isə özümü ikincilərə, yeni qoruyucu hakerlərə daha yaxın hiss edirəm.



***- Haker deyəndə hər kəsin ağlına birinci bank oğurluğu gəlir. Sən necə, heç bankdan oğurluq etmisən?***

- Xarici, xüsusilə düşmən banklarından dəfələrlə oğurluq etmişəm. Onları ehtiyacı olan insanlara və kasıb ölkələrə göndərmişəm. Əldə etdiyim pulların müəyyən qismini Azərbaycan Respublikasının büdcəsinə transfer etmək istəsəm də, konstitusiya buna icazə vermədiyi üçün edə bilməmişəm.

***- Deməli, pulları sadəcə xeyriyyə məqsədilə istifadə edirdin...***

- Açıq danışaq, mən kasıb böyümüşəm, cavan yaşımda isə əlimə külli miqdarda pul düşdü, dünya səyahətinə çıxdım, özümə maşın aldım, indi isə nə maşınım var, nə pulum...

***- Səbəb nə idi?***

- Onda başa düşdüm ki, pulları xeyriyyə məqsədilə istifadə etsəm, daha yaxşı olar. "Uşaqlar var, şərait yoxdur". Onda da şərait var idi, amma mən uşaq deyildim. Çünki bu işə başlayanda qarşıma məqsəd qoymuşdum, əldə etdiyim pulları ehtiyacı olan insanlara göndərəcəkdim.

***- Yeri gəlmişkən, dini inancın var?***

- Əlhəmdülillah, dinimiz islamdır, ibadətlə məşğul oluram.

***- Bəs islamda oğurluq günah sayılmır?***

- Öz ehtiyaclarımı ödəmək üçün bunu etmiş olsaydım, hə, onda bu, günah sayılardı. Amma mən bunu ehtiyacı olan insanlara görə etmişəm. Təbii ki, hər kəsin pulunu mənimsəmirdim, xüsusilə yuyulmaq məqsədilə banka qoyulmuş qara pullar və dondurulmuş hesablar əsas hədəfim idi. Söhbət çirkli pullardan gedir, hesab sahiblərinin qeyri-qanuni yollarla insanlardan oğurladığı pulları mən götürüb ehtiyacı olan insanlara geri qaytarırdım.

***- İnsanlara hansı formada yardım edirdin?***

- Facebookda fake hesab açıb səhhəti ilə bağlı yardıma ehtiyacı olan insanları tapdım və onlara əməliyyat üçün lazım olan məbləği göndərdim. Əlimdə on milyona yaxın pul var idi və onları yerli-dibli məhv etməyi, ehtiyacı olanlara göndərməyi qarşıma məqsəd qoymuşdum. Daha sonra adicə məscid tikintisinə iki milyon dollar kömək etmişəm. Təbii ki, pulların necə və hara istifadə olunduğunu onlar mənə mail vaasitəsilə yazırdı. Beləcə sözügedən məscidin tikintisi tamamlandı, hazırda qapıları insanların üzünə açıqdır.

***- Söhbət külli miqdarda puldan gedir. Onları harada saxlayırdın?***

- Pulları xarici banka yatırdım, müqabilində mənə ilkin 500 min və illik 3 faiz pul təklif etdilər. Mən isə onlara gülürdüm, çünki on milyonu eyni bankdan oğurlayıb eyni banka da qoymuşdum. İfşa olunmağım an məsələsi idi, ona görə də pulları əritməyə tələsərdim. Bundan başqa Türkiyədə təhsil alan iki minə yaxın azərbaycanlı tələbəyə təqaüd ayırdım. Digər pulları isə bankdan çəkə bilmədim, çünki ifşa olunmuşdum.

***- Bank oğurluğundan başqa haker kimi nələr etmisən?***

- Getdiyim ölkələrdə hündürmərtəbəli binaların xarici görkəmini işıqlandıran sistemi dəyişib Azərbaycan bayrağı etmişəm. Türkiyənin bəzi telekanallarında, məsələn, Kanal D-də canlı yayım zamanı azan vermişəm.

***- Azərbaycandan getməyinə səbəb nə idi?***

- Heç vaxt dövlətimə qarşı qeyri-qanuni mövqedə olmamışam. Bütün fəaliyyətim düşmən ölkəyə və qeyrilərinə yönəlib, Azərbaycan bayrağını əlimdən gəldiyi qədər həmin ölkələrdə dalğalandırmışam, hələ də dalğalandırıram. Lakin hakerlik fəaliyyəti məzmunundan asılı olmayaraq qanunsuz hesab edildiyi üçün məni Azərbaycanda çox sıxışdırdılar. Yenə də deyirəm, mən dövlətimi sevirəm, həddən artıq vətənpərvər insanam, könüllü hərbi xidmətə getmişəm, nə dövlətimizə, nə də dövlət başçımıza sözüm var. Və heç kim deyə bilməz ki, sən Azərbaycandan qaçdın! Sadəcə olaraq mən Azərbaycanda fəaliyyətimlə rahat məşğul ola bilmədim, hazırda xarici bir dövlətdə olsam da, Azərbaycan saytlarını daim qoruyuram. Bu yaxınlarda İran hakerləri ilə bizim hakerlər arasında virtual müharibə başlamışdı. Belə ki, iranlı hakerlər Azərbaycanın dövlət saytını dağıtdıqları üçün bizim hakerlər onların məhz haker saytını dağıtmışdı, bu isə azərbaycanlı hakerlərin nə qədər güclü olduğunu göstərir.

***- Sosial şəbəkələrdən danışaq, facebook-dan istifadə edirsən?***

- İnstagram istisna olmaqla facebook və digər sosial şəbəkələr daha çox haker hücumlarına məruz qaldığı üçün istifadə etmirəm. Bir haker digərinin hesabını qırırsa, bu, hesabı qırılan hakerin zəifliyi hesab olunur. Sözügedən şəbəkələr isə mənə aid olmadığı üçün işimi nə qədər yaxşı bilsəm də, ehtiyatı əldən verməyi düşünmürəm.

***- Hər hansı məqsədlə pul müqabilində sənə müraciət edən insanlar olur?***

- Xüsusilə məşhur müğənnilər, tanınmış şəxslər mənə müraciət edir, pul qarşılığında Youtube-dan, xəbər saytlarından hər hansı videonun və ya xəbərin silinməsini istəyirlər.

***- Azərbaycana qayıtmağı düşünürsən?***

- Ora mənim vətənimdir, damarlarımda azərbaycanlı qanı axır. Ona görə də qayıdacağam, amma hakerliyi buraxandan sonra, yaxın zamanda deyil. Hazırda Azərbaycanda olmasam da, elə bir sistem yaratmışam ki, Azərbaycanı virtual olaraq gəzə bilir, küçələrinə, parklarına baxa bilirəm.

***- Robin Hood da varlılardan oğurlayıb kasıblara paylayırdı. Səni rəqəmsal dünyanın yeni Robin Hoodu saymaq olar?***

- Deməzdim, çünki mənə bacarığı Allah verib, mən isə ondan yaxşı məqsədlə istifadə etmişəm. Təbii ki, etdiyim xeyriyyə işləri haqqında sizə danışmaq istəməzdim, çünki Allah yolunda etmişəm. Mən sadəcə, hesab oğrusuyam, siz isə söz - Təbrik edirəm, siz məndən bu sözləri oğurlaya bildiniz!

---

# Hacı İbrahim qardaşından imtina elədi: "O adam barəsində..."

**Prezident Administrasiyasının (PA) rəhbəri Ramiz Mehdiyev mətbuata son açıqlamasında Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov haqqında narazılığını ifadə edib, onun sərəncamına verilən vəsaitlərin ünvanına çatmadığını və bütün bunlardan ölkə prezidentinin xəbərdar olduğunu vurğulayıb.**



Son illər mətbuat Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov, onun qardaşları - "Avesta" konserninin prezidenti Hacı İbrahim İbrahimov (Nehrəmli) və iş adamı Sahil İbrahimovun adını müxtəlif qaranlıq məsələlərdə hallandırır. Hətta iddialara görə, İbrahimovların mövqeləri ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyinin ifşasından sonra sarsılıb. O da qeyd edilir ki, iqtidarda dayaqlarını və nüfuzunu itirən qardaşlar haqqında ölkə rəhbərliyinə xoş olmayan məlumatlar çatdırılıb.

Xüsusilə Hacı İbrahim Nehrəmlinin "Beynəlxalq bank işi"nə görə bir neçə dəfə istintaq tərəfindən dindirilməsi və kredit oyunlarında iştirakının üzə çıxması, sahibkar qardaşı Sahil İbrahimovun tikinti şirkətində dələduzluq hallarının ifşa edilməsi və ən əsası, qardaşlardan dövlət vəzifəsi daşıyan Nazim İbrahimovun rəhbəri olduğu komitədə "yuyulan" pulların araşdırılması bütövlükdə bu "ailə biznesi"nin sonunu gətirib.

Amma qardaşlar arasında qohumluq həddində isti münasbətlərin olmadığı heç kimə sirr deyil. Bəzi məlumatlara görə, Dövlət Komitəsindəki işini itirən Nazim İbrahimov Hacı İbrahim Nehrəmli ilə birgə çalışmağa, biznes fəaliyyətinə keçməyə hazırlaşır.

Məsələni dəqiqləşdirmək üçün Modern.az Hacı İbrahim Nehrəmlinin mövqeyini öyrənməyə çalışıb. Hacı İbrahim açıqlamasında işlərilə bağlı hər hansı yenilik olmadığını, hələ də gözləmə mövqeyində qaldığını bildirib: "Hələ ki, işlər istədiyimiz səviyyədə getmir".

Nazim İbrahimovla birgə fəaliyyət göstərməsinə gəlincə, İ.Nehrəmlinin cavabı birmənalı olub: "O ki qaldı, adını çəkdiyiniz şəxsə, xahiş edirəm mənə onun barəsində sual verməyin. O gün də bir jurnalist zəng vurdu, sonra baxdım mənim adımdan dastan boyda açıqlama yazıblar. Halbuki, o sözlər mənə aid deyil. Məndən özümə aid nə istəyirsiz soruşun, onun haqqında isə heç nə".

YENİ MÜSAVAT
N 93 (6982) 30 aprel 2018

# Türkiyədə yaşayan azərbaycanlı politoloqdan mühüm açıqlamalar - "Akşenerin qələbə şansı..."

## Toğrul İsmayıl: "Əlbəttə ki, sürpriz ola bilər, bu seçkidir..."





**Türkiyədə iyunun 24-də keçiriləcək növbədənkənar prezident və parlament seçkiləri ilə bağlı çox ciddi proseslər start götürüb. Artıq sabiq baş nazir Əhməd Davudoğlu namizəd olmayacağını bəyan edərək, hazırkı prezident Rəcəb Tayyib Ərdoğanı dəstəkləyəcəyini bəyan edib. Sabiq prezident Abdulla Gül də prezidentliyə namizəd olmayacağını açıqlayıb, lakin o, Ərdoğana dəstək verib-verməyəcəyi barədə qəti fikir bildirməyib.**

Bütün bunlar seçki prosesini daha da qızışdırıb. CHP və İyi Partiya kimi əsas müxalif qurumların seçkilərə vahid namizədlə gedib-getməyəcəklərini məlum deyil. Əksəriyyət CHP lideri Kamal Kılıçdaroğlu və İyi Partiya başqanı Meral Akşenerin ayrı-ayrılıqda seçkilərə qatılacağını düşünür. Lakin bununla yanaşı, 15 CHP-li deputatın İyi Partiyaya keçməklə bu qurumun seçkilərdə iştirakını təmin etməsi vahid namizəd məsələsinin hələ də gündəmdə qaldığını deməyə əsas verir.

Digər aparıcı müxalif qurum olan MHP-nin isə seçki mövqeyi bəllidir. Milliyyətçi partiya AKP ilə birlikdə "Cümhur ittifaqı" yaradaraq seçkilərə gedir və Ərdoğanı dəstəkləyir.

Seçki prosesinin fonunda əsas müzakirələrdən biri də seçki kampaniyası dövründə Türkiyə daxilində qarşıdurmaların yarana biləcəyi, gərginliyin olacağı ilə bağlıdır. Qardaş ölkənin Qərblə davam edən gərgin münasibətlərinin fonunda daxilində ciddi təhlükələr yaşaya biləcəyi barədə narahatlıqlar səslənməkdədir. Qərbin hər vəchlə seçki prosesinə təsir etmək üçün hərəkətdə olacağı deyilir.

Türkiyədə yaşayan azərbaycanlı politoloq Tofiq İsmayıl "Yeni Müsavat"a açıqlamasında Türkiyədə gedən proseslərin heç birinin sürpriz olmadığını qeyd etdi: "Seçkilərə gedilməmişdən öncə də Abdulla Gülün mövqeyi bəlli idi. Onun mövqeyi hər zaman olduğu kimi, bu seçkilərdə də özünü göstərdi. Əhməd Davudoğlu və komandasının bu proseslərdə yeri bəllidir. Bu iki şəxsiyyət haqqında dəyişikliklərin olacağını düşünmürəm. Seçkilərin bu şəkildə həyəcanlı getməsi Türkiyə cəmiyyəti üçün normaldır. Ölkədə seçkilər hər zaman, xüsusilə, son illərdə daha aktiv şəkildə keçirilir. Tərəflər seçkilərə çox ciddi şəkildə hazırlaşır. Cəmiyyət də çox aktivdir. Açığı, bir mütəxəssis olaraq, seçkilərin sonuna qədər Türkiyədə hər hansı bir qarşıdurma, qarışıqlıq və digər məsələlər gözləmirəm. Amma Qərbin də öz maraqlarının olduğunu unutmayaq. Bu maraqlarının fonunda müəyyən addımlar atmağa çalışacaq. Amma seçkilərə açıq müdaxilə mümkün deyil. Türkiyə çox güclü dövlətdir. Kənardan müdaxilələrlə nəyisə dəyişdirmək çox çətin bir məsələdir. Burada iqtisadi təsir söz konusu ola bilər. Bəzi terror hadisələrinin olma ehtimallarına qarşı Türkiyənin hazırlıqlı olduğunu düşünürəm. 15 iyun hadisələri onu göstərdi ki, türk cəmiyyəti kənardan müdaxiləri sevmir, öz taleyini özünün həll etməsini sevir. Bu baxımdan kənar basqılar bir çox hallarda effektli olmur, əks effekt verir".



Politoloqa görə, görünən gərginlik Türkiyədə hər zaman yaşanan atmosferdir: "Burada yeni bir şey yoxdur. Abdulla Gül hər zaman siyasətdə aktiv olmadığını göstərib. Mövqeyini, hər hansı bir məsələyə narazılığını ifadə edib, lakin açıq şəkildə onun müxalifət olacağını düşünmürəm. Onun son açıqlaması da bunun bir daha göstəricisidir. Gülün tənqidi mövqeyi bəllidir, əvvəl elədiyini təkrar etdi. Amma açıq şəkildə qarşıdurmaya gedəcək mövqe sərgiləyəcəyi ehtimalları olduqca azdır".

Politoloq iqtidar və müxalifətin seçkilərdəki şansları barədə də danışdı: "Bu barədə hələ ki danışmaq çox tezdir. Çünki proseslər hələ başdadır. Tərəflər hazırda bütün kartlarını açmayıblar. Ona görə bir söz demək çox çətindir. İqtidarın bir qədər vəziyyəti asandır. Çünki əvvəlcədən MHP ilə "Cümhur ittifaqı" qurub, nə etdiklərini bilirlər, namizədləri də bəllidir. Amma müxalifətə gəldikdə, burada tamam fərqli situasiya yaşanır. Tam şəkildə namizədin kim olduğu da bilinmir. Ona görə bir çox şeyləri söyləmək olduqca tezdir. Bunları tərəflər öz mövqelərini tam şəkildə bəyan edəndən sonra görəcəyik. Müxalifətin namizəd məsələsi ilə bağlı bəzi ehtimallarım var, yalnız onları deyə bilərəm. Müxalifət partiyası geniş koalisiya qura bilməsə, ayrı-ayrı namizədlərlə seçkilərə gedəcəklər və ikinci tur olarsa, vahid namizəd ətrafında birləşəcəkləri ehtimalları yüksəkdir. Amma vahid namizəd üzərində anlaşa da bilərlər. O zaman geniş müxalifət koalisiyasını ilk turda görə bilərik. Lakin indiki şəraitdə bu çətindir. Çünki tərəflərin hamısı yola gətirilməlidir. Türkiyədə müxalifət-iqtidar anlayışı artıq dəyişib. Çünki dünənə qədər MHP müxalifət idi, amma bu gün AKP ilə müttəfiqdir. Bu da onu göstərir ki, dəngələr çox dəyişkən və həssasdır. Siyasi maraqlar və gedişlər çox rəngarəngdir. Daha dəyişik prosesləri bundan sonra da gözləyə bilərik. Bizlər optimistik, yeni falçı-filan deyilik. Türkiyədə hazırda bir çox şərtlər var ki, bunu hər kəs bilir. Müxalifətin namizədi kim olacaq, onu cəmiyyətdə yeri necədir, belə bir isim varmı kimi suallar ehtimallar üzərində qurulub. Hazırkı müxalifət liderlərinin Ərdoğanı məğlub etmələri çətin görünür. Çünki Ərdoğan digər siyasi liderlərə fərq ata bilir - Baxçəli də başda olmaqla. İrəli kimin çıxarılacağını indidən söyləmək olduqca çətindir. Müxalifətin hansı namizədi önə çəkəcəyi, onun kimliyi məlum olandan sonra müəyyən proqnozlar vermək mümkündür. İndi heç bir proqnoz vermək olmur. İndiki siyasi liderlərin təkbaşına Ərdoğanı məğlub etmək gücündə olmadıqları sosioloji sorğularda da özünü göstərir. Hazırkı vəziyyətdə "Cümhur ittifaqı"nın şansı daha çoxdur".

T.İsmayıl M.Akşener fonunda qadın faktorunun proseslərdə mühüm rol oynadığını vurğuladı: "Akşener siyasətə böyük gözləntilərlə gəldi. Bəzilərinin ümidləri çox yüksək idi, qadın faktoru burada, şübhəsiz ki, öz təsirini göstərə bilər. Amma təkbaşına Akşenerin Ərdoğanı məğlub etmə imkanları proqnozlarda özünü göstərmir. Sürpriz ola bilərmi, əlbəttə, ola bilər. Bu, seçkidir, nəticələrdən hər şey gözlənilir. Türk milləti çox həssasdır. Seçkilərə 50 gündən artıq qalır. Burada hər şey dəyişkəndir. Seçkilərin bu şəkildə həyəcanlı, maraqlı keçməsinin səbəblərindən biri də odur ki, bütün tərəflərin burada maraqlarının olmasıdır. Kimin qazanıb, yaxud məğlub olacağını demək çox tezdir".

Politoloq kürdlərin partiyası olan HDP-nin mövqeyinin seçkinin nəticələrinə təsir edib-etməyəcəyi barədə də danışdı: "Kılıçdaroğlunun tək namizəd olma ehtimalları çox azdır. Olarsa belə, qazanma şansları da çox azdır. Burada siyasətçilər bizdən daha çox bilgiyə sahibdirlər, əllərində məlumatlar var. Buna uyğun şəkildə hərəkət edəcəklər. HDP-nin mövqeyinə gəlincə, zənn etmirəm ki, hər hansı bir namizədə səs versinlər. Çünki onlar öz namizədlərini çıxarmağa çalışacaqlar. Səs versələr belə, bu, gizli anlaşma şəraitində ola bilər. Bu da dediyim kimi, siyasi bazarlıqlardan asılıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## İrəvandan sonra Tiflis qaynayır: Qafqazda nə baş verir?

**"Bütövlükdə Gürcüstanda yeni bir rəngli inqilab baş verə bilər". Bu sözləri Axar.az-a açıqlamasında politoloq Qabil Hüseynli gürcü milyarder Bidzina İvanişvilinin siyasətə qayıtmasının pərdəarxası məqamlarına aydınlıq gətirərkən deyib. O bildirib ki, bir neçə gündür ki, İvanişvilinin siyasətə qayıdacağı elan olunub.**

"Bu, Gürcü Arzusu Partiyası koalisiyasının başçısı İvanişvilinin qorxusundan irəli gəlir. Heç kimə sirr deyil ki, İvanişvili kölgədə fəaliyyət göstərən boz kardinaldır. Ölkənin idarəetmə işləri bütünlüklə onun göstərişi ilə həll olunur. Nə qədər demokratiyadan və demokratik dəyərlərdən danışsalar da, praktik olaraq, ölkədəki bankların və digər sərvətlərin bir çoxunu İvanişvili mənimsəyib. Qərb İvanişvilini Rusiyanın adamı kimi tanıyır və onu qəbul etmir. İndi İvanişvilinin əsas qorxusu ondan ibarətdir ki, Ermənistandan sonra Gürcüstanda da ara qarışar və onlar belə bir hadisə baş verəcəyi təqdirdə Saakaşvilinin də ölkəyə daxil olmasından ehtiyat edirlər. Doğrudur, Gürcüstan Qərbin bütün tədbirlərinə qatılır, Avropa Birliyinin assosiativ üzvüdür, NATO-nun proqramlarında iştirak edir. Buna baxmayaraq, İvanişvilinin hakimiyyətə gəlməsindən sonra Rusiya ilə münasibətlər yaxşılaşıb, ticarət əlaqələri yenidən fəaliyyətə başlayıb. Bir sözlə, İvanişvili Gürcüstanın qapılarını Rusiyaya açıb", - deyə politoloq qeyd edib.

Onun sözlərinə görə, Gürcüstanda İvanişvili ilə bağlı nələr düşünülür, dəqiq demək olmaz: "Görünür, İvanişvilinin boz kardinal kimi prezidentdən tutmuş, baş nazirə qədər hamını idarə etməsi artıq Qərbi də narahat edir. Bu səbəbdən də Qərb İvanişviliyə qarşı müəyyən mövqe tutmağa başlayıb. Bu mövqe İvanişvilinin tamamilə Gürcüstan siyasi hakimiyyətindən uzaqlaşdırılması ilə də nəticələnə bilər. Amma indi izləri itirmək və Qərbin etimadını qazanmaq üçün İvanişvili faktik siyasətdə iştirak etmək, ən azından öz partiyalar koalisiyasına rəhbərlik etmək niyyətindədir. Buna baxmayaraq, İvanişvilinin Rusiya banklarında böyük həcmdə pulu olmasını, Gürcüstandakı bütün bankların onun əlində cəmləşməsini, ölkənin real, faktiki idarəçisinin İvanişvili olduğunu Qərb çox yaxşı bilir. Buna görə də Qərb Gürcüstandakı prosesləri daha birmənalı və şəffaf etməyin planları üzərində düşünür. Bu sarıdan da İvanişvili ölkədə siyasətə keçib, siyasi proseslərin iştirakçısı kimi görünmək istəyir. Amma hər halda İvanişvili indiyə qədər etdiyi əməllərin izini itirə bilməyəcək".

Qeyd edək ki, Gürcüstanın baş naziri Georgi Kvirikaşvili jurnalistlərə açıqlamasında gürcü milyarder Bidzina İvanişvilinin siyasətə qayıdacağını bildirib. Saakaşvili isə Gürcüstana qayıtmaq niyyətini ortaya qoyub. Hər iki açıqlamanın İrəvan olayları ilə üst-üstə düşməsi diqqəti çəkib.

YENİ MÜSAVAT
N 93 (6982) 30 aprel 2018

# "Ziyarətə getdiyim üçün artıq mənə fala baxdırmaq olmaz"

## Nüşabə Ələsgərli: "Flora Kərimova dedi ki, ya məni, ya da onu sevməlisən"

**"Yeni Müsavat"ın budəfəki müsahibi Əməkdar artist, müğənni Nüşabə Ələsgərli oldu. Müğənni ilə çalışdığı Mədəniyyət və İncəsənət Universitetində, tələbələrinə vokal dərsi keçən zaman görüşüb, söhbətləşdik:**



***- Maşallah, sizi bu dəfə daha yaxşı gördük...***

- Bayaq özüm-özümə deyirdim ki, qocalmışam, arıqlamışam, qırışlarım çoxalıb (gülümsəyir-müəl.), amma yaxınlarım deyir ki, əksinə, gözəlləşmişəm.

***- Bu yaxınlarda elmi dərəcə də aldız. Bu münasibət ilə sizi təbrik edirik.***

- Çox sağ olun. 2016-cı ildə müdafiəm oldu. Bu il isə təsdiqləndi və fəlsəfə üzrə elmlər doktoru oldum.

***- Bəs şou-biznesdə işləriniz necə gedir?***

- Sözün düzü, çox adam deyir ki, "şou-biznesdə deyiləm". Demək olar ki, elə mən də yoxam. Çox zaman maqazin proqramlarına qatılmır, iştirak etmirəm. Çünki artıq universitetə, müəllimliyə daha çox bağlanmışam. Bəlkə də yaş öz işini görüb. Həm daha ciddi musiqiyə üstünlük verməyə çalışıram.

***- Son bir ildə mətbuatda adınız tez-tez qalmaqalla hallanır.***

- Doğru deyirsiz. Hərçənd ki, mən bu cür qalmaqalları sevmirəm. Amma bəzən görürük ki, xəbər saytları dediklərindən elə söz tapıb başlığa qoyurlar ki, adam əsəbləşir. Həmin xəbərlərin də altından xoşagəlməz şərhlər yazılır. Mən emosional adamam, bu cür şeylərə fikir verməyə başlayıram. Ona görə də mənim sağım-solum qoymur ki, sosial şəbəkədən istifadə edim. Özləri idarə edirlər, şərhləri də oxumağa qoymurlar.

***- Toylara gedirsiz?***

- Gedirəm.

***- Bəzi müğənnilər deyir ki, "toylara 20 min manata gedirəm". Doğrudan da, bu qiymətə toy idarə edən müğənnilərimiz varmı və yaxud varsa, çoxdurmu?***

- Əlbəttə ki, o cür müğənnilər də, toylar da var. Lakin istəyirsən ki, el şənliklərinə daha tez-tez gedəsən. Ona görə ayda bir dəfə 15-20 minə getməkdənsə, ayda 4 dəfə 7 minə getmək daha sərfəlidir.

***- Xaricdən dəvətlər alırsızmı? Məsələn, Rusiyadan, Türkiyədən...***

- Bəli. Amma Türkiyədən yox. Bu günə qədər Türkiyədə iki dəfə toyda olmuşam.

***- Niyə, dəvət olmur, yoxsa özünüz getmək istəmirsiz?***

- Yox, Türkiyədə azərbaycanlıların toy məclisləri az-az olur, Rusiyada isə daha çoxdur.

***- Bu günlərdə gənc müğənni Üzeyir Mehdizadənin Türkiyədə necə böyük coşğu ilə qarşılandığını gördük...***

- Sözün düzü, Xalidə xanım, mənim sizə böyük hörmətim var, amma Üzeyir haqda sualı sizdən gözləməzdim.

***- Amma bu bir faktdır ki, Azərbaycanda birmənalı qarşılanmayan Üzeyir kimi müğənnilər Türkiyədə, Rusiyada, Özbəkistanda böyük populyarlıq qazana bilir. Sizcə, səbəb nədir? Artıq insanların musiqi zövqü aşağı səviyyəyə düşüb, yoxsa başqa səbəb var?***

- Həmişədən ziyalı, savadlı az olub, savadsızlar çox olub. Dünya əhalisinin 7-dən biri savadlıdır. Yəni savadsızlar çoxluq təşkil edir axı.

***- Maraqlıdır ki, kütlə son vaxtlarda daha çox o cür müğənnilərin arxasınca gedir.***

- Kütlə əgər onların arxasınca gedirsə, deməli, savadsız kütlədir, zövqləri püxtələşməyib... Sizcə, türklər Üzeyiri dinləyirsə, deməli onların musiqisi etalondur? Mən heç onların musiqisini etalon hesab etmirəm. Onların o qədər bayağı musiqiləri var ki. Şəxsən bizim kafedramızda türk musiqisinə icazə verilmir. Çünki istəyirik ki, imtahanlarda daha çətin musiqilər, o cümlədən Azərbaycan klassik musiqisi, Avropa, dünya bəstəkarlarının əsərləri oxunsun. Amma bir məsələni də qeyd edim ki, "türk sanat musiqisi" çox çətin və çox gözəldir. Mən o musiqini çox sevirəm. Qaldı ki, digər musiqilərinə, bəli, ola bilər ki, əhval-ruhiyyəm yaxşı olar və plyajda, diskotekada, karaokelərdə o musiqiləri də dinləyim, yəni, yeri gələndə. Çünki səhərdən axşamadək ciddi musiqiyə qulaq assaq, adam dəli ola bilər. Beləliklə, ciddi musiqinin öz yeri, bayağı, yüngül, cazın, muğamın da öz yeri var... Hazırda Türkiyədəki konservatoriyalarda bizim müəllimlərimiz çalışır. Çünki bizim musiqi məktəbimiz daha güclüdür. Sadəcə, sərhədlər açıqlıqdan sonra Türkiyə, İran musiqiləri musiqimizə, oxumağımıza, həm də dilimizə, hətta xəbərlərimizə də təsir etməyə başladı. Məsələn, bizim Azərbaycan televiziyamızda heç vaxt bəd xəbər olmazdı. İndi isə bəd, ağlaşma xəbəri verməmək üçün yarışma gedir. Xəbər verilir ki, "Peruda uçqun olub, bir kənd uçqunun altında qalıb". Bəli, çox üzücü, bəd xəbərdir. Amma mən nə edə bilərəm, o insanlara nə köməkliyim dəyər? Əlbəttə ki, heç bir köməkliyim dəymir. Bəs belə olan halda mənim beynimə o informasiyanı niyə yükləyirlər? Mənim qanım qaralır, əhvalım korlanır. Türkiyə kanallarını da sevmirəm. Səhər tezdən "can aldı" kimi başlıqlı və yaxud biabırçı məişət, kriminal, iyrənc xəbərlər yayımlanır. Bütün bunlar mənim nəyimə lazımdır axı? Amma məsələn, Belçikada olduğum zaman iki qatar toqquşdu, xeyli insan yaralandı və yaxud öldü. Bu haqda bizə məlumat çatdı, lakin bir xəbərlərində belə bildirmədilər ki, bu cür hadisə baş verib. Yəni, əgər qatar toqquşubsa, hadisə araşdırılacaq, təqsirkarlar cəzalandırılacaq və sairə. İndi bu xəbəri xalqa verməklə nə qazanacaqdılar ki? Avropada səhər tezdən xəbərləri açanda yalnız hava proqnozu, iqtisadi məlumatlar, yaxşı xəbərlər verirlər. Yoxsa bizdə ki, "kimsə öldü", "kimsə yandı", "birinci sinif şagirdini zorladılar" və sairə. Neynirəm mən bu xəbərləri, istəmirəm. Yaşlılar bundan xəstəlik tapır, şəkərə tutulur, təzyiqi qalxır. Seriallara, ağlamalı verilişlərə baxırlar, bir də görürsən ki, artıq beyinləri xarab olub, dərman atırlar. Bütün bunlar kimə lazımdır? Ona görə də bəzən ictimaiyyətdə görürük ki, insanlar çox aqressivləşib. Bunları da hamısını həmin pis xəbərlər edir. Özümüz də bilmədən bizi şüuraltı zəhərləyirlər. Qoy məişət problemləri ilə aidiyyəti orqanlar, idarələr məşğul olsun. Ona görə də mən yalnız dövlət və Mədəniyyət kanalımıza baxıram. Zeynəb Xanlarova həmişə bir mahnı oxuyurdu: "Şad xəbərlər gəzdirən dil nə gözəldir, insanı qocaltmayan il nə gözəldir... " (zümzümə edir).

## "Özümüz də bilmədən bizi şüuraltı zəhərləyirlər"

***- İndiki tələbələrin, gənclərin təhsil səviyyəsi necədir?***

- Əgər bizim universitetin tələbələrindən söhbət gedirsə, şəxsən məni qane edir. Çünki bizim onlardan tələbimiz gündən-günə çoxalır, daha yaxşılığa doğru gedirik.

***- Bəs gənclər daha çox hansı üsluba maraq göstərir?***

- Gənclərin marağı fərqlidir. Bəziləri cazı çox sevir. Lakin caz sevənlərin sayı nədənsə azdır. Ən çox isə pop üslubunda olan xarici musiqiyə maraq var. Tələbə də var ki, rus estradasını sevir.

***- Bəs son vaxtlarda kütlənin marağı hansı mahnılaradır?***

- Qarışıqdır.

***- Siz də kütlənin zövqünə uyğun ifalar edirsiz?***

- Yer var ki, kütlənin istədiyi, yer də var ki, öz istədiklərimi oxuyuram və çox yaxşı da qarşılanır. Olur ki, kimsə ciddi deyil, yüngül mahnı dinləmək istəyir. Qoy olsun, hər kəsin bir zövqü var, istəmir Elza İbrahimovanı, istəyir Elza Seyidcahanın mahnısını. Kimsə kimisə dinləyirsə, onu qınamaq olmaz. Bu asılıdır insanın aldığı təhsildən, ətrafından, gördüyü işdən və sairə.

***- Bəs siz özünüz indi hansı sənətkarları dinləyirsiz?***

- Çoxdur. Bu gün Flora Kərimovanın, İlhamə Quliyevanın, Yalçın Rzazadənin mahnılarını sevə-sevə dinləyirəm.

***- Flora xanımın adını çəkdiz. Yəqin ki, məlumatınız var, yenicə Əməkdar artist adını almış Röya Ayxan xalq artistimiz, korifey sənətkarımız olan Flora xanımı çox ağır şəkildə təhqir etdi. Ümumiyyətlə, korifey sənətkarın gənc müğənni tərəfindən bu cür aşağılanaraq təhqir olunmasını necə dəyərləndirirsiz?***

- Ümumiyyətlə, bütün mənalarda pisdir. Bu məsələni mən kənardan izləyirəm, lakin onların münasibətlərinə, münaqişələrinə reaksiya bildirmək istəmirəm... Bir dəfə Flora xanıma dedim ki, "niyə İlhamə xanımla barışmırsız, mən ikinizi də çox sevirəm". Mənə dedi ki, "sən düz etmirsən, ya onu, ya da məni sevməlisən". Mən dinləyici kimi hər iki sənətkarı dinləməyi çox sevirəm. Bu məsələdə də indi mən necə qarışa bilərəm? Amma bir daha qeyd edirəm, təhqir pisdir. Xüsusən də özündən yaşda, başda, sənətdə böyüyə sözünü başqa cür demək olardı. Şəxsən məndə də olur ki, öz emosiyalarıma qatılıb, təhqirə keçə bilirəm. Amma hesab edirəm ki, bu pis hərəkətdir. Bu cür davranmaq olmaz.

***- Sənətçilərin əksəriyyətinin fala inandığını, falçıya getdiyinin şahidi oluruq. Bəs siz necə, fala inanırsız?***

- (gülümsəyir) Belə deyim var, "fala inanma, faldan da qalma". İndi yox, amma 3-4 ilə qədər haradasa inanmışam. Doğrudur, arada falçılardan sözün düzünü deyən də olub. Amma indi mənə olmaz. Bu yaxınlarda Məkkəyə ziyarətə getdim. Ziyarətdən sonra bu mənə qətiyyən olmaz.

***- Bu günlərdə yenidən "şəhərli-kəndli" qovğası gündəmə gəldi. Özünüz bu məsələ ilə qarşılaşmısız?***

- Bəli, mən hələ uşaq ikən Şəkidən Bakıya gəlirdik. Heç yadımdan çıxmaz, babamla idim. Ayaqqabım da palçıqlı idi. Avtobusda bir qadın ikrahla dedi ki, "bu nədir, palçıqla avtobusa niyə minirsiz?" Neyləyək ki, rayonda, kənddə palçıq olur. Amma indi düşünürəm ki, o vaxt ayaqqıbımda əgər palçıq var idisə, gərək onu yuyub, sonra uşağa geyindirib, avtobusa mindirmək lazım idi. Baba da müəllim olduğu üçün heç bir cavab vermədi. Yəni bu halda qadının da haqqı var. Söhbət kəndlidən, yaxud şəhərlidən getmir, söhbət səliqə-səhmandan, özünə baxmaqdan, təmizlikdən, gigiyenik qaydalara əməl etməkdən gedir. Bilirsiz ki, şəhərli də avtobusun oturacağını cırıb, dağıda bilir, kəndli də. Burada söhbət ümumi qaydadan gedir. Əgər ayaqqabın palçıqlıdırsa, çalış onu təmizlə. Kimsə bunu etmirsə, kəndin, yaxud şəhərin günahı yoxdur. Elə şəhərli də görmüşük ki, gözünü şəhərdə açıb, böyüyüb, amma tumu çırtlayıb maşınının pəncərəsindən atır.

***- Yəni bu məsələ ailə, şəxsi tərbiyədən irəli gəlir...***

- Bəli. Bu məsələ ailədə, məktəbdə, hər yerdə deməlidir. Sonra da ki, Bakı əhalisinin əksəriyyəti rayonda doğulan insanlardır. Yəni əksəriyyəti əslən rayonlulardır..."

Müsahibəmizin sonunda Əməkdar artist Nüşabə Ələsgərli əməkdaşımız Xalidə Gərayın müşayiəti ilə ekspromt ifa da edib. Maraqlı ifanı musavat.com saytından izləyə bilərsiniz.

❑ Xalidə GƏRAY
Elçin ƏKBƏROV
Musavat.com

YENİ MÜSAVAT
N 93 (6982) 30 aprel 2018

# “Koroğlu” MMC öz işçilərini necə “kor” qoyur

**Bakı Ağır Cinayətlər Məhkəməsində “Koroğlu” MMC-nin işçisi Rauf Əliyevin cinayət işi üzrə məhkəmə prosesi sona çatmaq üzrədir. Cinayət işinə hakim Mahmud Ağalarovun sədrliyi ilə baxılır. Rauf Əliyev şirkətin 120 min manata yaxın pulunu mənimsəməkdə ittiham olunur.**

## “Mağazalardan, bazar-dükanlardan yığılan yararsız şirniyyat zibilliyə atılmır, şirkət daxilindəki xüsusi anbarda yenidən qablaşdırılaraq, təzə mal adı ilə yenidən piştaxtalara qaytarılır...”




Redaksiyamıza müraciət edən Rauf Əliyevin nümayəndəsi Samir Zeynalov bildirib ki, müvəkkili ətrafında baş verənlər şirkət daxilində yeyintilərin olmasını üzə çıxarandan sonra cərəyan etməyə başlayıb.

R.Əliyev 5 il əvvəl - 2013ncü ildə “Koroğlu” MMC-nin direktoru Tahir Əliyevin idarəetmə sisteminə etiraz olaraq şirkətdə tutduğu yüksək vəzifədən imtina edərək ayrılıb. Bundan sonra Tahir Əliyev dəfələrlə onu şirkətə qaytarmaq istəyib. R.Əliyev rəsmi olaraq əmək kitabçasına qeyd olunmaqla 01.02.2013-cü il tarixdə işdən ayrılıb. Buna baxmayaraq o gündən sonra yenə də onun adına şirkətdən qənnadı məmulatlarının müstəqil istiqamətdə çıxışı həyata keçirilib. Şirkətə yenidən qayıtdıqdan sonra məsələni aydınlaşdırıb, buna etirazını bildirib. Məlum olub ki, işdən uzaqlaşdığı müddət ərzində adına qeyri-qanuni olaraq 134 min 471 manat həddində mal buraxılıb. Həmin vəsaitin 25 min manatı naməlum formada mənimsənilib.

R.Əliyev apardığı araşdırma zamanı müəyyən edib ki, şirkət daxilində 93 min 184 manat 81 qəpik kəsir var. Bu haqda hesabat hazırlayıb Tahir Əliyevə təqdim edib. Elə bundan sonra da Rauf Əliyevin qara günləri başlayıb. Həmin kəsiri dolayısı ilə elə onun özünün “ayağına” yazıblar.

Rauf Əliyevin səlahiyyətli nümayəndəsi Samir Zeynalov növbəti dəfə “Koroğlu” MMC-də baş verən cinayətlər haqda “Yeni Müsavat” danışıb. Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri Mahmud Nəbiyevə müraciət edərək Rauf Əliyevin Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə qeyri-qanuni olaraq təqsirləndirildiyini diqqətə çatdırıb: “YAP üzvü olan Rauf Əliyev 1 ildən çoxdur ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qeyri-qanuni və əsassız olmaqla mühakimə olunur. O, ciddi hüquqi təminatsızlıqla üzləşib, həbs olunmaq təhlükəsi qarşısındadır. Uzun müddətdir reketçilik və qeyri-qanuni fəaliyyət əməlləri ilə nüfuz qazanmış ”Koroğlu" MMC rəhbərliyi bu gün növbəti qurbanı - əməlində cinayət tərkibinin mövcudluğu sübuta yetirilməmiş Rauf Əliyevə qarşı de-yure zərərçəkmiş şəxs statusunda tanınır.

Şirkətin rəhbəri Tahir Əliyevin birbaşa təşəbbüsü ilə Korrupsiyaya Qarşı Baş Mübarizə İdarəsinin İstintaq orqanına təqdim edilən qeyri-hüquqi sənədlər əslində birbaşa olaraq dövlətin vergi siyasətinə vurulan zərərin ümumi məcmusudur. Belə ki, hüquqi baxımdan mötəbər əsasa malik olmamaqla, cinayət prosessual qanunvericiliyi baxımından da fiksal cinayət işləri üzrə rolu bimənalı olaraq istisna edilən bu qeyri-hüquqi sənədlər şirkətin rəsmi satış dövriyyəsi üzrə hüquqi status qazanmayıb. Təqsirsizlik prezumsiyası pozularaq ittiham edilən Rauf Əliyevə qarşı iddia edilən 124 min manat dəyərində olan maliyyə kəsri 2108 ədəd qaimə-fakturaya əsaslanır. Həmin qaimələrin sadəcə 60-da Rauf Əliyevin imzası var. Rauf Əliyev satış dövriyyəsinin ilkin və müdaxilə edilməsi mümkün olan excel əməliyyatlarına dair qeyri-rəsmi sənədlərlə ittiham olunur. Belə bir məqam da diqqət çəkir ki, Rauf Əliyevə təqdim olunması iddia edilən 1 milyon 200 min vəsaitə dair “Koroğlu” MMC-in alqı-satqı münasibətlərində olduğu şirkətlər tərəfindən istintaq subyektlərinə məxaric orderləri təqdim edilmir. Üstəlik həmin şirkətlər tərəfindən Rauf Əliyevin adına çalışdığı müddət ərzində həmin şirkətlərin maliyyə-kargüzarlıq arxivində heç bir sənədin olmadığı da məhkəməyə verilən sorğuya rəsmi cavab kimi təqdim olunur. Rauf Əliyevin hüquqi-müdafiə mexanizminin təmsilçiləri tərəfindən məhkəməyə təqdim edilən və həyata keçirilməsi obyektiv məhkəmə araşdırması, həmçinin qanuni mühakimə adına vacib olan məhkəmə-mühasibatlıq ekspertizası haqda vəsatətlər heç bir əsas olmadan təmin edilmir. Bununla da Rauf Əliyevə qarşı qərəzli dövlət ittihamının əsassızlığı aksioma çevrilir. “Koroğlu” MMC-in fəaliyyəti ilə qırılmaz şəkildə bağlı olan ictimai-sosial gerçəkliklər də mövcuddur. Belə ki, 2013-cü ildə şirkətin iqtisadi mənafeyi naminə Rauf Əliyev tərəfindən şəxsən aşkara çıxan maliyyə kəsiri faktından təqribən 6 ay sonra “Koroğlu” MMC şirkətinin törəmə şirkət olaraq fəaliyyətə başlayan “Nur Retail MMC” şirkətinin direktorluq vəzifəsinə milyonlarla vəsait etibar olunmaqla bu gün qərəzli və qondarma şəkildə ittiham edilən Rauf Əliyev getirilib. Təkcə qeyri-hüquqi kontekstdən yanaşmaya dair bu fakt kifayətdir ki, nümayəndəsi olduğum şəxsə qarşı ittiham iflasa uğramış olsun və o, əməlində cinayət tərkibi ümumi aspektlər baxımından sübuta yetirilmədiyi üçün bəraət alsın".

Samir Zeynalov “Koroğlu” MMC-də hər gün vergidən yayınma hallarının baş verdiyini də açıqlayıb. Dövlət büdcəsindən milyonlarla manatın yayındırılması ehtimallarının araşdırılması üçün Vergilər Nazirliyinin rəhbərliyinə müraciət edib. Bundan başqa diqqətə çatdırıb ki, “Koroğlu” MMC ticarəti ilə məşğul olduğu malların tarixlərini saxtalaşdırmaqla məşğuldur: “Mağazalardan, bazar-dükanlardan yığışdırılan istifadə müddəti bitmiş şirniyyat və şokoladlar zibilliyə atılmır. Şirkət daxilindəki xüsusi anbarda yenidən qablaşdırılaraq, təzə mal adı ilə yenidən piştaxtalara qaytarılır. Hüquq mühafizə orqanlarını bu cinayətləri araşdırmağa çağırırıq”.

Qarşı tərəfi də dinləməyə hazırıq.

❑ **E.HÜSEYNOV, “Yeni Müsavat”**

# Tanımadığı şəxsi qonaqlıq vermədiyi üçün bıçaqlıyan həxsin hekayəti

## İki uşaq atası necə cinayətkar oldu?..



**İçki içdiyi məclisdə tanımadığı şəxsdən ona qonaqlıq verməsini istəyən Seyidnəsir Əhmədov yenidən hakim qarşısına çıxarılıb. O, aldığı cəzadan narazı qalıb və azadlığa buraxılmasını istəyib.**

Musavat.com xəbər verir ki, 1978-ci il təvəllüdlü Seyidnəsir Əhmədov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə təqsirli bilinib və 4 il müddətinə azadlıqdan məhrum edilib.

S.Əhmədov məhkum edilib, ona görə ki, o, 13 yanvar 2017-ci ildə saat 20.00 radələrində sərxoş vəziyyətdə Sumqayıt şəhərindəki 19-cu məhəllədə yerləşən avtomobil təmiri sexinə gəlib, orada digər şəxslərlə yemək yeyib, spirtli içki qəbul etdikdən sonra Fərhad Ağayevi bıçaqlayıb. Buna səbəb isə S.Əhmədovun Fərhaddan qonaqlıq istəməsidir. Belə ki, S.Əhmədov yeyib, içdikdən sonra əvvəllər tanımadığı Fərhaddan onlara qonaqlıq verməsini istəyib. Fərhad isə bu təklifə kobud və söyüşlə cavab verib.

Bundan sonra Fərhad Ağayev sexdən çıxarkən S.Əhmədov onun arxasınca gedib. Tərəflər arasındakı növbəti mübahisə isə söyülən söyüşə görə olub. Bu zaman Fərhad yenidən S.Əhmədovun ünvanına söyüş söyüb. S.Əhmədov da qisas almaq məqsədi ilə üzərində gəzdirdiyi məişət təyinatlı olmaqla soyuq silah hesab edilməyən turist bıçağı ilə Fərhad Ağayevin qarın və sağ qol nahiyəsinə iki dəfə zərbə vurub.

Cinayət işi materiallarında göstərilir ki, zərərçəkmiş şəxs Fərhad Ağayev təqsirləndirilən şəxs Seyidnəsir Əhmədovu əvvəllər tanımayıb. F.Ağayev restoranda ofisiant işləyir. O, iş üçün Xızı rayonunun Fındağan kəndindən Sumqayıta gəlib tanışı Habil ilə görüşüb yemək yeyib, spirtli içki qəbul ediblər. Daha sonra Habilin işlədiyi sexə gediblər. Həmin vaxt sexə Habilin tanışı Seyidnəsir Əhmədov da gəlib. Orada da içki içiblər. Söhbət əsnasında Seyidnəsir Fərhaddan qonaqlıq verməsini istəyib. Mübahisə də bu zaman başlayıb.

Cinayət əməlini törədən S.Əhmədov orta təhsilli, ailəlidir. Himayəsində iki azyaşlı uşağı var, əvvəllər isə məhkum edilməyib.

Aldığı cəzadan narazı qalan S.Əhmədov apelyasiya şikayəti verərək cəzasının yüngülləşdirilməsini istəyib. Şikayətə Sumqayıt Apelyasiya Məhkəməsində hakim Hüseyn Nəbiyevin sədrliyi ilə baxılıb.

Təqsirləndirilən şəxsin müdafiəçisi Azər Əzizov apellyasiya şikayətini bununla əsaslandırıb ki, o, hüquqlarını müdafiə etdiyi S.Əhmədov barəsində olan hökmlə razı deyil. Belə ki, birinci instansiya məhkəməsində məhkəmə baxışı zamanı müdafiə tərəfi təqsirləndirilən şəxs tərəfindən törədilmiş cinayət əməlinin tövsifini mübahisələndirməyib.

Müdafiə tərəfi məhkəmənin təqsirləndirilən şəxsə təyin etdiyi cəza ilə razılaşmayaraq ona təyin olunmuş cəzanı ədalətsiz və qeyri-humanist hesab edir. Vəkilin fikrincə, işin hallarına əsasən hazırkı cinayətə səbəb olmuş mübahisə məhz zərərçəkmiş şəxsin qeyri-hüquqi davranışı, təqsirləndirilən şəxsi əsassız olaraq söyərək təhqir etməsi nəticəsində başlayıb. Təqsirləndirilən şəxs isə bu kobudluq və söyüşlərin səbəbini araşdırmaq istədikdə isə zərərçəkmiş yenə də öz kobudluğunu və söyüşlərini davam etdirib və bütün bunlardan sonra S.Əhmədov zərərçəkmişə bıçaqla xəsarət yetirib.

Müdafiəçinin fikrincə, məhkəmə təqsirləndirilən şəxsə cəza təyin edərkən o faktı da nəzərdən qaçırıb ki, S.Əhmədov cinayəti törətdikdən sonra istintaq müddətində azadlıqda olub və bu zaman ərzində məhkəmə tərəfindən ev dustaqlığı üçün qoyulmuş şərtlərə əməl edib, faydalı əməklə məşğul olaraq ailəsini dolandırıb.

Vəkil bildirib ki, S.Əhmədov ailəlidir, himayəsində heç yerdə işləməyən gənc həyat yoldaşı və 2 azyaşlı uşağı var və onların heç kimləri yoxdur. Müdafiəçi S.Əhmədovun ailənin qazanc gətirən yeganə üzvü olduğunu da nəzərə alaraq onun barəsində şərti cəza təyin edilməsini xahiş edib.

Məhkəmə tərəfləri dinlədikdən sonra qərar gəlib ki, apelyasiya şikayəti təmin edilməməli, birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanılmalıdır.

Qeyd edək ki, S.Əhmədovla zərərçəkmiş şəxs arasında barışıq əldə edilib.

❑ **İ.Muradov, Musavat.com**



# Şamaxıda sərxoş gənc göldə boğuldu

**Şamaxı rayon sakini göldə çimərkən batıb. APA-nın yerli bürosunun xəbərinə görə, rayon sakini, 1985-ci il təvəllüdlü Nuriyev Mübariz Məhəmmədəli oğlu Şamaxı ərazisində olan Şirvangölün kənarındakı kafedə dostu ilə yeyib-içdikdən sonra çimmək istəyib.**

Sərxoş olan Mübariz Nuriyev Şirvangöldə çimərkən ehtiyatsızlıq səbəbindən suda boğulub. Hadisə yerinə gələn polis əməkdaşlarının və yaxınlıqdakı insanların köməyi ilə M.Nuriyevin meyiti sudan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. Faktla bağlı Şamaxı Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

Qeyd edək ki, Şirvangöl su anbarı kimi polis əməkdaşları tərəfindən mühafizə edilir.

Yeni MÜSAVAT
N 93 (6982) 30 aprel 2018

**Müxtəlif tarixlərdə dünyanın dəyişik yerlərində yaşanan bəzi qəribə itkinlik hekayələri var ki, hələ də aydınlaşdırılmayıb. Belə olanda da insanın ağlına bir çox fantastik filmlərin səhnələri və ya romanlar gəlir. Təbii ki, bu insanların, məsələn, Fringe serialındakı kimi paralel bir dünyaya keçdiklərini iddia etsək, hər kəs bizim əqli sağlamlığımız haqda çoxlu sayda suallar verər. "Yeni Müsavat" sizə dünyanın ən qəribə itkin düşmə hekayələrini təqdim edir.**

# Dünyanın ən qəribə itkin düşmə hekayələri

## Eyni gündə itib, səs-sorağı çıxmayan insanlar barədə bilinməyənlər

**Maura Murray**

Massachusetts Universiteti tələbəsi, 21 yaşındakı Maura, 9 fevral 2004-cü ildə Nyu Hampshireda bir qəza keçirib. Qəzadan sonra durumunun yaxşı olduğunu görən bir çox şahid vardı. Xəstəxanaya belə getmək istəməmişdi. Ancaq o şahidlər onu axırıncı görən insanlardı. Bir neçə gün sonra nişanlısının telefonuna bir qadının hıçqıraraq ağladığı bir səs yazısı idi. Mauradan bird aha xəbər çıxmadı, aqibəti bilinmir.

**Brandon Svanson**

14 May 2008-ci ildə 19 yaşında Brandon Minnesotaya getməyə çalışarkən qəzaya düşüb. Ardınca atasına zəng edərək, onu götürməsini istədi. Ana və atası qəza yerinə gəldiyi zaman orada deyildi. Telefonla zəng etdikləri zaman Lydn bölgəsinə getməyə çalışdığını dedi və ilginc bir şəkildə söyüş söyməyə başladı və telefonu bağladı. Bir daha özündən nə xəbər alındı, nə də izinə rast gəlindi.

**Louis le Prince**

Louis le Prince, dünya üzərində bir şeyi ilk dəfə filmə çəkilən kişilərdən biridir. Kinematoqrafiyanın atası ayrıca ən qəribə itkin hekayələri ilə tanınır. 16 sentyabr 1890-cı ildə Paris qatarına minən və ən son baqajını kontrol etdiyi zaman görülən le Prince, kompartımanına girdikdən sonra bir daha görünmədi. Qatar Parisə çatanda qatarda yox idi. Kabininin pəncərəsi bərk-bərk qapalı idi, hoppanmaq ehtimalı yox idi. Louis le Princein başına nə gəldiyi, haraitdiyi hələ də bilinmir.

**Maykl Negrete**

İlginc itkin düşmə hekayələrindən biri də 10 dekabr 1999-cu ildə Los Ancelesdə yaşandı. UCLA'da ilk ilini oxuyan Maykl bütün gecə dstları ilə computer oyunu oynayıb və səhər dostları oyandığı zamanda orada oladığı görülüb. Amma açarı, pulqabı, bütün əşyaları və ayaqqabıları da orda idi. Polisin araşdırmasında kampusun bir neçə kilometr qabaqda avtobus dayanacağında itlər Mayklın qoxusunu aldı. Ancaq onu görən heç kimsə olmamışdı, özündən bir daha da xəbər alan olmadı.

**Barbara Bolick**

Arkadaşı Jim Hamaker ilə 18 iyul 2007-ci ildə Bitterroot Dağlarında yürüşə çıxan 55 yaşındakı Barbara Bolik, Ayı Dərəsi adlanan ərazidə mənzərəni izləmək üçün dayanıb. Bir neçə metr arxadan gələn dostu olduğu yerə gəldiyi zaman Barbara orada yox idi, çağırdı, onu tapa bilmədi. Yetkililər bölgədə geniş miqyaslı axtarışa başladı. Bölgənin altı üstünə gətirildi. Barbara Bolickə aid heç bir iz tapılmadı. Vəhşi heyvanların hücumuna məruz qalma ehtimalına dair də bir iz yox idi. Polis onun dostunu da araşdırdı, ancaq ona duyulan şübhəni gücləndirəcək heç bir işarəyə rast gəlinmədi.



**Maykl Bearon**

51 yaşlı Maykl Bearon 23 avqust 2008-ci il ATV vasitəsilə ot biçmək üzrə yola çıxdı. Bunu görən qonşuları idi. Ertəsi gün tarlaya gələn bir dostu yola park edilib və bir səfərə çıxmaq üçün hazırlandığı anlaşılan yük maşınını gördü. Maykla zəng etdikləri zaman daha öncə heç getmədiyi qeyd edilən bir təpədə ATV maşını tapıldı. Bir qəza və ya cinayətə dair heç bir sübuta, dəlilə rast gəlinmədi. Bearonun aqibəti bilinmir.



**April Fabb**

İngiltərə tarixinin ən çox bilinən itkin hekayəsi April Fabba aiddir. Norfolkda Metton kəndində yaşayan 13 yaşındakı April, 8 aprel 1969-cu ildə bir neçə kilometr uzaqlıqda tapılan Mettondakı bacısına baş çəkmək üçün velosipedi ilə evdən çıxandan 6 dəqiqə sonra itdi. Bu, tam olaraq bilinir, çünki yol kənarında yan yatmış haldakı velosipedi tam 6 dəqiqə sonra tapıldı. Qaçırıldığına dair bir iz, eləcə də özü heç tapılmadı. 1978-ci ildə Aprilin başına gələnə bənzər bir durum da Genette Tate adındakı bir qızın başına gələn zaman məşhur uşaq qatili olan Robert Blakin hadisə ilə hər hansı əlaqəsi ola biləcəyindən şübhə edildi. Amma hər hansı əlaqə qurula bilmədi.

**Brian Shaffer**

27 yaşındakı tibb fakültəsi tələbəsi Brian Shaffer 1 aprel 2006-cı ildə getdiyi barda itdi. Qız dostları ilə birgə içib, ardınca bir neçə insanla daha söhbət edib. Barın təhlükəsizlik kamerası görüntüləri araşdırılıb və bardan çıxdığını göstərən heç bir izə rast gəlinməyib. Brianın barın içində itməsinin sirri çözülməyib.

**Jason Jolkovski**

Nebraskada yaşayan 19 yaşındakı Jason Jolkovski 13 iyun 2001-ci ildə işə getmək üçün evdən çıxıb. Dostu yarım saat sonra onu götürmək üçün sözləşdikləri yerə maşını ilə gəldiyi zaman Jason orada yox idi. İstintaqda Jasonu görən heç kimsə çıxmadı, ətrafdakı bütün təhlükəsizlik kameraları araşdırılsa da, onun görüntüsünü rast gəlinmədi. Başına nə gəldiyi hələ bilinmir. 2003-cü ildə ana və atası, itkinlərlə bağlı kampaniya aparan Jason Layihəsinə başladı.

**Nicole Morin**

Torontoda 30 iyul 1985-ci ildə 8 yaşındakı Nikol dostları ilə birlikdə hovuza getmək üçün anası ilə vidalaşaraq evdən çıxıb. 15 dəqiqə sonra dostu zəng etdi və anasından Nikolun niyə gəlmədiyini soruşdu. Toronto tarixindəki ən böyük miqyaslı araşdırma başladı. Eyni binada yaşadıqları bir kişi onu liftdə görmüşdü. Nikolu görən başqa heç kimsə olmamışdı. Axtarışlardan heç bir nəticə çıxmadı. Aradan keçən 30 ildə Nikolun başına nə gəldiyi hələ də bilinmir.

**Belə şeylər Fringedə baş verirdi**

Amerikan fantastik serialı "Fringe"də hər kəsin və hər şeyin bir bənzəri var. Yaşadığımız dünyaya paralel bir digər dünya ilə mübarizə aparılır və dünyalar arasında keçid edənlər olur.

**Onları yadplanetlilər oğurlayıb**

Amma bəzi itkin hekayələri var ki, onların çoxunu yadplanetlilərlə əlaqələndirirlər. ATV bununla bağlı ilginc bir dosye hazırlayıb. Bəli, bəzi insanlar artıq onlarla görüşdüklərini iddia edirlər.

Belə hadisələrdən biri 1945-ci il İngiltərədə baş verib. 15 yaşlı Anna Ceffri adlı qız qulluqçu işlədiyi evin bağçasında huşsuz vəziyyətdə tapılır. Özünə gəldikdən sonra başına gələnləri danışan Annanın edikləri hər kəsi şoka salır. 15 yaşlı qızcığaz bir neçə insanabənzər varlığın onun yanına gəldiyini, daha sonra huşunu itirdiyini bildirib. Bir müddət sonra işıqlı bir otaqda gözünü açan Anna yadplanetlilərin onun bədənini yoxladığını görüb və yenidən huşunu itirib. Gerisini xatırlamayan qızcığaz gözünü bir də evin bağçasında açıb.

Oxşar hadisə 1989-cu ildə Amerika sakini Linda Napolitano-nın da başına gəlib. Tez-tez televiziya verilişlərinə dəvət olunaraq bu haqda məlumat verən Linda başına gələnləri yuxu kimi xatırlayır.

"Pəncərədən baxırdım. Birdən evimizin qarşında bir uçan boşqab dayandı. Məni oğurlayıb həmin uçan boşqaba mindirdilər. Tez-tez huşumu itirib ayılırdım. Yadımda qalan yalnız üzərimdə tibbi müayinələrin aparılması ilə bağlıdır".



Yadplanetlilər tərəfindən qaçırıldığını iddia edən şəxslərdən biri də Avstriya sakini Cozef Vanderkadır. Meşəyə gəzintiyə çıxan Cozef bir anda narıncı rəngli, yumurtaya bənzərə maşınla rastlaşır. Çox gözəl, uzun boylu, sarışın varlıqlar tərəfindən həmin maşına mindirilən Avstriya sakini həmin şəxslərdən dünyanın düzəlməsi üçün yardım belə istədiyini iddia edib. Aldığı cavab isə "biz dünya tarixinin gedişatına qarışmayacayıq" sözləri olub.

"Yol ilə gedərkən diski xatırladan uçan əşya gördüm. İçərisindən isə narinci dəri rəngli, keçəl və pişik gözünə oxaşan gözləri olan bir neçə varlıq çıxdı"...

Yadplanetlilərlə ünsiyyətdə olduğunu iddia edən İtaliya sakini Grodner Pass isə onları məhz bu cür təsvir edib. Söhbət zamanı onlar Grodneyə yerə maqnit sahələrinin köməyiylə gəldiklərini, lakin burda tez qocaldıqları üçün çox qala bilmədiklərini deyiblər.

Böyük Britaniyada yaşayan Samanta Makdonalds adlı qadın da onlarla görüşdüyünü iddia edir. Gecə yatdığı yerdə yadplanetlilər tərəfindən qaçırıldığını deyən Samanta onlarla kontaktda olduğunu və söhbət etdiyini bildirib. Səhər ayıldıqda isə yaşadıqlarının yuxu olduğunu düşünən qadın qollarında olan yara izlərindən sonra gördüklərinin yuxu yox, gerçək olduğunu anlayıb. "Əvvəl qorxdum. Sonra isə onlardan nə istədiklərini soruşdum. Yadplanetlilər isə mənə cavab verərək ailəmi və məni özləri ilə aparmaq istədiklərini bildirdilər".

**İtkin düşən uşaqları kim tapır?**

Facebook şirkəti itkin düşmüş uşaqların axtarışı ilə məşğul olan "National Center for Missing and Exploited Children" təşkilatı ilə 2015-ci ildə saziş imzalayıb. Saziş çərçivəsində şirkət axtarışda olan uşağın itkin düşdüyü ərazilərdə yaşayan və ya işləyən istifadəçilərin hesablarında həmin uşaqlar haqqında bildirişlər (AMBER Alerts) göstərib.

"AMBER Alerts" uşağın fotoşəkilinin, onun əlamətlərinin, hansı vəziyyətdə itkin düşməsi ilə bağlı qısa təsvirin, eləcə də ətraflı məlumat üçün linkin daxil olduğu bildirişdir.

Facebook-da yüz milyonlarla istifadəçinin qeydiyyatdan keçməsini nəzərə alsaq, itkin düşmə haqqında bildirişin göstərilməsi faydalı ola bilər. "AMBER Alerts" əvvəlcə yalnız ABŞ sakinləri üçün nümayiş olunacaq, lakin gələcəkdə proqramın digər regionları da əhatə edəcəyi gözlənilir.

Bundan əvvəl "AMBER Alerts" proqramı Facebook-da işləsə də, ayrıca ümumi səhifə olmayıb. Hazırda isə sosial şəbəkə itkin düşən uşaqlar haqqında bildirişlərin göndərilməsi prosesini avtomatlaşdırıb və bu addımın səmərəliyini artıq yaxın vaxtlarda qiymətləndirmək mümkün olacaq.

Oğurlananlardan fərqli olaraq bəzilərinin çox müəmmalı şəkildə yoxa çıxması ilə bağlı minlərlə məlumat mövcuddur. Belə müəmmalı hadisələr, demək olar ki, dünyanın əksər ölkələrində baş verir. Keçmiş SSRİ-də təkcə ötən əsrin 70-80-ci illərində 85 min nəfər müəmmalı şəkildə yoxa çıxmışdı. Araşdırmalar zamanı insanların yoxa çıxmalarına sirri açılmaz görünən qəribə hadisələrin səbəb olduğu aşkar edilir. Amma o vaxt SSRİ-də bunlarla bağlı susmağa üstünlük verilirdi.

Məsələn, 1973-cü ildə leninqradlı (indiki Sankt-Peterburq) üç tələbə Krımda istirahət edərkən müəmmalı şəkildə yoxa çıxdı. Tələbələr kirayədə qaldıqları evdən çıxaraq yaxınlıqdakı dayanacaqda onları gözləyən qızlarla görüşməli idilər. Amma qızlar nə qədər gözləsələr də, tələbələr gəlib çıxmır. Tələbələri küçədə dayanacağa gedərkən görənlər də tapılır. Amma onların necə yoxa çıxdıqları bu günə kimi sirr olaraq qalır. Digər oxşar hadisə 1965-ci ildə amerikalı texnik Karl Robert Dişlə əlaqədar baş vermişdi. Antarktidadakı elmi tədqiqat stansiyalarından birində işləyən 26 yaşlı Diş mayın 7-də barakdan çıxaraq yaxınlıqdakı digər baraka getmək istəyir. Barakdan çıxmazdan əvvəl, o bu barədə radio ilə dostlarına məlumat verir. Amma Diş bir neçə dəqiqəlik məsafədə olan qonşu baraka gedib çıxa bilmir. Dərhal ABŞ hərbi hava qüvvələri axtarışa cəlb edilir. Lakin bir neçə həftə davam edən axtarış heç bir nəticə vermir.

İnsanların müəmmalı şəkildə yoxa çıxdıqları bir neçə təhlükəli ərazilər var. Onlardan biri ABŞ-ın Kaliforniya ştatındakı meşə massivi hesab edilir. 280 min hektar ərazisi olan bu massivdə dəfələrlə insanlar yoxa çıxıblar. Şahidlərin söylədiklərinə görə, hər 4-5 ildən bir massivdə istirahət edənlərdən kimsə göz qabağındaca yoxa çıxır. Hələlik, alimlər belə hesab edirlər ki, müəmmalı şəkildə yoxa çıxanlar bizə məlum olmayan və ya bizə paralel olan digər zonalara düşürlər. Belə ehtimal edilir ki, hansısa məqamda paralel şəkildə fəaliyyət göstərən zonaya tunel açılır və insanlar bu tunel tərəfindən cəzb edilirlər.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

Son səhifə

N 93 (6982) 30 aprel 2018


# Uşaqları itlər... müalicə edir

Ekvadorda xərçəng xəstəsi olan uşaqların müalicə aldığı xəstəxanaya "könüllü" itlər aparılıb. Türkiyənin "Hürriyet" qəzetinin xəbərinə görə, bu, uşaqların müalicəsi üçün irəliləyiş olub. O günə qədər ağır müalicə şərtləri səbəbindən həyatdan küsmüş, dərman içmək, həkimlərlə danışmaq belə istəməyən uşaqlar inanılmaz dərəcədə seviniblər.

Belə ki, itin gəlişindən sonra uşaqlar yeməklərini yeyib, həkimlərlə danışıblar. Hər çərşənbə xəstəxanaya gələn itlərlə oynayan uşaqların adrenalin səviyyəsi yüksəldiyi üçün kimyəvi üsulla müalicənin kənar təsirləri azalmağa başlayıb. Təsadüfən belə bir dərman tapılıb. Son beş ildir ki, itlər Ekvadordakı xəstəxanaya "ziyarətə" gəldikdən sonra statistiklər artıq uşaqların əvvəllə müqayisədə kimya terapiyasının kənar təsirlərinə qarşı daha dözümlü olduqlarını müşahidə ediblər.



# Polisə siqnal verdiyi üçün işi məhkəməyə düşdü





İngiltərənin Blekpul şəhərində polis onlara siqnal verən bir sürücünü həbs edib. Bu barədə "The Daily Mail" qəzeti xəbər verib. 34 yaşlı Pol Samara işdən sonra evə gedərkən qarşısında hərəkət edən polis maşını onu əsəbiləşdirib. Belə ki, polis maşını tez-tez, qəfil əyləci basaraq dayandığı üçün sürücü də sonunda buna dözməyib və siqnal verib. Bundan sonra polis maşınından bir polis əməkdaşı düşüb və Samaraya hərəkətinin çox yanlış olduğunu deyib. O, eyni zamanda sürücüyə bildirib ki, onlar itmiş bir uşağı axtardıqları üçün tez-tez maşını saxlayırlar. Polis işçisi sürücüyə sonda bunları deyib: "Əgər sizin də gələcəkdə hər hansı probleminiz olsa, bizə müraciət etməyin, çünki bizə maraqlı olmayacaq".

Bu sözə görə tərəflər arasında mübahisə düşüb və Pol Samara da polisə cavab qaytardığı üçün onlar sürücünün qollarını qandallayıb, həbs ediblər. Polis bölməsində onun barmaq izlərini götürüblər, ictimai asayişi pozduğu üçün cəzalandırıblar. Polislər bəyan edib ki, sürücü onları aşağılayıb və təhdid edib. Bu məsələnin araşdırılması yarım il davam edib. Amma Samaranın özünü qanundan kənar aparması ilə bağlı hər hansı fakt tapılmadığı üçün onu cəzalandırmayıblar. İstintaq yekunlaşandan sonra isə Samara bildirib ki, polislərə qarşı hər hansı şikayət verməyi düşünmür. Çünki adi həyatına geri qayıtmaq istəyir.

# Kanadada polislər donuzla "dalaşdılar", əlavə kömək istədilər

Kanadanın İnnisfil şəhərində polislər donuzla "dalaşıb", onun öhdəsindən gələ bilməyiblər və buna görə də əlavə kömək istəyiblər. Bu barədə CTV News xəbər verib. Polislər yolda özbaşına gəzən donuz görüblər və onu qovmağa qərar veriblər. Serjant Todd Ferryenin sözlərinə görə, bu, qaçılmaz olub. Çünki 90 kilo çəkisi olan donuzla toqquşmaq və sürücülərin onu ötməyə cəhd etməsi faciəvi sonluqla bitə bilərdi. Daha bir polis işçisi Cerri Kreyn isə deyib ki, ümumiyyətlə, donuzun gücünü öncədən düzgün hesablamayıb. Donuzu polis maşınına dartmağa cəhd göstərmək uğursuzluqla nəticələnib. Kreyn donuzu daşımaq prosesi zamanı ciddi uğursuzluqla üzləşib, hər tərəfi palçığa batıb. Zabit məcburiyyət qarşısında qalaraq, əlavə dəstək istəyib.

Güclərin birləşdirilməsi sayəsində polislər donuza üstün gəliblər, onu heyvanların daşınması üçün nəzərdə tutulan treylerə qoyub, sahibinə qaytarıblar. Məlum olub ki, donuz yerli sakinlərdən birinə məxsusdur və onun evinin arxa bağçasından qaçıb. Ev sahiblərinin başı təmirə qarışdığı üçün donuzun qaçmasından gec xəbər tutublar.



# Çox duzlu yemək və şokolad mədə xərçəngi yarada bilər



Çox şokolad yemək mədə xərçəngi riskini artırır. Türkiyə mətbuatının yazdığına görə, həzm sistemi xəstəliklərini araşdıran mütəxəssislər çox şokolad və duzun mədə xərçəngi riskini artırdığını ortaya çıxarıb.

Mütəxəssislər dünyada mədə xərçənginin ağciyər xərçəngindən sonra ikinci yerdə olduğunu bildirib. Xərçəng xəstəliyindən əziyyət çəkən hər 10 nəfərdən biri mədə xərçəngi xəstəsidir. Ancaq bu rəqəm ayrı - ayrı ölkələrə görə dəyişir. Məsələn, Yaponiya və Latın Amerikasında sözügedən xəstəliyə daha çox rast gəlinir.

Həkimlər bu xəstəliyin yaranmasında qidalanmanın və həyat tərzinin önəmli rol oynadığını bildirir. Şokolad və duz da bu qidalar sırasındadır.





**QOÇ** - Ümumi sıxıntılarınız qlobal planlarınızın gerçəkləşməsinə mane olur. Yaxşı şeylər düşünün. Çünki insan fikri gələcəyi formalaşdırır. Pula görə kiminləsə düşmənçilik yaratmayın.

**BUĞA** - İşinizlə bağlı xeyli yeniliklərin şahidi olacaqsınız. Ürəyinizcə olan təkliflər alacağınıza da şübhə etməyin. Axşama doğru isə müəyyən təxribatlarla baş-başa qalma ehtimalınız var.

**ƏKİZLƏR** - Olduqca əlverişli gündür. Yeni və perspektivli sövdələşmələrdə iştirakınızdan tutmuş maliyyə məsələlərinə qədər ulduzlar yardımçınız olacaq. Ona görə də boş oturmamalısınız.

**XƏRÇƏNG** - Saat 15-ə qədər hansısa uğurlu cəhdlərə nail olacağınızı düşünməyin. Göstərilən müddətdə yalnız istirahətə fikir verin. Yalan vədlər vermək, əsassız danışmaq zərərinizədir.

**ŞİR** - Sevgi münasibətlərində mövcud olan müəmma və anlaşılmazlıqları yoluna qoymaq üçün şanslı vaxtdır. Bu fürsəti fövtə verməyin. Amma işlə bağlı riskli sövdələşmələrdən uzaq olun.

**QIZ** - Fəaliyyət sahəsində uğurlara yaxınlaşdığınızı bəyan edən Göy qübbəsi aktivliyinizi artırmağı məsləhət görür. Ailə-sevgi və digər münasibətlərdə də vəziyyət xeyrinizə olacaq.

**TƏRƏZİ** - Günün birinci yarısında mübahisəli situasiyalara cəlb olunma ehtimalınız böyükdür. Odur ki, hər xırda məsələyə ciddi reaksiya verməyin. Nahardan sonra maraqlı görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Qərarlarınızda qətiyyətli olsanız, müvəffəqiyyətə yaxınlaşacaqsınız. Mənfi enerjili Ayın bürcünüzdə olmasını da unutmayın. Bədxah adamları həqiqət və reallıqla məğlub edin.

**OXATAN** - Bəri başdan sürprizlərə hazır olun. Oturaq işlərə aludə olmaqdansa, fəallığınızı artırın. Bəxtinizdə qazanc da var. Nahar ərəfəsində cinayət tərkibli və dinə zidd addımlardan yayının.

**OĞLAQ** - Bir qədər darıxdırıcı olsa da, daxili sabitliyinizi qorumaqla müəyyən rahatlıq tapa bilərsiniz. Ciddi qərarlar qəbul etməyinizə lüzum yoxdur. Axşam qonaq getməyiniz yaxşı olar.

**SUTÖKƏN** - Ulduzlar əsas vaxtınızı maliyyə istiqamətində xərcləməyinizi məsləhət görür. Hər hansı əyləncə və ya səfərlər uğurdan xəbər verir. Bu şansdan yararlansanız, büdcəniz artacaq.

**BALIQLAR** - Ümumi məziyyətlərinə görə gərgin gün hesab etmək olar. Bu səbəbdən də bütün enerjinizi təmkinli olmağa yönəltməlisiniz. Əsəbinizlə oynayan adamlarla üz-üzə gəlməməyə çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Əgər məhbus 3 köynək toxusa....



Braziliyadakı bir həbsxanada qalan bütün məhkumlar vaxtlarını köynək toxumaqla keçirirlər. Məhkumların toxuduqları köynəklər Braziliyanın məşhur geyim markası olan "Doidelles" tərəfindən satılır. Başqa ölkələrə satılan köynəkləri toxuyan məhkumlar yalnız hörmək öyrənmirlər. Onlar həm də azadlığa çıxmaq üçün çalışırlar. Çünki məhkumların toxuduqları hər 3 köynək onların cəzalarını bir gün azaldır. Eyni zamanda, toxuduqları köynəklərin satışından faiz qazanırlar.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100